# 8 NOYABR ZƏFƏR GÜNÜDÜR!


Xalqın qəzeti!

# Xalq qəzeti

№ 247 (30651) 8 noyabr 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti





## 44 günlük Vətən müharibəsi 33 illik Qarabağ münaqişəsinə son qoydu



**Bu 44 günün hər günü bizim şanlı tariximizdir, hər gün Azərbaycan irəli gedirdi. Bu 44 gün ərzində bir gün də olmamışdır ki, biz geri çəkilək. Biz Ermənistanın 30 ilə yaxın müddət ərzində qurduğu istehkamları yararaq keçmişik. Bu istehkamlar elə qurulmuşdu ki, Azərbaycan oradan keçə bilməsin, əsgərimiz oradan keçə bilməsin. Eyni zamanda, Dağlıq Qarabağ ərazisinin coğrafi relyefi də Ermənistan tərəfi üçün daha əlverişli idi.**

**Azərbaycan əsgər və zabitləri böyük qəhrəmanlıq, şücaət göstərərək şərəfli missiyanı yerinə yetirdi və öz doğma torpaqlarını işğalçılardan azad etdi. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonları, eyni zamanda, Suqovuşan qəsəbəsi, Hadrut qəsəbəsi, Xocalı rayonunun bir hissəsi, Kəlbəcər rayonunun bir hissəsi, Murovdağ silsiləsi, Laçın rayonunun cənub hissəsi, strateji yüksəkliklər döyüş meydanında düşməndən azad edildi, orada Azərbaycan bayrağı qaldırıldı.**

**Şanlı müharibəmizə Şuşa şəhərində yekun vuruldu. Noyabrın 8-də Şuşa şəhərinin azad edilməsi tarixi nailiyyətimizdir. Şuşa işğal altına düşmüş birinci şəhərimiz idi və işğaldan azad edilən sonuncu şəhər oldu.**

***(Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında nitqindən.)***

## Prezident İlham Əliyev 8 Noyabr Zəfər Günü münasibətilə paylaşım edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 8 Noyabr – Zəfər Günü münasibətilə rəsmi sosial şəbəkə hesablarında foto paylaşıb.**

**AZƏRTAC fotonu təqdim edir.**




## “Qlobal oyun”da möhtəşəm Azərbaycan Zəfəri

**İnsanlıq təkamül etdikcə müharibələrin də sayı artır. Hər yeni əsrin gəlişi ilə insanların əbədi sülhün bərqərar olacağına inamı artsa da, təəssüf ki, bu ümidlər heç vaxt özünü doğrultmur. Müharibələrin, münaqişələrin sonu görünmür. Gözləmək olardı ki, qlobal ictimai şüurun təkamülü ilə yanaşı insanlığın həyata və dünyanın gələcəyinə baxışı da sülhə, barışığa və bəşəriyyətin xoşbəxtliyi uğrunda birgə çalışmalara köklənəcək. Amma bu baş vermir. İnsanlığa xas olan bir müəmma ortaya çıxır.**

XXI əsrin birinci qərinəsinin sonuna yaxınlaşırıq. İkinci Dünya müharibəsindən sonra Yer kürəsinin müxtəlif bölgələrində alovlanmış müxtəlif xarakterli hərbi-siyasi münaqişələrin demək olar ki, heç biri öz həllini tapmayıb. On illərlə və hətta yüz ildən çox uzanan və həllini gözləyən çoxsaylı münaqişələr mövcuddur. Onların içərisində yeganə istisna hal artıq tarixə qovuşmuş Qarabağ münaqişəsidir. Azərbaycanla Ermənistan arasında 30 ildən çox davam etmiş Qarabağ etno-siyasi münaqişəsinin həlli təcrübəsi bu paradoksun mexanizmlərini aşkar etməyə və davamlı sülhə nail olmaq üçün bəşəriyyət tərəfindən qlobal səviyyədə atılmalı olan addımları müəyyənləşdirməyə imkan verir.

Qarabağ münaqişəsinin tarixindən öyrəndiyimiz həqiqət ondan ibarətdir ki, heç bir münaqişə yalnız iki tərəf arasında yaranan ziddiyyətlərdən ibarət deyil. Hər bir münaqişədə ən azı 3-cü və ya daha çox maraqlı tərəflər iştirak edir. Maraqlı tərəflərin çoxluğu isə münaqişənin daha uzunömürlü olmasını təmin edir. Qarabağ münaqişəsi də məhz çoxsaylı maraqlı tərəflərin açıq və ya gizli şəkildə iştirak etdiyi və ermənilərin düşündüyünün əksinə olaraq, yalnız qlobal miqyaslı maraqların təmin olunmasına xidmət edən bir münaqişə idi.

*(ardı 14-cü səhifədə)*

## Qarabağ Zəfərinin dərsləri

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müzəffər Ali Baş Komandan kimi Qarabağda işğalçı Ermənistan üzərində qazandığı qələbə çoxəsrlik Azərbaycan tarixinin ən mühüm hadisəsidir. Azərbaycan tarixində Qarabağ Zəfəri ilə müqayisə edilə biləcək böyük tarixi hadisə göstərmək mümkün deyildir. Müzəffər Ali Baş Komandan Qarabağ Zəfəri ilə tarixdə ədalətli müharibə aparmağın nümunəsini göstərmişdir.**



Qarabağ savaşı işğalçılıq nəticəsində zəbt edilmiş tarixi Azərbaycan torpaqlarının xalqımıza qaytarılmasını təmin edən ədalətli hərbi-siyasi hadisədir.

*(ardı 4-cü səhifədə)*

## Birinci vitse-prezident Mehriban Əliyeva Zəfər Günü ilə bağlı paylaşım edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi “Instagram” hesabında Zəfər Günü ilə bağlı paylaşım edib.**




AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: “08.11.2024. Zəfər Gününüz mübarək! Allah Vətən uğrunda həlak olmuş bütün şəhidlərimizə rəhmət eləsin, onların ailələrinə güc və səbir versin. Uca Tanrı doğma Azərbaycanımızı daim qorusun!”.

## Bakı Media Mərkəzi COP29-un rəsmi yayım şirkəti olacaq




Səhifə ⇨ 18

# Prezident İlham Əliyev Böyükşor–Pirşağı avtomobil yolunun açılışında



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Böyükşor–Pirşağı yeni avtomobil yolunun açılışında iştirak edib.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Böyükşor–Pirşağı yeni avtomobil yolunun uzunluğu 12,7 kilometrdir. Yeni yol başlanğıcını Balaxanı qəsəbəsinin ərazisindən (Böyükşor gölü) götürməklə, Digah və Məmmədli qəsəbələrindən keçərək narlarında əlavə abadlıq işləri görülüb. Bundan başqa, müasir tələblər nəzərə alınaraq yolun 3-cü kilometrində elektrik avtomobilləri üçün enerjidoldurma qurğuları quraşdırılıb.

Qeyd edək ki, Azərbaycan Prezidentinin Sərəncamına əsasən, Bakı şəhərinin perspektiv inkişafı nəzərə alınmaqla Böyükşor–Pirşağı avtomobil yolunun tikin-



Kürdəxanı və Pirşağı qəsəbələrinə qədər uzanır.

Paytaxtda nəqliyyat axınının tənzimlənməsində böyük rol oynayacaq bu yol 1b texniki dərəcəyə uyğun olaraq ən müasir tələblər səviyyəsində inşa edilib və 6 hərəkət zolağından ibarətdir.

Layihəyə əsasən yolboyu 6 yolötürücü və bir avtomobil keçidi inşa edilib. Bundan başqa, yolboyu 3 yerdə "U" tipli geri dönüş keçidi yaradılıb.

Həm nəqliyyat vasitələrinin, həm də piyadaların ərazidə rahat və təhlükəsiz hərəkətini təmin etmək üçün yeni piyada səkiləri salınıb. Yeni avtomobil yolunun hər iki istiqaməti üzrə velosiped zolaqları salınıb, yolboyu müasir işıqlandırma sistemi quraşdırılıb. Layihəyə uyğun olaraq, ayırıcı zolaqlarda və yol kətisi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən icra olunub.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosialyönümlü siyasətin tərkib hissələrindən biri də müasir yol infrastrukturunun yaradılmasıdır. Son illərdə bu sahədə çox mühüm uğurlar əldə olunub və yeni layihələrin icrası davam etdirilir. Yol infrastrukturunun yenilənməsi ilə bağlı görülən işlər həm ölkə əhəmiyyətli yolları, həm də kənd yollarını əhatə edir. Bütün bu işlər bir daha sübut edir ki, ölkədə həyata keçirilən dövlət siyasətinin mərkəzində vətəndaşlarımızın rahatlığı və sosial vəziyyətinin yaxşılaşdırılması dayanır.

# Moldova Respublikasının Prezidenti Zati-aliləri xanım Maya Sanduya

**Hörmətli xanım Prezident!**

Moldova Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan–Moldova münasibətlərinin və əməkdaşlığının bugünkü inkişaf dinamikası məmnunluq doğurur. Biz qarşılıqlı hörmət və etimad üzərində qurulmuş dövlətlərarası əlaqələrimizin hərtərəfli inkişafına xüsusi əhəmiyyət veririk.

Əminəm ki, xalqlarımızın rifahı naminə Azərbaycan ilə Moldova arasında ənənəvi dostluq münasibətlərinin daha da genişləndirilməsi, bir sıra sahələrdə qarşılıqlı maraq doğuran əməkdaşlığımızın konstruktivlik zəminində bundan sonra da müvəffəqiyyətlə davam etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Moldova xalqının firavanlığı naminə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 noyabr 2024-cü il**

# Vyetnam Sosialist Respublikasının Prezidenti Zati-aliləri cənab Lıonq Kıonqa

**Hörmətli cənab Prezident!**

Vyetnam Sosialist Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Xoş ənənələrə əsaslanan Azərbaycan-Vyetnam əlaqələri uğurla inkişaf etməkdədir. Dövlətlərarası münasibətlərimizin və əməkdaşlığımızın bugünkü səviyyəsi məmnunluq doğurur.

İnanıram ki, ölkələrimiz arasındakı dostluq əlaqələrinin daha da genişlənməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın həm ikitərəfli, həm də çoxtərəfli qaydada möhkəmlənməsi yolunda birgə səylər göstərəcəyik.

Sizə ən xoş arzularımı çatdırır, dost Vyetnam xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 noyabr 2024-cü il**

# Dövlət başçısı Bakıda Mərkəzi Parkın III hissəsinin açılışında



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Bakıda Mərkəzi Parkın üçüncü hissəsinin açılışında iştirak edib.**

Dövlətimizin başçısına paytaxtın Yasamal rayonu ərazisində yerləşən parkda görülən işlər barədə məlumat verildi.

Qeyd edək ki, Mərkəzi Parkın birinci hissəsi 2019-cu il mayın 22-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə istifadəyə verilib. Parkın ikinci hissəsinin açılışı isə 2022-ci il dekabrın 30-da olub. Prezident İlham Əliyev açılışda iştirak edib.

qurulub. Ərazinin abadlaşdırılması zamanı burada XIX əsrin sonu-XX əsrin əvvəllərində inşa edilən və yerli sakinlər arasında "Təndir Hamamı" kimi tanınan tarixi-memarlıq abidəsi bərpa edilərək əvvəlki simasına qaytarılıb. Parkın ətrafındakı tarixi və digər yaşayış binaları əsaslı təmir olunub, Süleyman Tağızadə və Nabat Aşurbəyova küçələrinə yeni asfalt örtüyü döşənib, piyada səkiləri və parklanma yerləri yaradılıb, işıq dirəkləri quraşdırılıb və digər işlər görülüb.



Bildirildi ki, növbəti mərhələdə isə Mərkəzi Parkın üçüncü hissəsinin 9 hektar ərazisi tam abadlaşdırılıb, burada ən müasir tələblərə uyğun yeni istirahət zonası yaradılıb. Parkın yeni hissəsinin ümumi ərazisi illərdir yığılıb qalmış tullantılardan təmizlənib, torpaq səthi dəyişdirilib və müvafiq aqrotexniki tədbirlər görülüb.

Ümumilikdə parkın bu hissəsinin 7,4 hektarında 19 növdə 3 min 500 ağac, 25 mindən çox gül və kol bitkiləri əkilib. Burada yaşıllaşdırmanın daha səmərəli olması üçün əraziyə 60 min kubmetrə yaxın münbit torpaq tökülüb, müasir suvarma sistemi qurulub.

Ümumilikdə Mərkəzi Parkın üçüncü mərhələsinin tikintisi yekunlaşdıqdan, ərazidə yeni yaşıllaşdırma və abadlıq işləri görüldükdən sonra Təzəpir məscidi kompleksinin və Süleyman Tağızadə küçəsində yerləşən İmam Hüseyn məscidinin mənzərəsi tam olaraq açılıb.

Beləliklə, Mərkəzi Parkın üçüncü hissəsinin istifadəyə verilməsi ilə keçmiş "Sovetski" adlanan ərazidə salınan parkın ümumi sahəsi 35,4 hektara çatdırılıb və bura paytaxtın ən gözəl istirahət guşələrindən birinə çevrilib.



Mərkəzi Parkın yaşıllaşdırma konsepsiyasının əsas xüsusiyyəti bu istirahət məkanının ilin fəsillərini özündə əks etdirməsidir. Layihənin ən mühüm xüsusiyyətlərindən biri piyadaların Abdulla Şaiq küçəsinin hərəkət hissəsindən keçmədən maneəsiz gediş-gəlişi üçün yeraltı tunelin inşa edilməsidir. Onun inşası ilə Mərkəzi Parkın 1-ci, 2-ci və 3-cü hissələri arasında tam bağlantı yaradılıb. Ərazidə 3 fəvvarə kompleksi inşa edilib, idman qurğuları quraşdırılıb, uşaq əyləncə, həmçinin futbol-basketbol meydançaları, yaşlı insanların asudə vaxtlarının səmərəli təşkili üçün şahmat və stolüstü oyun meydançaları salınıb. Həmçinin burada süni göl və ətrafında söhbətgahlar yaradılıb ki, bu da şəhərimizin qonaqlarının və sakinlərin istirahətlərini daha maraqlı etmək üçün mühüm rol oynayır.

İstirahət parkında müasir işıqlandırma sistemi də

Xatırladaq ki, Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Bakı şəhərində həyata keçirilən abadlıq-quruculuq işlərinin həcmi son illərdə daha da artıb. Paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün ən müasir parkların və yeni yaşıllıq zolaqlarının salınması, Bakının qədim tarixi memarlıq nümunələrinin bərpası və müasir binaların tikilib istifadəyə verilməsi ölkəmizdə həyata keçirilən abadlıq-quruculuq işlərinin davamlı xarakter aldığını nümayiş etdirir. Mərkəzi Parkın yeni istifadəyə verilən üçüncü hissəsi də paytaxtımızın daha da gözəlləşməsi, şəhərdə yaşıl guşələrin sayının artırılması və insanların səmərəli istirahəti baxımından mühüm əhəmiyyət daşıyır.

***AZƏRTAC***

# Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında

## *Azərbaycan Respublikasi Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına ali hərbi rütbələr verilsin:

**"general-polkovnik" ali hərbi rütbəsi**

general-leytenant Hikmət İzzət oğlu Mirzəyevə

**"general-mayor" ali hərbi rütbəsi**

polkovnik Ələkbər Məhəmməd oğlu Cahangirova
polkovnik Gündüz Əliş oğlu Əbdülova
polkovnik Azər Əlövsət oğlu Qasımova

**"ədliyyə general-mayoru" ali hərbi rütbəsi**

ədliyyə polkovniki Elçin Nəriman oğlu Əliyevə.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 noyabr 2024-cü il**

# A.A.Məmmədova "general-mayor" ali hərbi rütbəsinin verilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Polkovnik Azər Aydın oğlu Məmmədova "general-mayor" ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 noyabr 2024-cü il**

# F.M.Seyidova "ədliyyə general-mayoru" ali hərbi rütbəsinin verilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri Fərid Mirmufid oğlu Seyidova "ədliyyə general-mayoru" ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 noyabr 2024-cü il**

# "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi" publik hüquqi şəxsin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

**Müşahidə Şurasının sədri**

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri

**Müşahidə Şurasının üzvləri:**

Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini

Dövlət Mülki Aviasiya Agentliyinin direktoru

Dövlət Dəniz və Liman Agentliyi İdarə Heyətinin sədri

"Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" publik hüquqi şəxsin İdarə Heyətinin sədri.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 noyabr 2024-cü il**

# S.Ə.Kərimiyə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

**1.** Azərbaycan musiqi mədəniyyətinin inkişafında xidmətlərinə görə Siyavuş Əşrəf oğlu Kərimiyə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 noyabr 2024-cü il**

# Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyəti üzvlərinin vəzifəyə təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Milli Məclisinin qərarı*

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 15-ci bəndinə və II hissəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Aşağıdakı şəxslər Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvü vəzifəsinə təyin edilsinlər:

Əli İsmayıl oğlu Əhmədov,
Toğrul Nəcəfəli oğlu Əliyev,
Vüsal Cahangir oğlu Xəlilov,
Gülər Azər qızı Paşayeva.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin sədri***

**Bakı şəhəri, 7 noyabr 2024-cü il**

# R.T. Orucovun Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvü vəzifəsindən azad edilməsi haqqında

## *Azərbaycan Respublikası Milli Məclisinin qərarı*

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 15-ci bəndinə və II hissəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Rəşad Təmraz oğlu Orucov Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvü vəzifəsindən azad edilsin.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin sədri***

**Bakı şəhəri, 7 noyabr 2024-cü il**

# Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin yaradılması və bununla əlaqədar bəzi məsələlərin həll edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, nəqliyyat və kommunikasiya sahələrində fəaliyyət göstərən dövlət müəssisələrinin işinin təkmilləşdirilməsi, o cümlədən iqtisadi səmərəliliyinin yüksəldilməsi və dövlət büdcəsinin gəlirliliyinin artırılması üçün müasir tələblərə cavab verən çevik idarəetmə sisteminin qurulması məqsədilə **qərara alıram:**

**1.** "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxs yaradılsın.

**2.** "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxsin idarəetməsinə veriləcək dövlət müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin və publik hüquqi şəxslərin siyahısı" təsdiq edilsin (əlavə olunur).

**3.** Müəyyən edilsin ki:

3.1. "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxs (bundan sonra – Holdinq) idarəetməsinə verilmiş dövlət müəssisələrinin, dövlət payı olan təsərrüfat cəmiyyətlərinin və publik hüquqi şəxslərin (bundan sonra – dövlət müəssisələri) vahid prinsiplərə uyğun idarə olunması, işinin təkmilləşdirilməsi, rəqabət qabiliyyətinin və maliyyə dayanıqlılığının yaxşılaşdırılması sahəsində fəaliyyət göstərən publik hüquqi şəxsdir;

3.2. Holdinqin fəaliyyətinə ümumi rəhbərliyi Müşahidə Şurası, cari rəhbərliyi icraçı direktor həyata keçirir;

3.3. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla, bu Fərmanın 2-ci hissəsinə əsasən idarəetməsinə veriləcək dövlət müəssisələrinin Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq ali idarəetmə orqanının müstəsna səlahiyyətinə aid edilmiş məsələləri Holdinq Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həll edir;

3.4. Holdinqin Müşahidə Şurası:

3.4.1.idarəetməsinə verilmiş dövlət müəssisələrinin gəlirlər və xərclər smetalarını təsdiq edir;

3.4.2.idarəetməsinə verilmiş dövlət müəssisələrinin fəaliyyətindən əldə olunmuş vəsait üzərində sərəncam verir;

3.4.3.idarəetməsinə verilmiş dövlət müəssisələrinin fəaliyyətinin səmərəliliyini onların səmərəlilik göstəricilərinin təhlili əsasında qiymətləndirir, eləcə də gəlirlər və xərclər smetalarının icrası üzrə monitorinq aparır;

3.5. idarəetməsinə verilmiş dövlət müəssisələrinin müşahidə şuralarının üzvləri, o cümlədən onların rəhbərləri Holdinqin Müşahidə Şurası tərəfindən (icra orqanının rəhbərini Azərbaycan Respublikası Prezidentinin təyin etdiyi qurumlara münasibətdə isə Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla) vəzifəyə təyin və vəzifədən azad edilir;

3.6. Holdinqin nizamnamə fondu 10 000 000 (on milyon) manatdır və Holdinqin idarəetməsinə verilmiş dövlət müəssisələri tərəfindən ödənilən vəsait hesabına formalaşır.

**4.** Holdinqin fəaliyyətinin təşkili və təmin edilməsi xərcləri aşağıdakı mənbələrdən maliyyələşdirilir:

4.1. idarəetməsinə verilmiş dövlət müəssisələrinin Holdinqə ödədikləri vəsait hesabına (hər bir müəssisə üzrə Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş məbləğdə və qaydada);

4.2. qanunla qadağan olunmayan digər mənbələrdən.

**5.** Holdinqin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

5.1. Azərbaycan Respublikasının Prezidentinə:

5.1.1.nizamnaməsinin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

5.1.2.idarəetmə orqanlarının yaradılması;

5.1.3.Müşahidə Şurası üzvlərinin (o cümlədən sədrinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi;

5.1.4.icraçı direktorun vəzifəyə təyin və vəzifədən azad edilməsi;

5.1.5.Holdinqin ləğvi və yenidən təşkili;

5.2. Holdinqə:

5.2.1. bu Fərmanın 5.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

**6.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

6.1. Holdinqin yaradılması ilə əlaqədar normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini beş ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.2. Holdinqin dövlət qeydiyyatına alınması üçün nizamnaməsi təsdiq edildiyi tarixdən üç gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə müraciət etsin;

6.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**7.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

7.1. "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxsin Nizamnaməsinin layihəsini hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**8.** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 5 noyabr tarixli 1174 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 11, maddə 1343 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə veriləcək dövlət şirkətlərinin və müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin siyahısı"nın 2–5-ci, 16-cı və 16-1-ci hissələri ləğv edilsin.

**9.** Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 avqust tarixli 4078 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (I kitab), maddə 1237 (Cild I) ilə təsdiq edilmiş "Özəl investisiyaların cəlb edilməsi nəzərdə tutulan dövlət müəssisələrinin siyahısı"nın 2-ci və 3-cü hissələri ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 noyabr 2024-cü il**

***Azərbaycan Respublikası Prezidentinin***
***2024-cü il 7 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir***

# "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxsin idarəetməsinə veriləcək dövlət müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin və publik hüquqi şəxslərin siyahısı

1. "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti
2. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti
3. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
4. "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti
5. "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti
6. "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyəti
7. Bakı Gəmiqayırma Zavodu
8. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki aşağıdakı qurumlar:

8.1. "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" publik hüquqi şəxs
8.2. "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti
8.3. "Azerbaijan International Telecom" (AzInTelecom)" Məhdud Məsuliyyətli Cəmiyyəti
8.4. "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti
8.5. "Bakı Taksi Xidməti" Məhdud Məsuliyyətli Cəmiyyəti
8.6. "Radio-Televiziya Yayımı və Peyk Kommunikasiyası" İstehsalat Birliyi

9. Bu Siyahının 1–8-ci hissələrində nəzərdə tutulan hüquqi şəxslərin təsisçisi və iştirakçısı (iştirak payına uyğun) olduğu hüquqi şəxslər və müəssisələr.

# Azərbaycan–İspaniya COP29 əməkdaşlığı

**Noyabrın 7-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov ilə İspaniya Krallığının Xarici İşlər, Avropa İttifaqı və əməkdaşlıq naziri Xose Manuel Albares Bueno arasında telefon danışığı baş tutub.**




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, telefon danışığı zamanı nazir Ceyhun Bayramov, ilk növbədə, İspaniyada baş vermiş daşqınlar səbəbindən həyatını itirmiş şəxslər və təbii fəlakətin digər fəsadları ilə bağlı başsağlığı mesajını yenidən ifadə edib.

Daha sonra tərəflər iki ölkə arasında əməkdaşlıq perspektivlərini müzakirə edib və mövcud əməkdaşlığın genişləndirilməsinin hər iki ölkə üçün əhəmiyyət kəsb etdiyini vurğulayıblar.

Telefon danışığı zamanı BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq işləri, iki ölkə arasında bu istiqamətdə əməkdaşlıq məsələləri müzakirə olunub.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

***XQ***

# Qarabağ Zəfərinin dərsləri

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın prezidenti, akademik***



*(əvvəli 1-ci səhifədə)*

Heç şübhəsiz, 20 sentyabr 2023-cü il tarixdə uğurla həyata keçirilmiş bir günlük lokal antiterror əməliyyatı Qarabağ savaşının – Vətən müharibəsinin möhtəşəm yekunudur. Məhz bu hadisə ilə Qarabağ müharibəsi özünün ali məqsədinə çatdırılmışdır. Beləliklə, Qarabağ – Vətən müharibəsində qazanılan şanlı Zəfər Azərbaycan xalqının tarixində və taleyində ən möhtəşəm hadisədir. Qarabağ Zəfəri həm Azərbaycan və türk dünyası miqyasında böyük siyasi-tarixi və hərbi hadisə olmaqla bərabər, həm də bunun ədalətli müharibə kimi ümumdünya tarixi əhəmiyyəti vardır. Bu mənada, Qarabağ Zəfərinə Azərbaycan hadisəsi olmaqla yanaşı, həm də beynəlxalq miqyasda baxıb dəyərləndirmək lazımdır. Fikrimcə, artıq II Qarabağ müharibəsi və tarixi Zəfər mövzusuna həmin müharibənin gedişinin, təkrarsız qəhrəmanlıq nümunələrinin, hərbi taktikasının, döyüş səhnələrinin dərindən tədqiq edilməsi ilə yanaşı, həm də geniş mənada türk dünyasındakı yeri və rolu, ümumdünya tarixi əhəmiyyəti haqqında da ciddi tədqiqatlar aparılmalı, elmi-siyasi ümumiləşdirmələr edilməlidir.

Beləliklə, həmin istiqamətdə ilk addımlardan biri kimi, Qarabağ Zəfəri bizə nə verdi sualı ətrafında fikir və mülahizələrimi çatdırmaq istəyirəm.

1. İkinci Qarabağ – Vətən müharibəsi, hər şeydən əvvəl, Azərbaycan xalqına dünyada heç nə ilə müqayisə edilməsi mümkün olmayan qeyri-adi Zəfər sevinci yaşatdı. Bu, uzun zaman övladı olmayan bir ananın nəhayət oğul dünyaya gətirməsindən də böyük sevinc hissi idi. Çünki burada 30 illik işğaldan sonra Azərbaycan yenidən doğulmuşdu.

Bu, sovet hakimiyyəti illərində Sibirə sürgün olunmuş bir adamın və uzun müddət bütün ümidlər kəsiləndən sonra gözlənilmədən doğma Vətənə qayıtmasından da böyük sevincdir. Həmin mühüm mənəvi hadisələrin də qiymətini heç də aşağı salmadan Qarabağ Zəfərində geniş mənada Vətənin böyük bir parçasının, yüz minlərlə qaçqın ailələrinin Qayıdışının sevincinin miqyasını göz önünə gətirmək istəyirəm.

Bütün bunlara görə, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin böyük qürur hissi ilə bəyan etdiyi «Şuşa, Sən azadsan! Biz qayıtmışıq!» sözlərinin doğurduğu sevincin, həyəcanın əvəzi yoxdur.

İkinci Qarabağ müharibəsində Azərbaycan xalqına, dünya azərbaycanlılarına qazandırdığı bu böyük sevinc duyğuları üçün Ali Baş Komandan İlham Əliyevə xalqımız əbədi minnətdardır.

2. Qarabağ savaşı – II Vətən müharibəsi Azərbaycan xalqında itirilmiş Vətən torpaqlarının qaytarılmasına inam hissləri yaratmışdır. Çünki çar Rusiyasının Azərbaycanı işğal etdiyi XIX əsrin əvvəllərindən başlayaraq ta ulu öndər Heydər Əliyev ölkəmizdə siyasi hakimiyyətə gələnədək zaman-zaman torpaqlarımız, ərazilərimiz itirilmiş, sərhədlərimiz dəyişdirilmiş və heç vaxt geri qaytarılmamışdır. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev 1969-cu ildə Sovet Azərbaycanının rəhbəri vəzifəsinə başladıqdan sonra torpaq itkisi anlayışına birdəfəlik son qoyulmuşdur.

Müstəqil Azərbaycanın Prezidenti kimi də Heydər Əliyev Qarabağın bir hissəsi olan Horadiz döyüşlərinə rəhbərlik etməklə Füzuli rayonu ərazisində bir çox kəndləri düşmən işğalından azad etmiş, gələcək Zəfərin əsasını qoymuşdur.

Bununla belə, Ermənistan dünya ölkələrindəki tərəfdarlarının vasitəsi ilə Qarabağ məsələsini "dondurulmuş münaqişə" kimi elan etməklə hərbi-siyasi gündəmdən çıxarmağa, yeni nəsillər tərəfindən unutdurulmağa çalışmışdır. Müstəqillik illərində dövlət səviyyəsində aparılan sülh danışıqları, edilmiş cəhdlər də təəssüf ki, Ermənistan tərəfinin və Minsk Qrupunun ikiüzlü və məkrli siyasəti nəticəsində heç bir nəticə verməmişdir. Xalqda Qarabağda itirilmiş torpaqların geri qaytarılacağına ümidsizlik sindromu formalaşdırmağa çalışmışlar.

Belə bir siyasi-tarixi şəraitdə əslində müharibə etməkdən başqa, heç bir çarə qalmamışdır. Ali Baş Komandanın "Mən nəyi, nə vaxt edəcəyimi hamıdan yaxşı bilirəm" sözləri xalqımızın qəlblərinin dərinliklərində Qarabağ torpaqlarının qaytarılmasına ümid qığılcımları yaratmışdır. Və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 27 sentyabr 2020-ci ildə başlanan müharibə nəticəsində cəmi 44 gün ərzində 30 il Ermənistanın işğalı altında qalmış Qarabağ və Şərqi Zəngəzur torpaqları geri qaytarılmışdır. Bu, son 200 il ərzində Vətən torpaqlarının qaytarılması sahəsində ilk və möhtəşəm qələbədir. Bu tarixi Zəfər Azərbaycanın itirilmiş torpaqlarını həmişəlik geri alınmasına xalqımızın inam hissinin qaytarılması baxımından da əvəzsiz hadisədir. Çünki məhz həmin dərin inam hissi Azərbaycan xalqının bir daha öz torpaqlarının kimlərinsə tərəfindən işğal edilə biləcəyi qorxusunu, torpaq itirmək xofunu qəti olaraq aradan qaldırmışdır.

3. İkinci Qarabağ müharibəsi özünün xarakterinə görə ədalətli müharibədir. Çünki bu müharibə Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu ölkəmizə məxsus olan əzəli-əbədi ərazilərimizin, dədə-baba torpaqlarımızın işğaldan azad edilməsi naminə baş vermişdir. Dünyanın müxtəlif ölkələrində haqsız, ədalətsiz müharibələrin və münaqişələrin davam etməkdə olduğu bir dövrdə müzəffər Ali Baş Komandanımız İlham Əliyev ədalətli müharibə aparmağın əsl nümunəsini göstərmişdir. Bu isə öz növbəsində, dünyada Prezident İlham Əliyevə ədalətli siyasi lider, xalqımıza isə ədalətli xalq imici qazandırmışdır.

4. Vətənpərvərlik tərbiyəsinin inkişaf etdirilməsi və daha da möhkəmləndirilməsi baxımından da İkinci Qarabağ müharibəsi çox əhəmiyyətli olmuşdur. Əslində vətənpərvərlik hissi Azərbaycanda ən qədim dövrlərdən, "Kitabi-Dədə Qorqud" epoxasından mövcuddur. Bununla belə, müstəqilliyin başlanğıcıyla ölkəmizdə baş vermiş xaos, I Qarabağ müharibəsindəki məğlubiyyətdən doğan ümidsizlik və bazar iqtisadiyyatının ön mövqeyə çəkdiyi kommersiya maraqları vətənpərvərlik hissini bir qədər arxa plana keçirmişdir. Ulu öndər Heydər Əliyevin ikinci hakimiyyəti dövründə aparılmış məqsədyönlü siyasət nəticəsində bu boşluğun aradan qaldırılması istiqamətində addımlar atılmışdır. Azərbaycan Respublikasının Prezidentinin ardıcıl olaraq həyata keçirdiyi gənclər siyasəti, könüllülər hərəkatı ölkəmizdə yeni nəsil vətənpərvər gəncliyin yetişib formalaşdırılması ilə nəticələnmişdir. İnkişafın bu mərhələsində meydana çıxmış bu yeni vətənpərvər nəsli İlham Əliyevin vətənpərvərlik andı qəbul etmiş gənc qvardiyası adlandırmaq olar. II Qarabağ müharibəsinin çətin və məsuliyyətli imtahanında İlham Əliyev dövrünün vətənpərvər gəncliyinin Vətən və Torpaq sevgisi döyüş səngərlərində isbat olunmuşdur. Postmüharibə dövründə isə döyüş cəbhəsində möhkəmlənmiş vətənpərvərlik əqidəsi qazanılan tarixi Zəfərdən doğan milli qürur və iftixar hissi ilə birləşərək əbədi dəyər və sərvətə çevrilmişdir.

5. İkinci Qarabağ müharibəsində Böyük Zəfərin qazanılmasında Azərbaycanda yaşayan bütün xalqların nümayəndələrinin övladları vahid Vətən uğrunda eyni eşq ilə dönmədən döyüşmüşlər. Qarabağ müharibəsi şəhidləri arasında ölkəmizin əbədi sakinləri olan ayrı-ayrı xalqların üçrəngli Azərbaycan Bayrağı və müzəffər Ali Baş Komandan ətrafında mətin sıralarla birləşmiş azərbaycanlı vətənpərvər gənclər vardır. Müharibədə vahid amal uğrunda göstərilən şücaət və qəhrəmanlıq nəticə etibarilə ölkəmizdə azərbaycançılıq ideyasını qüvvətləndirmişdir. İkinci Qarabağda qazanılan tarixi Zəfər döyüş meydanında daha da möhkəmləndirilmiş azərbaycançılıq idealının qələbəsi və təntənəsidir. Bu baxımdan Azərbaycan Respublikasının dövlət ideologiyası olan azərbaycançılıq II Qarabağ müharibəsində əsl imtahanlardan qabiliyyətlə çıxaraq həm də müqəddəs anda çevrilmişdir.

6. Azərbaycanda əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş birlik və həmrəylik ideyası da İkinci Qarabağ savaşında əməldə təsdiq olunmuşdur. Vətən müharibəsi başlanan kimi Azərbaycanda fəaliyyət göstərən 50-dən çox siyasi partiyadan ikisini çıxmaq şərtilə hamısı birmənalı şəkildə fəaliyyətini dayandıraraq, "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" şüarı ətrafında birləşdiklərini elan etmişlər. Xalqımız arxa cəbhədə müzəffər Ali Baş Komandan ətrafında möhkəm birlik nümayiş etdirmişdir. Dünya azərbaycanlılarının planetimizin müxtəlif qitələrində küçələrə, meydanlara çıxaraq beynəlxalq təşkilatların, səfirliklərin qarşısındakı mütəşəkkil mitinqlərə göstərdikləri həmrəylik hərəkatı da daha geniş mənada xalqımızın birliyinin gerçək bir əks-sədası idi. Beləliklə, İkinci Qarabağ müharibəsi ölkəmizdə mövcud olan xalq–iqtidar birliyini daha da möhkəmləndirmiş birlik və həmrəyliyin hansı böyük gücə və imkanlara malik olduğunu nümayiş etdirmişdir. Xalqımız həmin möhtəşəm birliyi 20 sentyabr 2024-cü ildə Ali Baş Komandanın rəhbərliyi ilə keçirilmiş bir günlük hərbi əməliyyatda da eyni səviyyədə göstərmişdir. Bu ilin 7 fevralında Azərbaycan Respublikası Prezidentliyinə növbədənkənar seçkilərdə də Azərbaycan xalqı mütəşəkkil şəkildə iştirak etməklə və vahid mövqe nümayiş etdirməklə müzəffər Ali Baş Komandanın ətrafında sıx birləşdiklərini əyani şəkildə bəyan etmişlər. Beləliklə, İkinci Qarabağ müharibəsində nümayiş etdirilmiş siyasi-mənəvi birlik ölkəmizdə əqidə bütövlüyü səviyyəsinə yüksəlmişdir.

7. Əsası Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev tərəfindən yaradılmış "Bir millət – İki dövlət" strategiyası İkinci Qarabağ müharibəsi dövründə daha da möhkəmləndirilmişdir. Qardaş Türkiyə Cümhuriyyətinin İkinci Qarabağ müharibəsində Azərbaycana verdiyi siyasi və mənəvi dəstək xalqımıza və qəhrəman ordumuza böyük dayaq olmuş, özünəinam hissləri yaratmaqda mühüm rol oynamışdır. Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayib Ərdoğanın və qardaş türk xalqının Azərbaycanla həmrəyliyi dünya güclərinin də dərindən düşünmələrinə, Qarabağ müharibəsinin xalqımızın haqq işi olmasına beynəlxalq səviyyədə dəstək verilməsinə səbəb olmuşdur. Etiraf etmək lazımdır ki, tarixi minilliklərə gedib çatan Azərbaycan–Türkiyə qan qohumluğu İkinci Qarabağ müharibəsində məslək qardaşlığı səviyyəsinə qalxmışdır.

8. İkinci Qarabağ müharibəsi türk dünyasının da möhkəm birlik və həmrəyliyinin vahid gücə çevrilməsinə əhəmiyyətli dərəcədə ciddi təsir göstərmişdir. Azərbaycanın haqq işi uğrunda apardığı müharibə türk dünyasında yeni bir mənəvi oyanış dalğası yaratmışdır. Bu, türk dövlətlərinin bir-birlərinə daha da yaxınlaşmasına təkan vermişdir. Qarabağın işğaldan azad edilmiş ərazilərində Özbəkistan, Qazaxıstan, Qırğızıstan respublikalarının, Tatarıstan Respublikasının Böyük Qayıdış hərəkatına qoşulmaları postmüharibə dövrünün inteqrasiya proseslərinin göstəriciləridir. Azərbaycanın Türkiyə və Özbəkistanla, Özbəkistanın Qazaxıstanla imzaladıqları müttəfiqlik müqavilələri həm də türk dünyasında İkinci Qarabağ müharibəsində xalqımızın qazandığı tarixi Zəfərin oyatdığı ideyalar əhəmiyyətli rol oynamışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 14 fevral 2024-cü il tarixdə Milli Məclisdə keçirilmiş Andiçmə mərasimində "Türk dünyası ailəsi" haqqında irəli sürdüyü mühüm strateji əhəmiyyətə malik olan fikirlər türk dünyasında əlaqələrin genişləndirilməsi və dərinləşdirilməsi ideyasının türk respublikalarında dövlət siyasəti səviyyəsinə qaldırılmasını zərurətə çevirmişdir.

9. Əlbəttə, müharibə etmək, qan tökmək heç bir xalq üçün, Azərbaycan xalqı üçün də arzuolunan deyildir. Lakin müharibə qaçılmaz bir şəkildə baş verdikdə beynəlxalq qaydalara uyğun olaraq müharibə aparmaq mədəniyyəti göstərmək həmin xalqın yüksək dəyərlərinin göstəricisi kimi səslənir.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Qarabağ savaşında qarşı tərəfin sivil əhalisinə zərər verməmək, yaralıları təhvil vermək, ağ bayraq qaldıranlara şərait yaratmaq və sair kimi böyük humanist prinsiplərə axıradək sadiq qalmışdır. Təəssüf ki, Ermənistan tərəfi Azərbaycanın Gəncə, Bərdə, Tərtər şəhərlərinə raket zərbələri endirərək dinc əhalinin qanını axıtmış, faciələr törətmişdir.

Əsl müharibə mədəniyyəti göstərmək ən çətin anlarda humanizm nümayiş etdirməyi bacarmaq Azərbaycan xalqının ən ali mənəvi dəyərləri kimi dünyaya bəyan edilmişdir. Bu ali keyfiyyət xalqımızın və dövlətimizin dünyada imicini yüksəltmişdir.

10. İkinci Qarabağ müharibəsi xarakterinə görə yeni tipli müharibə idi. Qarabağ müharibəsində üzü-üzə döyüşən ordu qüvvələrindən çox yeni hərbi texnikanın fərqli və yüksək imkanları əsasında aparılan döyüş əməliyyatları üstünlük təşkil edir. Bu isə Azərbaycan ordusunun yüksək texniki hazırlığa malik olduğunu da nümayiş etdirmişdir. Azərbaycan Ordusu ən müasir hərbi texnikanı Qarabağ savaşında uğurla sınaqdan çıxarmışdır. Tarixi Zəfərin qazanılmasında müharibədə yeni hərbi texnikadan bacarıqla istifadə edilməsi, döyüşən qüvvələrin müasir hərbi texnologiyaya dərindən bələd olması qarşı tərəfi döyüş meydanından qaçmağa məcbur etmiş, dünyanın böyük marağına səbəb olmuşdur. Bu, müzəffər Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğu siyasətinin təntənəsidir.

11.Böyük Qayıdış Qarabağ Zəfərinin övladıdır, davamıdır. Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Böyük Qayıdış hərəkatı böyük vüsətlə davam etdirilir. Prezident İlham Əliyev Ermənistanın işğalçılıq siyasəti nəticəsində dağıdılaraq xarabalığa dönmüş ərazilərdə gülüstana çevrilmiş yeni Qarabağ qurur. Böyük Qayıdış – yeni Qarabağ yeniləşməkdə davam edən müstəqil Azərbaycanın müasir inkişafının simasıdır, Prezident İlham Əliyevin dünya qarşısındakı sülhsevər quruculuq hesabatıdır.

12. Müasir dövrdə neokolonializm hərəkatının genişlənməsinin də mənbəyində İkinci Qarabağ müharibəsi dayanır. Azərbaycanın ədalətli mühafizə apararaq, düşmən qüvvələri öz torpaqlarından qovaraq, 30 illik işğala son qoyması dünyada müstəmləkəçilik siyasətinə böyük zərbə vurmuşdur. Fransanın müstəmləkələri kimi mövcud olan dövrlərdə milli azadlıq uğrunda yeni mübarizə hərəkatının başlanması Qarabağ müharibəsindən sonra dünyada baş verən yeni hərbi-siyasi proseslərdir. Afrika qitəsində də eyni proses yaşanmaqdadır. Milli azadlıq mübarizəsinə qalxmış xalqların Azərbaycanın üçrəngli dövlət bayraqlarını dalğalandırmaları, Azərbaycana üz tutmaları Qarabağ savaşından sonra baş vermiş oyanışın əks-sədasıdır. Bu faktlar Qarabağ müharibəsinin ümumdünya tarixi əhəmiyyətə malik olduğunu göstərir.

13. Prezident İlham Əliyevin "dəmir yumruğ"u ilə Qarabağ Zəfəri və bir günlük antiterror əməliyyatı ilə Azərbaycan ərazisində separatizmə və terrorçuluğa son qoyulmuşdur. Bu, dünyada separatçılığa, terrorizmə Azərbaycanın vurduğu zərbədir. Bu mühüm fakt da Qarabağ müharibəsinin ümumdünya tarixi əhəmiyyətini nümayiş etdirir.

14. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hələ 17 oktyabr 1990-cı ildə Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd kimi Naxçıvan Muxtar Respublikasının Nehrəm seçki dairəsində seçicilərlə görüşü zamanı ölkəmizin ərazi bütövlüyünün təmin edilməsinin dövlətçilik baxımından ən mühüm vəzifələrdən biri, bəlkə də birincisi olduğunu bəyan edərək demişdir: "Mənim əsas məqsədim Azərbaycanın ərazi bütövlüyünü və Azərbaycan hakimiyyətini respublikanın bütün ərazisində bərqərar etməkdən ibarətdir".

Azərbaycan Respublikası müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə İkinci Qarabağ müharibəsi və onun davamı olan 20 sentyabr 2023-cü ildə keçirilmiş 1 günlük uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmiz ərazi bütövlüyünə nail olmuşdur. Beləliklə, Prezident İlham Əliyev müstəqil dövlətimizin ən mühüm strateji hədəfi olan ərazi bütövlüyünü təmin etməklə böyük qürurla bəyan etdiyi kimi "ata vəsiyyətini" yerinə yetirmişdir.

Ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi müstəqil dövlətimizin suverenliyinin əsasını təşkil edir. Prezident İlham Əliyev müstəqil Azərbaycan Respublikasına tam dövlət suverenliyi və ərazi bütövlüyü qazandırmış qüdrətli liderdir.

Bu cəhətdən tam ərazi bütövlüyü və dövlət suverenliyi kimi müqəddəs dəyərlər müzəffər Ali Baş Komandanın və İkinci Qarabağ müharibəsindəki tarixi Zəfərin tarixi-siyasi nailiyyətləridir.

15. Qalib lider və qalib xalq anlayışları da Azərbaycanın İkinci Qarabağda qazanılan tarixi Zəfərlə gəlmişdir. Azərbaycan Respublikasının Prezidenti Qarabağ müharibəsində həm Ali Baş Komandan missiyasını ən yüksək səviyyədə həyata keçirməklə və həm də informasiya cəbhəsində apardığı qətiyyətli mübarizə ilə dünya liderliyi miqyasında qüdrətli bir dövlət xadimi olduğunu isbat etmişdir.

Müzəffər Ali Baş Komandan İlham Əliyev tarixə Qarabağ Zəfəri yazmış qalib liderdir. Qalib lider olaraq İlham Əliyev 44 günlük müharibədəki şanlı Zəfərlə Azərbaycan xalqına qalib xalq adını qazandırmışdır.

Ümumiyyətlə, İkinci Qarabağ – Vətən müharibəsi Azərbaycanın çoxəsrlik tarixinin ən şanlı hadisəsidir. İkinci Qarabağ müharibəsinin və tarixi Zəfərin ibrətamiz siyasi-tarixi dərsləri və ideya-mənəvi nəticələri Azərbaycan xalqının daha da yetkinləşməsinə, mətinləşməsinə, dünyada tanınmasına və irəliyə doğru ayıq-sayıq baxmasına, gələcək hədəflərin düzgün müəyyən edilməsinə qiymətli, düşündürücü töhfələr vermişdir. Müasir dünyada gedən hərbi-siyasi proseslərdə də xalqlara və dövlətlərə ədalətli mövqe tutmaq və qələbəyə nail olmaq üçün Qarabağ Zəfəri canlı bir nümunədir.

# Yeni Türk intibahının başlanğıcı

**Sabir RÜSTƏMXANLI,**
**Xalq şairi**

**Milli azadlıq, müstəqillik, zəfər, milli qurtuluş yüz illər boyu həsrətini çəkdiyimiz, lüğətimizdə olsa da, həyatımızda olmayan sözlərdir. İndi bu sözlər və bu sözlərin arxasında duran unudulmaz hadisələr həmişəlik olaraq xalqımızın yaddaşına və təqvimimizə köçmüşdür. Zəfər bayramını bizə 2020-ci il noyabr ayının 8-də, Şuşanı fəth edən qəhrəman əsgərlərimiz hədiyyə etdilər. Həmin ilin dekabr ayında Azərbaycan Prezidentinin Fərmanı ilə Şuşada qazanılan Qələbə Zəfər bayramı kimi rəsmiləşdi. Ordumuzun bu rəşadəti bütün Qələbə arzularımızın yekunu və Yeni Türk intibahının başlanğıcı oldu.**



Torpağımızın hər qarışı bizə əzizdir, lakin Şuşanın düşmən əlindən alınmasının son dərəcə böyük tarixi, mənəvi, psixoloji əhəmiyyətini hər birimiz bilirik. Azərbaycanın sənət zirvəsi, Qarabağ xanlarının baş kəndi, mədəniyyətimizə qızıl səhifələr yazmış böyük sənətkarların ata ocağı olan Şuşanın ermənilər tərəfindən işğalı hər birimiz üçün bir utanc mənbəyi idi və bunun məsuliyyətini bütün xalq daşıyırdı.

Üzeyir bəyin musiqisinə sakit qulaq asa bilmirdik. Vaqifin, Zakirin, Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin, Yusif Vəzir Çəmənzəminlinin əsərlərini oxuyanda gözümüz dolurdu. Onların ruhları bizə dinclik vermirdi.

Paşinyan başda olmaqla Ermənistan rəhbərlərinin və Dağlıq Qarabağ faşistlərinin Şuşada qol açıb oynamaları yadımıza düşəndə xəcalət çəkirdik.

Azərbaycan Ordusu Şuşanı azad etməklə qürurumuzu qaytardı. Son dörd ildə Qarabağda baş verən hadisələr Azərbaycan tarixinin ən parlaq səhifələri siyahısındadır.

30 il ərzində Qarabağda törədilmiş vəhşiliklərin, son iki əsrdə bütün Cənubi Qafqazda qətlə yetirilən Azərbaycan türklərinin təsəvvürə gəlməz qanlı faciələrinin, Ermənistandan qovulan soydaşlarımızın üzləşdikləri zülmlərin cavabı böyük Qələbə, böyük Zəfər ola bilərdi. Amma 1988-ci ildən başlanan erməni terroru və torpaq iddiaları qələbəyə qədərki 32 ildə Azərbaycan xalqını çox ağır sınaqlardan keçirdi. Dağlıq Qarabağdan və Ermənistandan çıxarılmış insanların qaçqın, köçkün həyatı sözlə ifadə edilə bilməyən bir faciə dastanıdır; sinəmizə çəkilən dağdır, yaradır və onun sağalması hələ çox çəkəcək.

Bu yaranı indi azad olunmuş Qarabağda görülən işlər, rayonlarımızın yenidən dirçəlişi, salınan yeni şəhərlər, kəndlər sağalda bilər.

30 il tarix üçün qısa bir zamandır. Ancaq bu illər bütöv ailələri məhv etdi; saysız-hesabsız insanın arzuları yarımçıq qaldı. Qarabağda əsrlərdən yadigar qalan abidələrimiz, hər biri bir sənət əsəri sayıla bilən gözəl evlərimiz dağıdıldı, qəbiristanlıqlarımız şümlandı. Zəfər bayramı fantastik bir loğman kimi yavaş-yavaş bu yaraları sağaldır.

Əslində, biz ən ağır günlərdə, SSRİ-nin silahlı qüvvələrinin yardımı ilə Azərbaycan torpaqlarını işğal edən erməni faşizminin qabağında əliyalın vəziyyətdə nə qədər sarsıntılar keçirtsək də, böyük güclərin, ATƏT-in Minsk qrupunun on illərlə davam edən oyunbazlıqlarını və ermənipərəst siyasətinin şahidi olsaq da sonda qələbəmizə inamımızı heç vaxt itirməmişik. Çünki hər bir azərbaycanlı Ermənistanın bizim torpağımızda yaradılmış, kökü olmayan bir dövlət olduğunu, ərazilərimizdən kəsilib verilən yerlər hesabına şişirdildiyini, bütün iddəalarının əsassızlığını yaxşı bilirdi. Hər zaman bu inamla yazıb, bu inamla danışmışıq.

1988-ci ilin 23 noyabrında meydana toplaşmış bir milyon insana üz tutub demişdim: "Biz Azərbaycan torpağının, yeni babalarımızın min illər ərzində qoruyub saxladığı torpağın bir qarışını belə heç kəsə verən deyilik! Biz Azərbaycan torpağına uzanan yad əllər kəsilməyənə qədər sakit olan deyilik!".

1989-cu ilin 10 oktyabında "Azərbaycan" qəzetində yazırdım: "... İnamımız sarsılmazdır! Çünki, işimiz haqq işidir və xalqın gücü kimi sarsılmaz bir qüvvəyə arxalanırıq"!

O ilin 11 noyabrında yenə həmin qəzetdə yazırdım: "Sınmaq, dərdə boyun əymək, ürəyimizi çürütmək olmaz! Xalqın böyüklüyü ağır günlərdə, öz haqqını, torpağını, yurdunu müdafiə günlərində bəlli olur".

1990-cı ilin 22 iyununda erməni tərəfində bizə qarşı vuruşduqlarına görə Azərbaycan hərbçilərinin əsir aldığı 6 rus əsgərinin azad edilməsinə kömək göstərməyimi məndən xahiş edən bir rus ziyalısına yazmışdım: "Yəqin ki siz, Rusiyanın tanınmış hüquqşünası və ictimai xadimi olaraq yaxşı bilirsiniz ki, "cavan uşaqlar" dediyiniz muzdlu rus əsgərləri Azərbaycana qarşı işğalçılıq müharibəsində iştirak edib, neçə-neçə azərbaycanlının qanını töküb, evlər yandırıb, rabitə vasitələrini partladıblar. Bütün bunlar sübut olunubdur.

...Məni yandıran təkcə itirilən torpaqlarımızın və müharibə qurbanlarının dərdi deyil, o torpaqları inanıram ki, biz gec-tez qaytaracağıq; məni yandıran bu boyda faciəni görən dünyanın özünü karlığa və korluğa vurması, insanların buz laqeydliyidir. Biz Xocalı, Şuşa, Kəlbəcər və s. bölgələrimizdə vəhşiliklə məhv edilmiş uşaqların, qocaların, qadınların ölümünə ağlayanda təəssüf ki, bircə nəfər rus ziyalısının – köhnə dostlarımızın səsini eşitmədik"

1992-ci ilin iyun ayında Nyu-Yorkda keçirilən Türkiyə–Amerika Cəmiyyətləri Asambleyasının keçirdiyi II Türk dünyası Konfransındakı çıxışımı bu sözlərlə bitirmişdim: "8 milyonu Arazdan şimalda, təxminən, 30–35 milyonu da İranda, İraqda yaşayan bu millət (1992-ci ilin sayıdır – S.R.) gələn əsrdə həmin regionun taleyini həll edən bir gücə çevriləcəkdir. Azərbaycan öz torpaqlarını qoruyacaq, Azərbaycan haqq yolundadır, onu müdafiə etmək haqqa və Allaha tapınmaqdır".

1994-cü ilin yayında, ermənilərin özlərini qalib kimi apardıqları günlərdə söz terrorçusu Silva Kaputikyanın bir məqaləsinə cavab olan "Mağaraya dönüş" adlı məktubda yazırdım: "Siz qonşularınız olan azərbaycanlıları Ermənistandan sonuncu nəfərə kimi qovanda – milli evinizi – "milli mağaranızı" quranda məğlub olmuşdunuz... Siz o illər ərzində körpələrinizin ürəyini, beynini nifrət zəhəri ilə zəhərləyəndə, "onlar pisdir, nələri varsa bizimdir" və s. cəfəngiyyatla onları ömürlük xəstələndirəndə, nəsillərinizi imandan, xeyirxahlıqdan məhrum edib, heç vaxt həyata keçməyəcək qondarma ideyalarla boğazlarına zəncir salanda məğlub olmuşdunuz.

Siz Quqarxda uşaqlarımızı diri-diri basdıranda, qadınların kürəyinə siqaret basanda, dünya müharibələrinin görmədiyi vəhşilikləri törədəndə, qulaq-göz qəniməti axtaranda, ibtidai insanlar kimi baş dərisini soyub, ölülərin ruhunu da təhqir edəndə məğlub olmuşdunuz".

2010-cu ildə Uqandada İslam Konfransı Təşkilatı ölkələrinin Parlament İttifaqındakı çıxışında demişdim: " Biz öz torpaqlarımızı azad edəcəyik, haqlı olduğumuzu bütün dünyaya göstərəcəyik. Lakin sizin yardımınız olsa, bu iş sürətlənər. Soyqırım uzaq tarixdə deyil, bizim günlərdə, Xocalıda Azərbaycan türklərinə qarşı yapılmışdır və ermənilər, heç şübhəsiz, bunun cavabını görəcəklər".

Müxtəlif beynəlxalq qurumlarda və diaspor təşkilatlarımızda çıxışlarımın hamısı bu cür inamla doludur. Mən hələ bu ruhda yazılmış və bəziləri Qələbə marşlarına çevrilmiş şeirlərimi demirəm.

Ordumuzun qələbəsi həm də sözümüzün qələbəsinə çevrildi; sözümüzə güc qatdı və ədəbiyyatımıza yeni-yeni mövzular verdi.

8 noyabrda Şuşanın fəthi xəbərini eşidəndən sonra "Qarabağa dönüş" adlı bir poema yazmışam. Sözümü həmin poemadan bir parça ilə yekunlaşdırıram:

Arxada qaldı divar, öndə düşmən səngəri,
Səngərin o üzündə ruhumuzun şəhəri.
Pənah xanın, Vaqifin, Natəvanın şəhəri,
Zirvələrə köklənən tar-kamanın şəhəri.
Hər həyətdən yollara aşan qızıl gülləri,
Canlı güllər eşqinə oxuyan Bülbülləri.
Nəcəf bəyin ocağı, Əhməd bəyin yuvası,
Hacıbəyli nəslinin bitməz Vətən qovğası.
Gah tarixə əl atdı, gah bu günü dindirdi,
Üvertüra üstündə milləti sevindirdi.
Həm bulaq zümzüməsi, həm okean səsiydi,
Üzeyir musiqisi – ruhun möcüzəsiydi...
Söz-söhbəti dillərdə, kefi daim çağ olan,
İşi – sənət, musiqi, yazıb-yaratmaq olan,
Dağı, daşı, torpağı tarixdən bu yana sirr,
Bir qaraçı nəslinə qala bilərmi əsir?
Səsim, sözüm, musiqim bu qayanın üstündə,
Məni kim endirəcək bu qayanın üstündən?
Bu səngərdə yenilsən divardan enmək olmaz.
Şuşanı fəth etmədən geriyə dönmək olmaz...
Əsgər fürsət bilincə çiskinli gecələri
Dumanla qatılaşıb bu bələdçi qaranlıq.
Səsindən işıqlanıb şəhərin küçələri,
Addımından oyanır yatan ruhlar bir anlıq.
Mürgülü keşikçilər göz açıb-qırpanacan
İçirlər nuşi-canla ölümün şərbətini.
Nə anlaya biliblər hara uçub getdi can,
Nə sözə növbə çatıb anlada heyrətini.
Göyün dumanı kimi qondu düşmən başına
Yerdən, göydən gəldiyi bilinməyən bir əsgər.
Mərmi, güllə başına dolu kimi yağsa da
Yürüşü pozulmayan, ələnməyən bir əsgər.
Səsi çıxmazdan qabaq ağzından çıxır canı.
On ölkədən gələnin əcəli burda çatır...
Düşmən bir də ayılır, yollarında Şuşanın
Məscidə doldurduğu donuz sürüsü yatır.
Döşünə döyən ordu qanqal kimi biçilib,
Leş-leşin üstündədir, oyanmaz bu yuxudan.
Düşmən siçana dönüb, düşmən elə kiçilib
Silahla bir-birinə saldırır qorxusundan.
Günahsız körpələrin qanı tutub gözünü,
Hesabat verməlidir bu qiyamət günündə.
Qorxudan ağlı çaşıb, biçir özü-özünü,
Bir ordu qaçıb gedir yüz əsgərin önündən.
İntiqam səhnəsini qəsdən uzadır gecə,
Yalvarışlar dağıdır dağların yuxusunu.
Dumana qarışaraq yerə üz sürtüb keçən,
Əsgər aslana dönüb qovur it ilxısını.
Dabanına tüpürüb generalı, zabiti,
Tankın, topun üstündən tullanaraq qaçırlar.
Arvad-uşaq qatili dözmür ər döyüşünə,
Tülkü texnikasını qullanaraq qaçırlar.
Şuşanın dolayları dönüb şahmar ilana,
Sağ çıxanlar bu yolda ərisinlər, itsinlər.
Heç kim cəsarət edib boylanmasın dalına.
Açılıb Laçın yolu – qoy rədd olub getsinlər!
Şuşanın gecəsindən yad nəfəsi hayların
Sökülüb atılınca astaca sökülür dan.
İşığı qayıdıbdır Günəşlərin, Ayların
Müqəddəs bayrağımdır gecəni aydınladan!...

*

Bu gün türkün bayramı, işğalçının yasıydı,
Allahın hökmü ilə yazılmışdı bu yazı.
Onun "bəla" dediyi Allahın balasıydı.
Xocalı qırğınının alınmışdı qisası.
Ordum Cəbrayıldadır, Arazdan bir az bəri,
Arada sıx meşələr, neçə cəbhə xətti var.
Düşmən hələ bilmir ki, savaşın dahiləri –
Adsız qəhrəmanlarım – Yaşma igidləri var.
Allahın hökmü ilə yazılmışdı bu yazı,
Millətimin zilləti axır çatmışdı sona.
30 illik həsrətin alınmışdı qisası,
Bir milyon göz baxırdı öz viranə yurduna!

# İsmət Taymuş: Türkiyənin dəstəyi Azərbaycana güc verdi

**Azərbaycanın Ermənistan üzərində 2020-ci il savaşında Böyük Zəfərinin 4-cü ildönümüdür. Türkiyədə də bu qələbə təntənə ilə qeyd edilməkdədir. Türk xalqı bu parlaq uğura Azərbaycan qədər sevinir, sevincini hər addımda öz dəstəyi ilə hiss etdirir. Kayseridə ötən il yaradılan və fəaliyyətini genişləndirən Anadolu–Azərbaycan Təhsil, Mədəniyyət və Dostluq Dərnəyinin rəhbəri İsmət Taymuşla bu qələbənin bəzi məqamları üzərində durduq. İsmət bəy İğdır doğumlu bir Azərbaycan türküdür, dədə-babası Qərbi Azərbaycandan köç etmişdir. Uzun illər Kayseri Vilayət Mədəniyyət müdiri olmuşdur. Azərbaycanla dostluq körpüsünün yaradılmasında önəmli addımlar atmış şəxslərdən biridir. Görüşümüzdə İkinci Qarabağ savaşı günlərini yada saldıq...**



–2020-ci ilin savaş günləri yaxşı yadımdadır. Bütün Türkiyə kimi Kayseri də ayaq üstündə idi, savaşın hər anı izlənməkdəydi, şəhərdə hər gün dəstək mitinqləri, nümayişlər keçirilirdi. Bütün şəhər Azərbaycan və Türkiyə bayraqları ilə bəzədilmişdi. Bu, qardaş Azərbaycanın yanında olmağın göstəricisi idi. Azərbaycan 30 ilə yaxın Ermənistanın işğalı altında olan torpaqlarını 44 gün davam edən İkinci Qarabağ müharibəsi ilə azad etdi və 2023-cü ilin sentyabrında bir günlük antiterror əməliyyatla bütün ərazisində dövlət suverenliyini bərpa etdi. Bundan böyük sevinç ola bilərmi? Türk tarixində bu, çox qürurverici bir tarixi hadisədir. Hər zaman qeyd olunacaq bir bayramdır. Zəfərimizin 4-cü ildönümündə də eynilə savaş günlərində keçirdiyimiz hissləri keçiririk.

**– İsmət bəy, şübhəsiz ki, Azərbaycan Ordusu çox böyük qəhrəmanlıq göstərdi, çağdaş dünyanın müharibə tarixinə qələbənin necə qazanılacağı ilə bağlı öz dəst-xəttini yazdı. Bu qələbənin qazanılmasında Türkiyənin roluna necə baxırsınız?**

–İlk dəfə deyil ki, iki qardaş ölkə bir-birinə əl uzadır. Türkiyənin ən ağır zamanlarında Azərbaycan xalqının verdiyi dəstəklərin yüzlərcə örnəyi var. Çanaqqala, Qurtuluş savaşlarında Azərbaycanın dəstəyini xatırlamaq kifayətdir. Tariximizdə 1918-ci ilin 15 sentyabrında Bakının Nuru paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusu tərəfindən qurtuluşu örnəyi var. Bütün bunlar qardaşlıq nümunələridir.

Əlbəttə, 44 günlük savaşda da Türkiyənin dəstəyi Azərbaycana güc verdi. Azərbaycanın bu qələbəsində Türkiyənin töhfəsi uzun illər xatırlanacaq. Bu töhfə müharibə boyu bir çox sahələrdə, xüsusən də siyasi, mənəvi və diplomatik sahələrdə edilirdi. Başda Prezident Rəcəb Tayyib Ərdoğan olmaqla, Türkiyə dövlət rəsmiləri müharibənin ilk anlarından Azərbaycanın yanında olduqlarını bəyan etdilər.

Türkiyə üçüncü ölkələrə xəbərdarlıq etdi ki, Azərbaycanın haqq mübarizəsinə qarışmasınlar. Türkiyənin bu dəstəyi Azərbaycan xalqının və ordusunun ruh yüksəkliyini artırdı. Bu müharibədə



Azərbaycanın bir üstünlüyü də vardı. Ölkənin rəhbərliyində Ali Baş Komandan İlham Əliyev kimi görkəmli siyasi xadim, şəxsiyyət vardı. Prezident İlham Əliyevin bütün çıxış və müsahibələrini izləyir və fəxr edirdik. Bu da qələbənin qazanılmasında önəmli amil oldu. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın 2020-ci il dekabrın 10-da Bakıda Azərbaycanın bu qələbəsinin qeyd edildiyi mərasimdə iştirakı və bu mərasim zamanı çıxışı uzun illər xatırlanacaqdır. Onun "Laçın" şeirini söyləməsinin bizləri nə qədər həyəcanlandırdığını sözlə ifadə etmək çətindir. İkinci Qarabağ müharibəsi Türkiyə–Azərbaycan əməkdaşlığının başlanğıcından icrasına və bitməsinə qədər bütün sahələrdə əməli nəticələr verən mühüm nümunələrdən biri kimi Türk tarixinə düşəcəkdir.

**– İsmət bəy, İkinci Qarabağ müharibəsindən iki il sonra sizin rəhbərliyinizlə yaradılan Anadolu – Azərbaycan Təhsil, Mədəniyyət və Dostluq Dərnəyi qarşısına hansı hədəfləri qoymuşdur?**

–Mən bu fikirdəyəm ki, Azərbaycanla, Türküstandakı digər dövlətlərimizlə əlaqələrimiz daha da genişlənməlidir. Elə dərnəyimizi də bu əlaqələrə töhfə vermək üçün qurduq. Dərnəyimizin üzvləri Türkiyədən, Azərbaycandan, Cənubi Azərbaycandan və Türküstandan olan ziyalılardır. Qısa müddət ərzində bir çox tədbirlərin keçirilməsinə nail olduq. Azərbaycanın, Türk dünyasının özəl günlərini, bayramlarını ənənəvi olaraq qeyd edirik. Tariximizdə baş verənləri Anadolu insanlarına anlatmaq üçün tədbirlər keçiririk. Keçən il 1944-cü il Axıska sürgününün ildönümü ilə əlaqədar fotosərgi və konfrans düzənlədik. Hər il 8 noyabrda təntənəli şəkildə Zəfər bayramını keçiririk, bu il də həmin ənənəyə sadiq qalacağıq. Xocalı abidəsinə çələng qoyuruq, şəhidlərimizi hörmətlə anırıq. Təhsil, mədəniyyət sahəsində dərnəyimizin hazırladığı proqram çərçivəsində işlərimizi irəli aparmağı düşünürük. Yaxın vaxtlarda dərnəyimizin idarə heyəti üzvlərinin də yer aldığı bir heyətlə Azərbaycana səfər etməyi planlaşdırırıq. İkinci Qarabağ savaşı göstərdi ki, bizim bizdən başqa dostumuz yoxdur. Bir vaxtlar əfsanə hesab edilən Turan məfkurəsi artıq xəyal deyil. Türk Dövlətləri Təşkilatının yaranması və fəaliyyəti bizim əlaqələrimiz üçün stimula çevrilib. Güclü Türk Birliyi bizim idealımızdır. Bu istiqamətdə qərarlı addımlar atmağa çalışacağıq.

***Söhbəti yazdı:***
***Qafar ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

# Tariximizin ən parlaq səhifəsi

*Misir MƏRDANOV,*
*ETN Riyaziyyat və Mexanika İnstitutunun direktoru,*
*AMEA-nın müxbir üzvü*

**Cənubi Qafqazın geosiyasətində ciddi dəyişikliyə səbəb olmuş, xalqımızı qalib xalqa, ordumuzu müzəffər orduya çevirmiş 44 günlük şərəfli tariximizin ən parlaq səhifəsi olan Zəfər Günü ilə əlaqədar yazımı bir xatirə ilə başlamaq istəyirəm. Bu hadisə 2003-cü il aprelin 21-də keçmiş Respublika (indiki Heydər Əliyev) sarayında olmuşdu. Həmin axşam orada Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılmasının 30 illiyi ilə bağlı təntənəli mərasim keçirilirdi. Zalın əksəriyyəti həmin liseyin kursantları və məzunları idi, hökumət adamları kimi Təhsil naziri olduğumdan mən də orada iştirak edirdim. Yaxşı xatırlayıram ki, televiziya kanallarında canlı transilyasiya edilən bu tədbirdə Ulu Öndər tribunada çıxış edərkən birdən ürəyini tutaraq bir neçə kəlmə dedi və yıxıldı. Onun yıxılması bütün sarayı ayağa qaldırdı, salonda hamının sanki xorla dediyi dərin bir "ah" eşidildi. Hamı səhnəyə qaçıb nə isə kömək etmək istəsə də, təbii ki, yalnız mühafizə xidmətinin əməkdaşlarını oraya buraxdılar. Həmin dəqiqə televiziya verilişi dayandırıldı və 20 dəqiqəlik fasilə elan edildi. Gözlərimizin qarşısında bu məğrur insanı qolundan tutub səhnənin arxasına apardılar, sonradan bildik ki, xərək gətirib rahat aparmaq istəsələr də, canından çox mənliyinin, şəxsiyyətinin təəssübünü çəkən Ulu öndər razılaşmayıb, öz ayağı ilə getmək istəyib.**

Səhnə arxasında həkimlər ilkin müayinədən sonra təcili uzanıqlı vəziyyətdə xəstəxanaya aparılmalı olduğunu deyiblər, razılaşmayıb. "Mənim sözüm yarımçıq qaldı, belə şey heç vaxt olmayıb, ola da bilməz!",–deyərək səhnəyə qayıdacağını bildirib. Qalstukunu, pencəyini sahmana salandan sonra tribunaya qayıtdı. Həmin anlar gözümün önündən getmir. Bir də gördük ki, Heydər Əliyev əzəmətlə tribunaya doğru addımlayır, bayaqdan keçirdiyimiz stressdən, həyəcandan idi, yoxsa başqa səbəbi də var idi, dəqiq bilmirəm, ancaq elə bərk alqış sədaları ucaldı ki, bəlkə də 30 illik tarixi ərzində o sarayda belə gurultulu alqışlar olmamışdı.

Ancaq qısa çıxışdan sonra həmin hadisə təkrar oldu və bu dəfə mühafizəçilər vaxtında müdaxilə edərək onu yıxılmağa qoymadılar. Sonradan məlum oldu ki, Ulu öndər yıxılarkən onun bir neçə qabırğası sınıbmış. Şahidlər danışırdılar ki, həkimlər onun qarşısında diz çöküb yalvarıblar: "Cənab Prezident, ayağa qalxmaq qəti olmaz, icazə verin Sizi birbaşa xəstəxanaya aparaq." Yaxın adamlara vəziyyətin kritik olduğunu izah edən həkimlər onlardan da xahiş ediblər ki, onu dərhal xəstəxanaya aparmağa razı salsınlar. Ancaq deyilən bütün sözlər onu fikrindən döndərə bilməyib: "Bəlkə də başqa tərkibdə iştirakçılar olsaydı, siz deyənə qulaq asardım. Ali Baş Komandan gənc kursantların önündə yıxılıb səhnədən çıxa bilməz! Səhnəyə qayıdıram!"

Və qayıtdı da, qabırğaları sınmış, dəhşətli ağrının əzablarına dözə-dözə, bunu heç kəsə hiss etdirmədən, bir qədər asta addımlarla, ancaq yenə də şux yerişlə qayıtdı... Qayıtdı ki, kursantlar onu ayaq üstdə, ölümə də, ağrıya da, əzablara da qalib gəlməyi bacaran Ali Baş Komandan kimi yadda saxlasınlar! Qayıtdı ki, şərəfli bir ömrün son akkordları da ləyaqətli olsun! Qayıtdı ki, ömrünü həsr etdiyi xalqına son dualarını desin: "...Qoy çaylarımız qurumasın! Qoy ağaclarımız kəsilməsin! Qoy çırağımız sönməsin!.."

Dünyanın hər üzünü görmüş, heç kəsin önündə əyilməmiş, şərəfli bir ömür yaşamış cəsur və qəhrəman insan başqa qərar qəbul edə bilməzdi. Kimin ömründə yalnız ləyaqət və dəyanət qərar tutursa, onun qərarı belə də olmalıydı. Əgər o, həkimlərin məsləhətinə qulaq assaydı, xərəkdə uzanıb xəstəxanaya getməyə razılıq versəydi, tribunaya qayıtmasaydı bəlkə də bir qədər artıq yaşayardı, ancaq həmin Heydər Əliyev olmazdı. Onu milyonlardan fərqləndirən əsas keyfiyyət də bu idi–ölümün gözünün içinə dik baxmaq, həyatdan da üstün olan dəyərləri görmək və onları düzgün qiymətləndirmək! O, dünyaya Heydər Əliyev kimi gəlmişdi, Heydər Əliyev kimi də getməliydi.

Bu gün xeyli zaman ötdükdən sonra həmin müdhiş günü xatırlayaraq düşünürəm ki, əgər Heydər Əliyev onda kursantların qarşısına qayıtmasaydı, bəlkə də biz 44 günlük müharibədə qalib gələ bilməzdik. Əgər həmin tarixi jesti ilə gənclərə cəsarət, mərdlik, vətənpərvərlik, ölümə də meydan oxumaq dərsi keçməsəydi, onların sırasında Polad Həşimov kimi yüzlərlə igid, Vətən yolunda hər şeyə hazır qəhrəman yetişməzdi. Həmin yenilməzlik ruhu Azərbaycan Ordusunun qanına, canına hopmazdı, biz o igidlərə güvənib haqq savaşına qalxa bilməzdik və 17 il sonra həmin möhtəşəm qələbəni qazanmazdıq!

Bəli, Azərbaycanın İkinci Qarabağ, 44 günlük Vətən müharibəsi zamanı möhtəşəm Qələbə qazanması, uzun illərdən bəri Ermənistanın işğalı altında olan tarixi torpaqlarımızın azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpası, heç şübhəsiz, xalqımızın çoxəsirlik dövlətçilik tarixinin ən şərəfli səhifələrindən biridir. Həmçinin bu qələbə qonşusunun torpağına göz dikən, xalqımızın humanistliyindən, qonaqpərvərliyindən, etimadından, etibarından sui-istifadə edən ermənilərin iç üzünü, əsl simasını dünyaya bir daha göstərdi. Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı çoxəsrlik tarixinə daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.

Ən əsası odur ki, bu müharibədə bütün xalq öz rəhbəri ətrafında bir yumruq kimi sıx birləşdi. Qələbəyə doğru inamla irəliləyən qorxmaz, cəsur əsgərlərimiz düşmənin işğal olunmuş torpaqlarımızdakı hərbi hissələrini, istehkamlarını, ön xətt mövqelərini, döyüş texnikalarını və infrastrukturunu, canlı qüvvəsini, cəbhənin dərinliyindəki atəş nöqtələrini, bazalarını darmadağın etdi, kəndlərimizi, strateji yüksəklikləri azad etdi. Azərbaycan torpaqları qarış-qarış, kənd-kənd işğaldan azad edildi. Uzun illərdən sonra doğma torpaqlarımızda yenidən üçrəngli aylı-ulduzlu bayrağımız ucaldıldı. Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində ki şanlı qələbəsindən dörd il ötür. Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən işğalından azad edilməsi müharibənin taleyində həlledici rol oynamış, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələnmişdir.

Bir Azərbaycan vətəndaşı kimi qürur duyduğum bu qələbənin həsrətini uzun illər boyu gözlədiyimi bildirmək istəyirəm. Şükür olsun Ulu Tanrıya ki, bu günləri görmək, Vətən torpaqlarının düşmən tapdağından azad olduğunun şahidi olmaq xoşbəxtliyi mənə qismət oldu. Hər zaman düşünürdüm ki, 80-ci illərin sonlarında başlanan iddialarla torpaqlarımızı işğal edən, bir milyona yaxın soydaşımızı doğma yurd-yuvasından didərgin salan ermənilərin bu vəhşiliyi həyata keçirməsində bizim nəslin günahı var və torpaqlar geri alınmasa biz dünyadan xəcalətli gedəcəyik. Şükür Allaha ki, elə bizim nəslin yetişdirdiyi oğullar, bu işğalı yaddaşlardan silməyə çalışan müxtəlif qüvvələrin oyunlarına, vaxt uzatmasına, təxribatlarına baxmayaraq, Vətən nisgilini unutmadılar, daim ürəklərində yaşatdılar və imkan düşən kimi bu intiqamı aldılar. Bir vətəndaş kimi hesab edirəm ki, bütün məktəblərin giriş qapılarında, sinif otaqlarında vurulan "Qarabağı unutma!" plakatlarının, düşmən tapdağında qalan rayonların işğal tarixini göstərən cədvəllərin, müəllimlərimizin bu barədə söhbətlərinin, vaxtaşırı keçirilən tədbirlərin də bu zəfərdə öz payı vardır. Azərbaycan xalqının ötən müddət ərzində işğalla barışmaması və ərazi bütövlüyünü bərpa etmək üçün sarsılmaz əzm göstərməsi əsas amil idi.

Ordusunda fərariliyin baş alıb getdiyi Ermənistandan fərqli olaraq Azərbaycanda gənclərimizin Vətəni qorumaq üçün hər cür fədakarlığa hazır olduqlarını dönə-dönə sübut etməsi bizə nikbinlik verirdi. Yaxşı xatırlayıram ki, hələ 2020-ci ilin yazında və yayında cəbhədə ermənilərin törətdiyi təxribatlara gənclərimiz sərt reaksiya verərək Bakıda, digər şəhər və rayonlarda kütləvi mitinqlər keçirdilər, cəbhəyə getmək arzusunda olduqlarını bildirirdilər. Unuda bilmirəm ki, 27 sentyabrda döyüşlər başlanan gündən Səfərbərlik və hərbi xidmətə çağırış idarələrinin qarşısında uzun-uzadı növbələr olardı, hamı orduya qoşulmaq, düşməni torpaqlarımızdan qovmaq haqqında düşünürdü, heç kəs yaralana, yaxud şəhid ola biləcəyini ağlına belə gətirmirdi.

Bir dəfə belə məntəqələrin birinin yanında uşaqlarla söhbət etmək üçün maşını saxlayıb düşdüm, doğrusu, onların düşüncələrinə, əqidələrinə, fədakarlıqlarına, bunların cəmi olan vətənpərvərliklərinə heyran qaldım. Aralarında hərbi xidmətə yaşı çatmayanlar da var idi, yaşı xeyli ötmüşlər də. Bəziləri "anamız eşitsə, razı olmaya bilər", deyərək evdə valideynlərinə deməmiş gəlmişdilər, "oradan zəng edib deyəcəyəm",–söyləyirdilər. Elə oradaca əmin oldum ki, belə oğulları olan xalq mütləq qələbə qazanacaq, hərçənd ki, Zəfər Gününə hələ bir aydan artıq vaxt qalırdı...

90-cı illərin əvvəllərində Azərbaycanda müstəqllik uğrunda gedən siyasi mübarizələrin fonunda ermənilərin xəyanətkarcasına torpaqlarımızı işğal etdiyi günləri, ondan sonra baş verənləri də yaxşı xatırlayıram. Ölkəmiz 30 ilə yaxın müddətdə ərazisinin 20 faizini işğal edən Ermənistanla danışıqlar apararaq münaqişəni sülh yolu ilə nizamlamağa çalışdı. Danışıqlar heç bir nəticə vermədi, əksinə, aydın şəkildə müşahidə edildi ki, Ermənistan tərəfi, sadəcə olaraq, vaxt udmaq istəyir, status-kvonu möhkəmləndirməyə, əbədi etməyə çalışır. Azərbaycan işğalla barışa bilməzdi və barışmadı. Həmin illərdə ümummilli lider Heydər Əliyev uzaqgörənlilik və müdrikliklə Azərbaycanın hərtərəfli inkişafı, siyasi və iqtisadi müstəqilliyinin möhkəmləndirilməsi üçün böyük işlər gördü, sağlam təməllər yaratdı.

Sonralar bu yolu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkənin ərazi bütövlüyünün bərpası üçün, ilk növbədə, iqtisadi gücün vacibliyini bəyan etdi. Düzgün strategiya və düşünülmüş məqsədyönlü siyasət nəticəsində Azərbaycan güc toplamağa başladı, iqtisadi müstəqillik təmin edildi, Azərbaycan iqtisadi cəhətdən heç kimdən, heç bir ölkədən, heç bir beynəlxalq maliyyə qurumundan asılı olmayan müasir dövlətə çevrildi, dünya üçün çox nadir inkişaf modelini yaratdı. Ölkənin iqtisadi cəhətdən yüksəlişi ordu quruculuğunda da dönüşə səbəb oldu, Azərbaycan Ordusunun arsenalı ən müasir silah və hərbi texnika ilə gücləndirildi, hərbçilərin bilik və bacarıqları artırıldı, onların sosial müdafiəsinin, iş şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atıldı. Azərbaycanın müdafiə sənayesi inkişaf etdirildi, ordunun tələbatının böyük hissəsi daxili istehsal hesabına təmin olundu, Azərbaycan 1000-dən çox adda hərbi təyinatlı məhsullar istehsal etməyə başladı və ən müasir silahların ixracatçısına çevrildi. Azərbaycan Ordusunun yüksək döyüş qabiliyyəti Azadlıq meydanında dəfələrlə keçirilmiş hərbi paradlarda bütün dünyaya nümayiş etdirildi. Ötən dövr ərzində çoxşaxəli, prinsipial, dürüst xarici siyasətin yürüdülməsi, beynəlxalq təşkilatlarla və xarici dövlətlərlə fəal işin aparılması, sıx əlaqələrin qurulması, həyata keçirilən regional enerji və kommunikasiya layihələri Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyini xeyli gücləndirdi, ölkənin nüfuzunu artırdı, bölgədə Azərbaycanın iradəsi həlledici amilə çevrildi.



Bütün bu amillər Azərbaycanın mütləq Qələbəsini tam şərtləndirdi və onun əldə edilməsini zaman məsələsinə çevirdi.

Azərbaycan dəfələrlə Ermənistanı işğal etdiyi ərazisini geri qaytarmağa çağırdı, Ermənistan nəinki bu çağırışlara məhəl qoymadı, əksinə, yeni Azərbaycan torpaqlarını işğal etməyə həvəsləndi, ardıcıl hərbi təxribatlar törətmək yolunu seçdi. Ermənistan danışıqlar prosesinin formatını və məzmununu pozmaqla, danışıqların imitasiyasını aparmaqla, BMT TŞ-nın qətnamə və qərarlarını icra etməməklə sülh tərəfdarı olmadığını açıq şəkildə ortaya qoydu. Ermənistanın baş naziri Nikol Paşinyanın 2019-cu il avqustun 5-də Xankəndidə "Qarabağ Ermənistandır və nöqtə" açıqlaması Ermənistanın işğalçılıq siyasətinin ən bariz etiraflarından birinə çevrildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu il oktyabrın 3-də "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında çıxışı zamanı Nikol Paşinyanın bu bəyanatına "Qarabağ Azərbaycandır və nida işarəsi" deməklə ölkəmizin mövqeyni açıqlıqla ortaya qoydu: "Sən bizim sülh çağırışlarımızı qəbul etmirsənsə, biz bu münaqişəni hərbi yolla da həll edə bilərik!"

Beləliklə, Ermənistan hərbi birləşmələrinin 4 il ərzində tədricən işğal etdiyi və 30 ilə yaxın dövr ərzində işğalda saxlayaraq ərazisində güclü hərbi istehkamlar, maneələr, müdafiə xətləri qurduğu Azərbaycan torpaqları 44 gün ərzində azad edildi. Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu, Ermənistan–Azərbaycan münaqişəsi tarixə çevrildi.

Bu gün Vətən müharibəsi Azərbaycan xalqının Qarabağ həsrətinə son qoyub, işğaldan azad edilmiş ərazilərdə ən müasir standartlarla bərpa və yenidənqurma işlərinə başlanılıb, Qarabağa həyat qayıdıb...

...Bu yaxınlarda iki günlük asudə vaxtım var idi. Çoxdan arzusunda olduğum yerlərə, doğma Qarabağa getmək, düşmən tapdağından azad edilmiş torpaqlarımızda aparılan yüksək keyfiyyətli abadlıq işlərini gözlərimlə görmək istəyi məni iki günü necə keçirmək haqqında çox düşündürmədi... Ömrümün bu iki günü ən dəyərli məqamlar kimi yaddaşıma yazıldı. İlk qədəm basdığım yer Füzuli rayonu idi. Yerli camaat zarafatla Füzuliyə "Nyu-Füzuli" deyir, geniş küçələr, planlı və zövqlü tikililər, bir-birindən aralı inşa edilmiş yeddimərtəbəli gözəl binalar, parklar, meydanlar, marketlər, otellər bu zarafatı gerçəkləşdirir. Bir gerçəklik də budur ki, ermənilər viran qoyduqları bu şəhərin adını da dəyişdirmişdilər-əməllərinə uyğun "Varanda" adlandırmışdılar. "Varanda" elə viran sözünə bənzəyir, Nyu-Füzuli Nyu-Yorka, Nyu-Parisə, Nyu-Cersiyə bənzədiyi kimi. Bu gün bizim qapılarımız qonaqların üzünə açıqdır, xarici ölkələrin səfirləri, dövlət adamları, mədəniyyət xadimləri, jurnalistlər ürək açıqlığı ilə Füzuliyə dəvət olunur, aparılan quruculuq işləri onlara nümayiş etdirilir. Ancaq 30 il ərzində "konyak dostları" istisna olmaqla ermənilər bu yerlərə bir nəfər də qonaq dəvət etmirdilər. Cənab İlham Əliyev bu barədə dəqiq deyib: "Biz uzun illər Qarabağ dərdimizin həqiqətlərini dünya birliyinin diqqətinə çatdırmağa çalışanda bəziləri inanmırdı, elələri də var idi ki, inanmaq istəmirdi. İşğalçı dövlət heç kimi o vaxt bu bölgəyə buraxmırdı, qadağan etmişdi. Çünki buraya gələn hər bir insan görəcəkdi, erməni vəhşiliyi nədən ibarətdir".

Burada bir həqiqət də belədir ki, Dədə Qorqud demişkən, gərək torpağı doğma hesab edəsən ki, əkəsən, qoruyasan ki, əkə biləsən, əkəsən ki, qorumağa nəyinsə olsun! Biz bu torpaqların sahibi olduğumuza görə onu abadlaşdırmağa belə həvəsliyik, erməni 30 ildə bir daşı da o biri daşın üstünə qoymadı, əksinə, daşı daş üstdə saxlamadı, olanları da vəhşicəsinə dağıtdı, viran qoydu. Çünki doğma yeri deyildi, özgə yurdu idi, təhtəlşüurla dərk edirdi ki, nə vaxtsa bu torpaqların əsl sahibləri qayıdacaqlar. Belə də oldu...

Bu gözəllikləri yaradan insanların şövq ilə, böyük sevgi ilə tikdikləri Füzuli həm də bir inşaat meydançasına bənzəyir. Dünyanın ən müasir avadanlıqlarının, texnikalarının, müxtəlif növ maşınların cəlb edildiyi bu meydançanın başqa yerlərdən bir üstünlüyü var-burada insanlar tükənməz həvəslə, 30 illik həsrətdən sonra qovuşduqları doğma yurda məhəbbətlə çalışırlar. Deyirlər ki, əgər aşpaz bişirdiyi yeməyə öz məhəbbətini, sevgisini qatmasa hazırladığı o qədər də dadlı olmaz. İnşaat işi də belədir, əgər usta daşı o biri daşın üstünə məhəbbətlə qoyarsa, tikdiyi bina yaraşıqlı alınar. Bir-birindən gözəl 7 mərtəbəli binaların cərgəsində maşını saxladım, tikinti gedən mərtəbəyə qalxdım, otağa pəncərə quraşdıran ustaya yaxınlaşıb cavabını bildiyim sualı verdim:

–Yorulmayasınız, usta. Bayaqdan kənardan dayanıb baxıram, pəncərəni bir neçə dəfə götürüb, ölçüb-biçib yenidən qoyursunuz, bezmədiniz? Elə bil öz evinizin pəncərəsidir.

Usta deyəsən məni tanıdı:

–Xoş gəlmisiniz, Misir müəllim. Bu tikilən ev mənim evimdən irəlidir. Biz 30 il həsrət qaldığımız Füzulini tikirik, belə də olmalıdır. Dost üçün tikilən ev ayrıdır, düşmən üçün tikilən ayrı. Bir də var, həm dost üçün, həm də düşmən üçün tikirsən. Doğmalar üçün tikirsən, çalışırsan ki, yaxşı alınsın, gəlib içində rahat yaşasınlar, bir yandan da düşmənlərin açığına tikirsən, düşmən də, onun zurna tutanları da gələndə görsünlər ki, onların xaraba qoyduqları yerlər necə gözəl bir məkana çevrilə bilərmiş.

Ustanın dedikləri məni əməlli-başlı fərəhləndirdi. Bu maraqlı və ürəkdən çalışan adamın əslən Füzulidən olduğunu düşündüm:

–Nə yaxşı, ay usta, özünüz Füzulidənsiz?

–Yox, ay Misir müəllim! Burada haralı olmaq məsələsi yadımızdan çıxıb. Şəhidlərimizin qanı ilə alınmış yerlərdə başqa cür ola bilməz. Biz qalib xalqıq! Burada biz özümüzün doğulduğu yerə görə yox, qələbənin doğulduğu yerə görə həmvətənik. Əgər bizdən çox cavan olanlar bu torpaq uğrunda can qoyublarsa, biz də bu işimizə can qoymalıyıq. Ona görə Füzuli də, Ağdam da, Şuşa da, Zəngilan da belə gözəl alınacaq. Biz bir-birimizə söz vermişik, "işinə haram qatana şəhidlərin ruhu qənim olsun!" demişik. Axıra qədər də belə çalışacağıq.

–Halal olsun, ay usta!–deyib ayrıldım.

Füzulidə məni ən çox heyrətləndirən və məftun edən amillərdən biri də "Yaşıl" texnologiyaların və "ağıllı" sistemlərin tətbiqi idi. Qlobal çağırışlara və müasir inkişaf tendensiyalarına uyğun aparılan bu işlər Füzulini (və bütün Şərqi Zəngəzuru) dünyanın cənnət guşələrindən birinə çevirən əsas səbəblərdəndir. Mən yaşda olan insanlar üçün son model mobil telefonlar kimi bir az qəribə, bir az da anlaşılmaz görünən "ağıllı" kəndlər bizi 80-ci illərin "sovet kolxozlarından" birbaşa XXI əsrin Yaponiyasına, İsveçrəsinə ekskursiyaya apardı. Haqqında çox oxumuşdum, televiziyada, sosial şəbəkələrdə görmüşdüm, ancaq əyani şahidi olmaq başqa aləm oldu. Müharibənin vəhşiliklərinin cəmi dörd il ərzində belə bir əfsanəyə çevriləcəyini adam öz gözləri ilə görəndə inana bilmir, oxuyanda, eşidəndə necə inansın?!

"Qarabağın dünyaya açılan hava qapısı" adlandırılan Füzuli Hava Limanına baxmasaydım olmazdı. İnanmaq olmur ki, 30 ilin xarabalıqları üzərində bir ildən də az müddətdə inşa edilib istifadəyə verilən bu "möcüzə"nin ərazisi bir az əvvəl Azərbaycan igidlərinin yağı düşmənin başını əzən döyüş meydanı idi. Buna da inanmaq olmur ki, ən müasir texnologiyalara uyğun baqaj konveyerləri, qeydiyyat sistemi, VIP zallar, mağazalar, restoranlar və digər zəruri məntəqələr, uzunluğu 3000 metr, eni 60 metr olan uçuş-enmə zolağı olan bu ərazidən 1200-dən artıq mina təmizlənib. Bircə Füzuli aeroportu ölkəmizin siyasi-hərbi və iqtisadi qüdrətinin nə qədər möhtəşəm olduğunun daha bir təsdiqidir. Bəlkə də dünyanın heç bir yerində belə qısa müddətdə hava limanı inşa edilməyib. Bu gözəllikləri, möhtəşəmliyi görmək üçün, necə deyərlər, adam iki göz istəyir, tamaşa eləsin. Bərəkətli torpaqlar 3 il bundan əvvəl əkilmiş şitilləri, toxumları boylu-buxunlu ağaclara çevirib, Füzuli hava limanı da, Zəfər yoluna gedən magistral da yaşıllıqlar arasında cənnətin bir guşəsinə bənzəyir.

Qarabağa gəlib Zəfər yolu ilə Şuşaya getməmək, bu əfsanələr yurdunu görməmək qəbahət olardı, – deyə Azərbaycanın mədəniyyət paytaxtına yol aldım. Bu füsunkar torpağı yeni qiyafədə görməkdən çox məmnun oldum. Qalanın üstündə yazılmış "Şuşa" sözü erməni əlifbasına bənzədilmiş kiril hərfləri ilə deyildi, Cıdır düzündən beynəlxalq mədəniyyət tədbirlərinin ətri, Şuşa dağlarından isə bir əks-səda səsi gəlirdi: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtdıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!"

Surətlə dirçəldilən Şuşada qaldığımız oteli öz xidmət mədəniyyətinə, səliqə-səhmanına, müasir dizaynına, rahatlığına görə dünyanın ən yaxşı otelləri ilə müqayisə etmək olardı. Yuxarı Gövhərağa məscidi Qafqazın ən möhtəşəm ibadət yerlərindən biridir. Yenidən qurularaq qiyafəsini surətlə dəyişən Şuşanın tarixi abidələrinin bərpasını, Azərbaycanın böyük şairi Molla Pənah Vaqifin yeni məqbərəsini, Mamayı məscidinin, Şirinsu hamamının əsaslı təmirdən sonra açılışını görmək qismətimə düşdüyünə görə, taleyimə minnətdaram. Gördüm ki, Şuşada bir-birindən yaraşıqlı dörd mehmanxana fəaliyyət göstərir, Mehmandarov məscidi və Mehmandarovun evi bərpa edilib. Şahid oldum, qürur hissi keçirdim ki, Şuşa müasir şəhərsalma qaydalarına uyğun yenidən qurulur, dirçəlir. Ulu öndər demişdir ki, "Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir". Bu həqiqətə bir daha əmin oldum.

Mən bir həqiqəti də demək istəyirəm ki, tutduğum vəzifə ilə əlaqədar dünyanın 50-yə yaxın ölkəsində olmuşam, çox vaxt nümayəndə heyətinin rəhbəri kimi getdiyim bu səfərlərdə oranın rəsmi şəxsləri məni ölkələrinin ən görməli yerlərinə aparırdılar. Yunanıstanın Santorini adasından Yaponiyanın Hitaçi Milli Parkına, İtaliyanın Venesiya şəhərindən İsveçrənin Lucerne gölünə kimi dünyanın ən yaraşıqlı, bəşər övladının heç olmasa bir dəfə görməli olduğu gözəl məkanlar kimi beynəlxalq turizm kataloqlarına salınmış yerləri görmüşəm, heç biri Şuşa kimi deyil. Məni qınamayın, elə təsəvvür yaranmasın ki, subyektiv mülahizə yürüdürəm, yaxud doğmalıq mənə bu yerləri belə füsunkar göstərir. Yox! Həqiqətən, incə bir zövq ilə inşa edilən yeni Şuşanin dizaynı ilə təbiətin ahəngi böyük bir möcüzə yaratmışdır. Gördüyüm yerlərdə təbiətin gözəlliyi insanların müdaxiləsi olmadan təqdim edilir, insanların yaratdığı şedevrlərdə isə belə təbii gözəllik yoxdur.

Oradan igidlər yurdu Laçına yollandım. İndi günbəgün gözəlləşən, yeni sima alan Laçını da Azərbaycanın bir-birindən yaraşıqlı rayonları, şəhərləri ilə bir sıraya qoymaq olmur. Burada böyük işlər görülür. Laçında tikilən evlər, məktəblər, su elektrik stansiyaları, salınan yollar, körpülər elə bil 30 illik boşluğu doldurmağa hesablanmışdır: Surətlə, keyfiyyətlə və müasir!

Mən burada da insanlarla söhbət zamanı torpağa bağlılığa, vətənə sevgiyə heyrət etdim. İnsanlar sidq-ürəkdən çalışırlar, məskunlaşan sakinlərin hamısı işlə təmin edilib, hələ yüzlərlə peşə üzrə ustaları yeni gələnlərin arasından gözləyirlər. Heç kəs hansı şəhərinsə xiffətini çəkmir, doğma yurdun havasına, suyuna illərlə həsrət qalanlar doğmalıq şərbətini ciyərlərinə doldururlar.

Qısa müddətdə Zabuxda evlər və digər obyektlər inşa olunub, yollar abadlaşdırılıb, əhalinin istirahəti üçün parklar salınıb. Kəndin mərkəzindən keçən çayın üzərində körpü inşa olunub. İndi gündüzləri mənzərəsi ilə seçilən kənd gecələri işıq saçan gözəlliyi ilə diqqət çəkir.

Zabuxu görəndə yenə yadıma İsveçrə, onun dünya şöhrətli kurort şəhəri İnterlaken düşdü. Mənim fikrimcə, Zabux çayının hər iki sahilində səliqə ilə inşa edilmiş qırmızı damlı evlər və təbiətin bu gözəlliklə harmoniyası İnterlakeni kölgədə qoyur. Şübhə etmirəm ki, iki-üç ilin ərzində bu möcüzəni yaradanlar yaxın illərdə bütün Qarabağda və Şərqi Zəngəzurda elə bir cənnət quracaqlar ki, təkcə Azərbaycandan uzaqlarda istirahət yeri axtaran həmvətənlərimiz deyil, gözəlliyə, təmiz havaya, qüsursuz təbiətə və saf insanlara dəyər verməyi bacaran dünyanın bütün turizm həvəskarları axışıb bura gələcəklər. O günlər uzaqda deyil...

...Laçından Kəlbəcərə gedən yol hələlik (dedilər ki, tunellər çəkilib qurtarandan sonra aşırımlar öz funksiyasını itirəcək) sərt aşırımlardan, dolaylardan keçir. Belə aşırımları heç yerdə görmək mümkün deyil. Uca-uca dağları aşdıqca sanki nağıllar aləminə düşürsən. Bəlkə də ilin ən gözəl vaxtıdır deyə düşünəndə yerli sakinlərdən biri dedi ki, Laçının hər fəsli, hər ayı gözəldir. Qışda qarlı dağlar, bəyaz ağaclar, payızda bərəkətli meşələr, yazda yaşıl talalar, düzlər.

Bu bir-birindən gözəl səhifələri olan kitaba bənzər günlərin tarixi isə 2020-ci il noyabrın 8-də qoyulub. Bütün dünyaya xalqın qəhrəmanlığını, ordunun qüdrətini, Ali Baş Komandanın müzəffərliyini sübut edən 44 günlük şərəf salnaməsi ilə! Bir riyaziyyatçı kimi hərdən düşünürəm ki, həndəsənin atası hesab edilən Pifaqorun yaratdığı numerologiya elmində rəqəmlərin mistikası haqqında yürüdülən mülahizələrdə bir həqiqət varmı? 8 Noyabr tarixindəki 8 rəqəminin iki 4-dən ibarət olması, 2020-ci ildəki 2 rəqəmlərinin də 4-ə bərabər olması, 44 rəqəminin qanunauyğunluğuna əsas verirmi? Pifaqor deyirdi ki, rəqəmlər hər bir yaradılışın səbəbini, onun həyatda missiyasını, taleyini ifadə edir. Müasir tariximizdə 44 rəqəmi bizim üçün sonsuz qürur, böyük Qələbə, Zəfər rəmzinə çevrilib. Pifaqor rəqəmləri təhlil edərkən 44 rəqəmini güc və sabitlik simvolu kimi göstərir. Qoy Azərbaycanımız həmişə güclü, sabit və firavan olsun!

# Milli dövlətçiliyimizin məfkurəvi rəmzi, tanıtma nişanı

**Azərbaycan Respublikasının Prezident İlham Əliyevin 2009-cu il 17 noyabr tarixli sərəncamı ilə hər il noyabr ayının 9-da ölkəmizdə Dövlət Bayrağı Gününün qeyd edilməsi qərara alınıb. Həmin il dekabrın 4-də Milli Məclis noyabrın 9-nu Azərbaycan Respublikasında Dövlət Bayrağı Günü kimi rəsmiləşdirib.**

Prezident sərəncamında bu tarixi günün önəmi ilə bağlı bildirilirdi ki, ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın Dövlət Bayrağı milli suverenliyin rəmzi kimi bütün vətəndaşlar üçün müqəddəs dövlətçilik atributlarından birinə çevrilib: "Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bu bayraq bizim azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi nümayiş etdirir".

Sənəddə qeyd edilirdi ki, Azərbaycan Respublikasının Dövlət Bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilmiş və 1920-ci ilin aprel ayınadək dövlət statusu daşıyıb. Həmin bayraq 1990-cı il noyabrın 17-də o zaman Naxçıvan Muxtar Respublikası Ali Məclisinə rəhbərlik etmiş ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və sədrliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı olaraq təsdiq edilib. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında" Qanun qəbul edərək üçrəngli milli bayrağımızı Dövlət Bayrağı elan edib.

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, o cümlədən, Dövlət Bayrağını bərpa edib. 2004-cü il iyunun 8-də isə "Azərbaycan Respublikası Dövlət Bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə bu sahədə qanunvericilik bazası təkmilləşdirilib.

O zamandan Dövlət Bayrağı respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır, mühüm beynəlxalq tədbirlər, mötəbər mərasimlər və məclislərlə yanaşı, irimiqyaslı ictimai-siyasi toplantılarda, mədəni tədbirlərdə və idman yarışlarında qaldırılaraq milli birliyi təcəssüm etdirir. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət Bayrağı meydanının yaradılması haqqında" 2007-ci il 17 noyabr tarixli Sərəncamı Dövlət Bayrağının dövlət rəmzləri sırasında xüsusi yerini müəyyən edib.

Xatırladaq ki, müstəqil Azərbaycanın Dövlət Bayrağındakı 3 rəngin ifadə etdiyi və XX əsrin əvvəllərindən formalaşmağa başlayan milli istiqlal hərəkatının 3 təməl prinsipini təşkil edən "türkçülük, islamçılıq və müasirlik" formulu ümummilli lider Heydər Əliyevin dühası ilə milli məfkurəyə çevrilən azərbaycançılıq ideologiyasının məzmun və mahiyyətini əks etdirir. Çağdaş dövrdə Dövlət Bayrağımız milli dövlətçiliyimizin atributu, müstəqil ölkənin məfkurəvi rəmzi, respublikamızı dünyada tanıtma nişanıdır.

Azərbaycan dövlətçilik tarixi də bayraq anlayışı və bayraq rəmzləri ilə zəngin olub. Ölkəmizin ərazisində mövcud olmuş dövlət qurumlarının bayraqlarının daşıdığı önəm barədə tarixçi alimlərimizin mülahizələrini oxucularımıza təqdim edirik.

**Könül İmamverdiyeva,**
**tarix üzrə fəlsəfə doktoru:**

– İstənilən dövlətin mövcudluğunu onun çoxəsrlik dövlətçilik və tarixi-mədəni dəyərlərini təcəssüm etdirən dövlət rəmzləri olmadan təsəvvür etmək mümkün deyil. Bu zənginliyi özündə əks etdirən rəmzlər sistemi hər zaman mövcud olub və tarixi inkişaf mərhələsi keçmişdir. Dövlət rəmzlərinin formalaşmasının tarixinin öyrənilməsi dövlətçilik tarixinin, mədəniyyətin və ideologiyanın inkişaf tarixi haqqında daha dolğun məlumat almağa kömək edir.

Hələ qədim zamanlardan hökmdarların, qəbilə başçılarının hakimiyyətini bildirən şəxsi nişanları mövcud olmuşdur. Hökmdarlara məxsus belə nişanlar (veksilloid, ştandart) bəzək və emblemlərlə bəzədilmiş, adətən taxta və ya metal sapdan ibarət olmaqla müasir bayraqların ilkin təkamül forması hesab edilirdi və yarandığı gündən hərbi xarakter daşıyaraq döyüşçülərin toplanış yerini, mövqeyini bildirirdi.

Tarixə məlum olan ipək parçadan hazırlanmış ilk bayraq qədim Çində qaldırılıb. Çində Çjou sülaləsinin əsasını qoyan imperator Çou e.ə XII əsrdə qoşunun önündə onun saraya gəlişini xəbər verən ağ bayrağın aparılması əmrini verib. İpəkdən olan bayrağı əldə gəzdirmək veksilloiddən daha rahat olmaqla yanaşı, həm də uzaq məsafədən daha yaxşı görünürdü.

Azərbaycan ərazisində yaranmış ilk dövlətlərin rəmzlərinin formalaşması və inkişafı tarixi prosesi getmişdir. Azərbaycanda ilkin bayraqların (ştandartlar) meydana gəlməsi bizim eradan əvvəlki əsrlərə aiddir. Hökmdarların hakimiyyətinin rəmzi mənasını daşıyan, ağ sapa taxılmış və heyvan təsvirləri ilə bəzədilmiş tunc dövrünə (e.ə. IV-II minilliklər) aid ilk bürünc ştandartlar Azərbaycanda arxeoloji tapıntılar zamanı Şəmkir və Şəki rayonlarında tapılmışdır. Tədricən belə ştandartlar sap və parça hissədən ibarət olan bayraqlarla əvəz olunmuşdur. Zəngin dövlətçilik tarixinə malik olan Azərbaycanda orta əsrlərdə bayraq müxtəlif adlarla sancaq, tuğ, buncuq, ələm kimi tanınmışdır.

Bu anlayışlara Kitabi Dədə Qorqud dastanında da rast gəlinir. Bunlar Oğuz tayfalarının müqəddəs simvolları sayılırdı və döyüşçülər həmin rəmzləri öndə daşıyırdılar.




Tarixin müxtəlif dövrlərində Azərbaycan ərazisində Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər kimi qüdrətli dövlətlərin hər birinin müstəqillik rəmzi olan bayraqları, gerbləri, möhürləri, pul vahidləri olmuşdur. Tarixi mənbələrdə Qaraqoyunlular dövlətinin hakimiyyət rəmzləri sayılan rəngarəng bayraqlarının olması haqqında maraqlı məlumatlar verilir. Digər dövlətlərdə olduğu kimi, Qaraqoyunlularda da bayraq güc və qələbə rəmzi hesab edilirdi.

Türkiyənin Topqapı Sarayında xəzinə kitabxanasında saxlanılan və 1428-ci ildə ispan J. Villadestes tərəfindən perqament üzərində çəkilmiş xəritədə Qaraqoyunluların bayrağı sarı fonun ortasında qırmızı dördkünc formada təsvir edilmişdir. Bundan əlavə, Topqapı Sarayında Ağqoyunlu dövlətinin ağac sapa taxılmış ağ parçadan ibarət olan bayrağı da aşkar edilmişdir. Uzunsov üçbucaqlı ağ parça üzərində qızılı hərflər ilə "Sultan Həsən Bahadur" sözləri yazılmış, mərkəzdə Uzun Həsənin tuğrasının təsviri, kənarlarında isə Qurani-Kərimdən ayələr verilmişdir.

XVI əsrin əvvəllərində Azərbaycanın dövlətçiliyinin təkamülündə Səfəvilər dövləti böyük tarixi rol oynamışdır. Zəngin dövlətçilik ənənələrini təcəssüm etdirən bayraqlar haqqında məlumat verən XV–XVI əsr Təbriz miniatürləri tarixi bir mənbə kimi böyük əhəmiyyətə malikdir. XVI əsr Təbriz miniatürlərində Səfəvilər dövlətinə aid bayraqlar əlvan rəngli, üçbucaq formada olmaqla, Qurani-Kərimdən olan ayələrlə bəzədilib.

Tarixi mənbələrdə də Səfəvilər dövlətinə aid bayraqlar haqqında müəyyən məlumatlar qeyd olunub. Belə ki, "Cahanarayi Şah İsmayıl" əsərinə (XVI əsr) istinad edən tədqiqatçı M. Abbaslı bildirir ki, Şah İsmayıl Bağdada özünün ay-ulduzlu bayraqları altında yaxınlaşmışdır. Ehtimal olunur ki, bu elementlərin təsvirləri I Şah İsmayılın qoşunlarının bayraqlarında olmuşdur. "Tarix-i aləmara-yi Şah İsmayıl" əsərində də Şah İsmayılın bayrağı haqqında məlumat verilir. Mənbədə bildirilir ki, Şah İsmayılın bayrağı çox iri olub, ağ qumaşdan hazırlanmış, üzərində "Qurani-Kərim"in 61-ci ("Səf") surəsinin 13-cü ayəsində qeyd olunmuş "nəsrum-minəllahi və fəthun qərib" ("Allahdan kömək və yaxın bir zəfər vardır") və onun qısaca forması olan "nəsrum-minəllahi" ("Allahdan kömək") ifadəsi öz əksini tapmışdır.

XVIII əsrdə inşa edilmiş Şəki Xan Sarayı nadir memarlıq abidəsi olmaqla yanaşı həm də, dövlətçilik tariximizin öyrənilməsində böyük tarixi əhəmiyyətə malikdir. Sarayın divar rəsmlərində təsvir olunan döyüş və ov səhnələrindəki 28 növ bayraq müxtəlif forma və rəngləri ilə seçilirlər.

XVIII əsrin 40-cı illərində Azərbaycan ərazisində ilk müstəqil xanlıqlar yaranmışdır və onların hər birinin dövlət rəmzləri mövcud olmuşdur. Dövlət rəmzləri sırasında əhəmiyyətinə görə seçilən bayraqlar XVIII əsrin II yarısında mövcud olmuş Azərbaycan xanlıqlarında da geniş yayılmışdır. Azərbaycan xanlıqlarının bayraqları XVI–XVIII əsrlərə aid edilən gözəl şərq parçalarından tikilmiş, müxtəlif ornament və Qurani-Kərimdən olan ayələrlə bəzədilmişdir. Bu bayraqlarda Allahdan kömək və yaxın qələbə, Mərhəmətli Allahın adı ilə, Məhəmməd Allahın elçisidir, Məhəmməd möminləri müjdələ kimi ifadələr tez-tez təkrarlanır.

Döyüşlər zamanı Rusiyaya aparılan qənimətlər arasında xanlıqların bayraqları da var idi. Bunların arasında Gəncə, Bakı, Şəki, İrəvan, Naxçıvan, Təbriz, Xoy xanlıqlarının bayraqlarını qeyd etmək olar. Həmin bayraqlar 1888-ci ildə Qafqaz Hərbi Tarix Muzeyinə verilmiş, 1924-cü ildə isə buradan bəzi bayraqlar Milli Elmlər Akademiyası Azərbaycan Tarixi Muzeyinə təhvil verilmişdir.



Azərbaycan xalqı əsrlər boyu tarixi yaddaşında dövlətçilik ənənələrini daim qoruyub saxlamışdır. XX əsrin əvvəllərində milli dövlətçiliyin bərpası çox böyük bir hadisə olaraq Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılmışdır. 1918-ci ildə Azərbaycan öz müstəqilliyini elan edəndən sonra dövlətçiliyimizin atributları yenidən bərpa olunmağa başlanmışdır. Azərbaycan Demokratik Respublikasının həyata keçirdiyi ilk mühüm tədbirlərdən biri 1918-ci il iyun ayının 21-də üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsvirləri olan qırmızı rəngli Dövlət Bayrağı haqqında qərar verməsidir. Azərbaycanın üçrəngli Dövlət Bayrağı isə 1918-ci il noyabrın 9-da Azərbaycan Demokratik Respublikası Hökumətinin iclasında qəbul edilmişdir.

Tarixçilərin bildirdiklərinə görə, Xalq Cümhuriyyəti tərəfindən üçrəngli bayraq Dövlət Bayrağı kimi qəbul olunanda orada rənglərin nəyi ehtiva etdiyi göstərilsə də, aypara və səkkizguşəli ulduzun mənaları açıqlanmayıb. Bayrağın üzərindəki aypara və səkkizguşəli ulduzun mənaları barədə müxtəlif fikirlər mövcuddur. Aypara bir vaxtlar Bizans imperiyasının paytaxtı Konstantinopolun gerbi olub. Türklər 1453-cü ildə həmin şəhəri aldıqdan sonra bu gerb Osmanlı İmperiyası tərəfindən islam dininin bir rəmzi kimi qəbul edilib və bütün müsəlman aləmində həmrəylik, hürriyyət, yardım mənasını daşıyır. Səkkizguşəli ulduzun mənasına gəlincə, bu, "Azərbaycan" sözünün əski əlifbada yazılışı ilə bağlıdır. Belə ki, əski əlifbada "Azərbaycan" sözü səkkiz hərflə yazılır.

1920-ci ildə aprel işğalı nəticəsində Azərbaycanda sovet hakimiyyəti qurulmuş və milli dövlətçiliyimizi tərənnüm edən bütün rəmzlər sovet rəmzləri ilə əvəz olunmuşdur. Azərbaycan SSR-in bütün bayraqlarında qırmızı rəngdən istifadə olunmuşdur. O zaman qırmızı rəng sovet xalqının sosializm və kommunizm yaratmaq uğrunda apardığı qəhrəmanlıq mübarizəsi simvolu hesab edilirdi. Bayraq üzərində olan oraq və çəkicin mənasına gəldikdə isə bu fəhlə və kəndli sinfinin ayrılmaz ittifaqını ifadə edirdi. Oraq və çəkic proletar dövlətin emblemi sayılırdı.

Sovet dövründə Azərbaycanda dövlət bayraqlarının dəfələrlə dəyişdirilməsinin səbəbi əlifba dəyişiklikləri ilə əlaqədar olaraq bayrağın üzərindəki yazıların da dəyişikliyə məruz qalması idi. Azərbaycan Sovet Sosialist Respublikasının ilk bayrağı 1920–1921-ci illərdə qəbul edilmişdi. Azərbaycan SSR-in ən son bayrağı 1952–1991-ci illərə aiddir.

Sovet hakimiyyəti zamanı Azərbaycan özünün dövlət atributlarını Sovet Rusiyasının atributlarına uyğunlaşdırmışdır. Azərbaycan SSR-in dövlət gerblərinin üzərində adətən oraq və çəkic, beşguşəli ulduz, sünbül çələngi ilə əhatə olunmuş aypara təsvir edilmiş və "Bütün ölkələrin proletarları birləşin" şüarı yazılmışdı. Dövlət gerbinin dəfələrlə dəyişdirilməsi bayraqlardakı dəyişikliklərə səbəb olan amillərlə bağlı idi. Azərbaycan SSR-in ən son gerbi 1978-ci ilə aid olmaqla Sovet İttifaqının süqutunadək dövlət gerbi statusu daşımışdır. Dövlət bayrağı və gerbi ilə yanaşı, 1945 və 1978-ci illərdə Azərbaycan SSR-in Dövlət Himni də qəbul edilmişdir.

**Pərvin Gözəlov,**
**tarix üzrə fəlsəfə doktoru:**

– Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyaslnın 10-cu maddəsinin "Mədəni irsin qorunması və səmərəli idarə edilməsi" bəndində deyilir: "Dünya muzeylərində saxlanılan Azərbaycan mənşəli eksponatların tədqiqi və Azərbaycana məxsusluğunun sübutu üçün materialların toplanması da diqqət mərkəzində olacaqdır".

Azərbaycanın tarixi bayraqların öyrənilməsi və nəticələrinin təbliği Azərbaycanın dövlətcilik ənənələrinin dərin köklərinin əyani sübutudur. Bu istiqamətdə apardığım elmi tədqiqatlar, Azərbaycanın qədim dövlətçilik və tarixi-mədəni ənənələrinin təbliğinə, vətəndaşlar və xüsusən gənclər sırasında vətənpərvərlik hissinin aşılanmasına və güclənməsinə xidmət edir. Bu tarixi rəmzlər Azərbaycan barədə doğru olmayan, qərəzli və təxribat yönümlü məlumatlar yayanlara, əks təbliğat aparanlara qarşı mübarizədə ciddi dəlillər rolu oynayır.

Bu istiqamətdə tədqiqatlara qoşularaq Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq xarici muzeylərdə saxlanılan Naxçıvan xanlığına məxsus 3 bayrağın aşkar etməyimin tarixçəsindən söz açmaq istəyirəm.

Aşkar etdiyim bayraqlar Naxçıvan xanlığının siyasi-ideoloji, dini və dövlətçilik sistemi ilə əlaqədardır. Həmin bayraqların tərtibatı, üzərində əks edilən yazılar, istifadə olunan rəmzlər və rənglər, bayrağa sahib olan Naxçıvan xanlığının dövlətçilik, siyasi, ideoloji, dini, tarixi və mədəni ənənələrini əks etdirir. Naxçıvan xanlığının bayraqlarının üzərində əks olunmuş rəmzlərin digər xanlıqların bayraqları ilə müqayisəsindən görünür ki, yalnız Naxçıvan xanlığının bayrağında Azərbaycanın tarixi rəmzləri və ənənələri istifadə edilib.

Bayraqlarının elmi tədqiqatı nəticəsində belə qənaətə gəlinir ki, Naxçıvan xanlığının bayraqları tarixi dövlətçilik ənənələrinə və tarixi rəmzlərinə əsaslanaraq tərtib edilərək, xanlığın ideoloji baxımdan möhkəm, tarixi ənənələrə, köklərə bağlı dövlət qurumu kimi fəaliyyət göstərib.

Azərbaycanın dövlətçilik tarixinin əsas atributlarından olan, dövlətçilik ənənərini əyani təcəssüm etdirən, Azərbaycan xanlıqlarının xarici muzeylərdə saxlanılan bayraqlarının aşkar edilməsi istiqamətində elmi tədqiqatlarım 2015-ci ildə çox böyük uğurla nəticələndi. Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində Dövlət Ermitaj Muzeyində və Artilleriya, Mühəndis Qoşunları və Rabitə Qoşunları Hərb-Tarixi Muzeyinin bayraq fondlarında və arxivlərində apardığım elmi tədqiqatlar nəticəsində Naxçıvan xanlığına məxsus 2 bayraq aşkar etdim.

Bu elmi tədqiqatların nəticəsində Naxçıvan xanlığının (XVIII-XIX əsr) dövlət və müttəfiq (döyüş) bayraqları elmi dövriyyəyə daxil edilib. Həmin bayraqların reproduksiyası (surəti) respublikamızın 3 muzeyində: Milli Azərbaycan Tarixi Muzeyinin ikinci mərtəbəsindəki Avropa zalında, Naxçıvan şəhərində Dövlət Bayrağ Muzeyində və Naxçıvan Xanlarının Sarayı Tarix Muzeyində nümayiş etdirilir.

Naxçıvan xanlığı ideoloji baxımdan möhkəm, tarixi ənənələrə, köklərə bağlı dövlət qurumu kimi fəaliyyət göstərib. Azərbaycanın tarixi bayraqlarının öyrənilməsi və nəticələrinin təbliği, Azərbaycanın dövlətçilik ənənələrinin dərin köklərinin əyani sübutudur. Gələcəkdə bu istiqamətdə daha çox elmi tədqiqatların aparılması zəruridir. Qarabağ, Şirvan, Quba və diqər xanlıqların bayraqlarının axtarışı və müəyyən edilməsi istiqamətində araşdırmaları davam etdirirəm.

Oxucularımıza Dövlət Bayrağı Meydanı və buradakı muzey barədə qısa məlumatı da xatırladırıq.

Meydanın təməli 2007-ci il dekabrın 30-da Prezident İlham Əliyevin iştirakı ilə qoyulub. Meydan üçün seçilmiş yer Dövlət Bayrağının paytaxtın bütün nöqtələrindən görünməsinə imkan yaradır. Burada ilk dəfə ucaldılan dövlət bayrağı dirəyi ölçülərinə görə "Ginnesin rekordlar kitabı"na düşüb. Dirəyin hündürlüyü 162, bünövrəsinin diametri 3,2 metr, bünövrənin üst hissəsinin diametri isə 1,09 metr idi. Dirəkdən asılan bayrağın eni 35 metr, uzunluğu 70 metr, ümumi sahəsi 2 min 450 kvadratmetr, çəkisi təqribən, 350 kiloqramdır.

Meydanda qurulmuş Azərbaycan Respublikasının gerbi, Dövlət Himninin mətni və ölkəmizin xəritəsi qızıl suyuna salınmış bürüncdən hazırlanıb. Ümumi ərazisi 60 hektar, əsas sahəsi 31 min kvadratmetr olan meydanda son dövrdə yenidənqurma işləri aparılıb.

Meydan ərazisində yaradılan Dövlət Bayrağının Təbliği Muzeyi də orijinal memarlıq layihəsidir. Burada Azərbaycanın tarixi dövlət qurumlarının bayraqları və digər rəmzləri, dəyərli eksponatlar nümayiş etdirilir. Muzeydə Azərbaycanın dövlət bayrağına bənzəyən, amma müəyyən fərqləri ilə seçilən bayraq da sərgilənir. Bu, Azərbaycan Respublikası Prezidentinin ştandartının dublikatıdır. Ştandartın orijinalı dövlət başçısının kabinetində saxlanılır. Azərbaycan Respublikası Prezidentinin ştandartının üzərində Dövlət Gerbi, üçrəngli bayrağımızın rəngləri əks olunub və ölçülərinə görə Dövlət Bayrağından böyük deyil. Bundan əlavə, muzeydə müxtəlif nazirlik və dövlət orqanlarının ştandartlarının nümunəsini də saxlanır.

*Səhifəni hazırladı:*
***Tahir AYDINOĞLU***
***XQ***

**2020-ci ilin 8 noyabr günündən bizi, sanki, 4 il yox, heç 4 gün də ayırmır. 30 il gözlədiyimiz Qarabağın azadlığı uğrunda 44 günlük Vətən müharibəsi və onun Şuşanın fəthi ilə başa çatan Zəfər zirvəsi ötən 4 il ildə həmişə bizimlə olub. 3 il sonra Qarabağda gerçəkləşdirilmiş antiterror tədbirləri də həmin 44 günün nidası kimi qəbul edildi. Bir sözlə, 4 ildir ki, hər gün əvvəlki 30 ilin acısını əritməkdə olan Zəfərin şirinliyini dadmaqdayıq.**



# Müqəddəs Vətən savaşı, misilsiz Zəfər yürüşü

2020-ci il sentyabr ayının 27-də Azərbaycanın müstəqillik və dövlətçilik tarixinin yeni bir səhifəsi açıldı. Həmin gündən etibarən xalqımız Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında dəmir yumruğa çevrilərək Vətən müharibəsinə qalxdı, təxminən, 30 il davam edən erməni işğalına son qoyulması üçün azadlıq mübarizəsinə qoşuldu. Qərbin ermənipərəst dövlətləri və qüvvələri tərəfindən himayə olunan və onların siyasi, mənəvi və hərbi dəstəyi ilə ən adi beynəlxalq normaları ayaq altına alan erməni faşizminə müharibənin elə ilk günündə sarsıdıcı zərbə vuruldu. Ermənistan tərəfindən Azərbaycana qarşı 2020-ci il sentyabr ayının 27-də növbəti dəfə qəfil irimiqyaslı təcavüzə qərar verilsə də, əslində, bu təxribat gözlənilən idi. Çünki son iki ildə Ermənistan rəhbərliyinin Azərbaycana qarşı apardığı davakar və hədələyici siyasət bunu deməyə əsas verirdi. Belə ki, Azərbaycan tor paqlarının işğalının rəsmiləşdirilməsi və zorla qəbul etdirilməsi üçün Ermənistan rəhbərliyi hər cür təxribatlara əl atırdı. Ermənistan rəhbərliyi isə edilən xəbərdarlıqlara qulaq asmadı və 2020-ci il sentyabr ayının 27-də qarşıya qoyduğu məqsədə çatmaq üçün yenidən hərbi təxribat yolunu tutdu.

Həmin gün səhər tezdən Tərtər rayonunun Qapanlı, Ağdamın Çıraqlı və Orta Qərvənd, Füzulinin Alxanlı, Şükürbəyli və Cəbrayılın Cocuq Mərcanlı kəndləri iriçaplı silahlardan atəşə tutuldu. Nəticədə, mülki əhali arasında dünyasını dəyişənlər və yaralananlar oldu. Adları çəkilən rayonlardakı infrastruktur obyektlərinə ciddi ziyan dəydi. Azərbaycan Ordusunun ön xətt bölmələri düşmənin bu təxribatının qarşısını almaq və qoşunların qarşıdurma xəttinə yaxın zonalarda yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə sentyabr ayının 27-də səhər saat 6.00-dan etibarən cavab tədbirləri görməyə başladı.

Qoşun bölmələri düşmənə layiqli cavab vermək üçün başlanğıc vəziyyətə gətirildilər. Erməni hərbi təxribatının miqyası və xarakteri qiymətləndirildikdən sonra təmas xətti boyunca yerləşən hərbi qüvvələrə 7.30-dan etibarən kütləvi zərbə endirilməsi əmri verildi. Əlavə olaraq raket-artilleriya və aviasiya qüvvələri düşmənə sarsıdıcı zərbə vurulmasına cəlb olundu. Bu qüvvələrin qarşısında düşmən müdafiəsinin dərinliklərində yerləşən hərbi obyektlərə və hərbi qüvvələrə ağır zərbə vurulması tapşırığı qoyuldu.

Bununla, Ermənistanın hərbi təxribatlarının qarşısının alınması üçün başlanan əks-hücum əməliyyatının ilk mərhələsinin başlanğıcı qoyuldu. Bütünlükdə, üç mərhələdə yekunlaşan bu müharibənin ilk mərhələsində Azərbaycanın hərbi qüvvələri qarşısında dayanan vəzifələr əkshücum əməliyyatının hazırlanması, ilk eşelonda yerləşən Azərbaycan qüvvələrinin müdafiəsinin dayanıqlığına nail olunması, düşmənə kütləvi atəş zərbəsinin endirilməsi, əks-hücum üçün başlanğıc vəziyyətin tutulması, əsas qüvvələrin hücuma keçməsinin təmin edilməsi, düşmənin birinci eşalonda yerləşmiş qüvvələrin müdafiəsinin yarılması və digərləri idi.

Əsgər və zabitlərimiz ilk gündən yalnız irəli getdilər. Qəhrəman oğullar atəşləri yarıb keçdilər, cəhənnimin üstündən ötdülər. 44 gündə bir nəfər də fərari olmadı. Düşmən isə qoşun-qoşun məğlub oldu, qaçmağa üz qoydu. Azərbaycan Ordusu tarixin ən mükəmməl savaşını apardı. Çünki bu əsl Vətən savaşı, Haqq döyüşü idi. Ölkəmiz bu müharibəyə hərtərəfli hazırlıq görmüşdü, üstəlik, xalqın 30 illik intiqam enerjisi toplanmışdı.

Ermənistanın Azərbaycana qarşı irimiqyaslı hərbi təxribatının başlanması ilə əlaqədar savaşın ilk günündə Prezident, Alli Baş Ko0mandan İlham Əliyevin rəhbərliyi altında ölkənin Təhlükəsizlik Şurasının iclası çağırıldı. Bu iclasdakı proqram xarakterli çıxışı zamanı İlham Əliyev Ali Baş Komandan kimi erməni hərbi təxribatlarının qarşısının alınması üçün irəlidə hansı vəzifələrin dayandığını müəyyənləşdirdi və onu bütün xalqa çatdırdı.

Həmin vəzifələr, əslində, bəlli hədəfləri ifadə edirdi – Ermənistanın Azərbaycana qarşı işğalına son qoymaq, respublikanın ərazi bütövlüyünü təmin etmək və qaçqın və köçkünləri öz yurdlarına döndərmək. Ali Baş Komandan müharibədə ölkəmizin qələbəsinə qəti inamını belə ifadə etdi: "Mən əminəm ki, bizim uğurlu əkshücum əməliyyatımız işğala son qoyacaqdır! Ədalətsizliyə son qoyacaqdır! 30 ilə yaxın da vam edən işğala son qoyacaqdır! Çünki Azərbaycan xalqı öz torpağında yaşamaq istəyir. Azərbaycan vətəndaşı Vətən həsrəti ilə yaşayır. Mən müxtəlif dövrlərdə dəfələrlə demişəm ki, bizə bu məsələnin, bu münaqişənin yarımçıq həlli lazım deyil. Biz öz torpağımızdayıq, bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Amma öz torpağımızı heç kimə verən deyi lik".

Bu müharibə bütün parametrlərinə görə Azərbaycan üçün Vətən müharibəsi oldu. Beynəlxalq hüquq normalarına, Dağ lıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı BMT Təhlükəsizlik Şurasının hələ 1993-cü ildə qəbul etdiyi dörd qətnamənin tələblərinə məhəl qoymayan Ermənistan üçün isə bu müharibə işğalçılıq siyasətinin davamı idi. Vətən müharibəsinin başlanması ilə Ali Baş Komandan kimi İlham Əliyev əməliyyatların planlaşdırılmasını, əməliyyat istiqamətlərinin müəyyənləşdirilməsini, respublikanın hərbi gücünün cəbhəyə səfərbər olunmasına rəhbərliyi, siyasi-diplomatik fəaliyyətin müharibənin tələbləri üzərində qurulmasının təşkilatçılığını, uyğun informasiya mühitinin formalaşdırılmasının təşəbbüskarlığını öz üzərinə götürdü.

İlk gün xalqımıza ilk qələbəsini qazandırdı. Düşmən geri oturdulmağa başladı, xalqımız Zəfər əhvalına kökləndi. Günün birinci yarısında artıq bəzi istiqamətlərdən erməni silahlı qüvvələrinin müdafiə xətləri yarıldı. Nəticədə, Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri, günün ikinci yarısında isə Murov dağ silsiləsində Murov zirvəsi erməni işğalından azad edildi. Murov zirvəsinin azad edilməsi ilə Ağdərə–Vardenis avtomobil yolu Azərbaycan Ordusunun nəzarəti altına düşdü.



Adları çəkilən yaşayış məntəqələri Vətən müharibəsinin gedişində azadlığına qovuşmuş ilk yaşayış məntəqələri oldular. Bu məntəqələrin azad edilməsindən əlavə, gün ərzində erməni hərbi qüvvələrinin atəş mövqelərinə və hərbi texnikasına da sarsıdıcı zərbə endirildi. Müharibənin elə ilk gününün nəticələri göstərdi ki, güclü olması haqqında yalan çı mif yaradılmış quldurlaşmış Ermənistan ordusu Azərbaycan Silahlı Qüvvələrinin qüdrəti qarşısında gücsüz və acizdir. Mütəxəssislər də qeyd edirdilər ki, öz gücünə yersiz arxayınçılığa varmış Ermənistan ordusu yeni başlanan müharibədə XX əsrin 90-cı illərinin hərbi taktikasına istinad edirdisə, Azərbaycan XXI əsrin müharibəsinin aparılmasına qadir olduğunu nümayiş etdirdi.

Sentyabr ayının 27-dən başlayaraq Azərbaycan Ordusunun müzəffər yürüşünün başlanğıcı qoyuldu və həmin gündən başlayaraq Azərbaycanın hərbi qüvvələri hər gün yeni-yeni Vətən torpağının azad edilməsinin böyük sevincini Azərbaycan xalqına yaşatdı. Bu hünəri müzəffər Ali Baş Komandan belə dəyərləndirirdi: "Hər gün biz irəliyə gedirdik, 44 gün ərzində bir gün də olmayıb ki, biz geri çəkilək. Bir gün də olmayıb ki, hansısa məsələni biz həll etməyək. Hər gün səhər mənim tərəfimdən hər günün döyüş-əməliyyat planı təsdiq edilirdi, günün sonunda da təhlil olunurdu. Biz bunun nəticəsində qısa müddət ərzində böyük Qələbə qazana bilmişik, öz doğma torpaqlarımızı düşməndən azad edə bilmişik".

Bu 44 günlük qzadlıq və qəhrəmanlıq yürüşünün zirvəsi olan Şuşanın fəthi azğın düşmənin diz çöküb təslim aktını imzalaması ilə nəticələndi. Şuşa döyüşü hərb tariximizin ən uca zirvəsini təşkil etdiyinə və çağdaçş tariximizə Zəfər günü kimi yazıldığına görə bir hərbi tarixçi kimi bu barədə daha ətraflı söz açmaq istəyirəm.

Əsası qoyulduğu gündən Azərbaycanın milli və mədəniyyət mərkəzi olmaqdan əlavə Şuşa şəhəri həm də qərar tutduğu məkan etibarilə ətraf bölgənin nəzarət altında saxlanması üçün xüsusi hərbi-strateji əhəmiyyət kəsb edirdi. Bu mənada bu şəhərin azad edilməsi və yenidən Azərbaycan dövlətinin nəzarəti altına qaytarılması Ermənistanın işğalçılığına son qoyulması və respublikanın ərazi bütövlüyünün təmin edilməsi üçün ciddi hərbi-siyasi üstünlüyə yol aça bilərdi.

Ona görə də Vətən müharibəsinin gedişində Şuşa şəhərinin azad edilməsi, bu şəhərdə milli ruhun bərpa edilməsi istəyi Azərbaycan xalqının və onun dövlət rəhbərliyinin diqqət mərkəzində dayanan mühüm məsələlərdən biri idi. Bunu Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev də təsdiq edirdi və bildirirdi ki, Şuşasız bizim işimiz yarımçıq olardı: "Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir, qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edibdir. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar. Təbii ki, müzakirələr prosesində də hər zaman bu məsələ gündəlikdə idi. Amma mənim mövq-eyim hər zaman belə olub ki, Şuşasız bizim işimiz yarımçıq olar. Ona görə təbii ki, Şuşanın işğaldan azad edilməsi bizim hədəflərimizin arasında xüsusi yer tutur. Biz buna çalışmalıyıq, biz buna nail olmalıyıq".

2020-ci il oktyabrın 25-də Qubadlı şəhərinin azad edilməsindən sonra cənub bölgəsində fəaliyyət götərən Azərbaycan qüvvələrinin əsas zərbə gücü Laçın və Şuşaya doğru istiqamətləndirildi. Amma İlham Əliyevin qeyd etdiyi kimi, Şuşa şəhərinin azad edilməsi üçün konkret addımların atılmasına Hadrutun erməni hərbi qüvvələrindən təmizlənməsindən sonra başlandı. Ali Baş Komandan bu barədə bildirirdi ki, oktyabrın 9-da Hadrutun "azad edilməsindən sonra biz Şuşaya istiqamət götürdük. Şuşa əməliyyatının uğurlu keçirilməsi üçün məhz Hadrutu azad etmək önəmli idi. Yenə də düşmənin bizi gözləmədiyi istiqamətdən Şuşaya yaxınlaşdıq. Dağlardan, dərələrdən, sıldırım qayalardan keçərək, o qayaları dırmaşaraq biz Şuşanı işğalçılardan azad etdik".

Hadrutun azad edilməsi Şuşaya aparan yolun nəzarət altına alınması baxımından hərbi əhəmiyyət kəsb edirdi. Bu qəsəbə erməni işğalından azad edildikdən sonra əsas diqqət ətraf yaşayış məntəqələrinin və Füzulinin azad edilməsinə istiqamətləndirildi. Şuşa istiqamətində uğurlu hücuma başlanması həm də göstərilən yaşayış məntəqələrinin azad edilməsindən asılı idi. Burada planlaşdırılan döyüşlərin aparılmasınaa xüsusi təyinatlı qüvvvələr daha fəal şəkildə cəlb edildilər. Hərbi rəhbərliyin qərarına əsasən bölgədəki xüsusi təyintlı qüvvələr iki dəstəyə bölündülər. Birinci dəstəyə Füzuli–Xocavənd, ikinci dəstəyə isə Hadrut–Şuşa istiqamətində irəliləmək əmri verildi. İki gün ərzində aparılan döyüşlər nəticəsində Füzulinin bir-neçə yaşayış məntəqəsi, Hadrut–Qarakollu yolu, bir neçə böyük yaşayış məntəqəsi və strateji yüksəklik ələ keçirildi.

Erməni hərbi-siyasi rəhbərliyi Azərbaycanın hərbi qüvvələrinin Şuşaya həm də Hadrutdan keçməklə hücum edəcəyini gözləyirdi. Bunun qarşısının alınması üçün Hadrutdan Qırmızı Bazara aparan yolun şimal-qərbindəki dağ yüksəkliklərində erməni hərbi qüvvələri möhkəmləndirilmiş müdafiə mövqeləri qurmuşdular. Belə bir ehtimal var idi ki, Azərbaycan Ordusu bu istiqamətdən Şuşaya doğru irəliləmək istəsə onda əlverişli mövqelərdən bu orduya güclü zərbə vurmaq mümkün olacaqdır. Qırmızı Bazardan keçən yolun ətrafında güclü müdafiə mövqelərinin qurulması erməni hərbi komandanlığının Qarabağın, xüsusilə Şuşa və Xankəndin qorunması üçün yaratdığı çoxeşelonlu müdafiə sisteminin tərkib hissəsi idi.

Ermənistan rəhbərliyinin planlarına görə, əgər cənubdakı aran ərazilərdə, xüsusilə Füzuli–Cəbrayıl istiqamətdindəki erməni müdafiə xətləri Azərbaycan Ordusu tərəfindən yarılmış olardısa, onda Hadrut-Qırmızı Bazar yolunun hər iki kənarındakı dağ yüksəkliklərində yaradılmış müdafiə xətti ilə Azərbaycan qüvvələrinin Şuşaya dorğu irəliləməsinin qarşısını almaq olardı. Bu yolun ermənilər tərəfindən bağlanması ilə Azərbaycan hərbi qüvvələrinin, hərbi texnikasının Şuşaya yaxınlaşmasına ciddi əngəllər yaradılmış olardı.

Hadrut-Qırmızı Bazardan keçməklə Şuşaya aparan yol hər iki tərəf üçün hərbi-strateji əhəmiyyət kəsb edirdi. Bu yol ilə irəliləmək Azərbaycan Ordusu üçün müəyyən itkilərlə müşayiət oluna bilərdi. Ona görə, Qırmızı Bazardan keçən yolun ətrafında hərbi gərginliyi saxlamaqla Azərbaycan Ordusunun bölmələri Hadrutdan başlayaraq yolsuz dağlıq və sıx meşəlik ərazilərlə Şuşaya doğru irəliləməyə başladılar.

Hadrutdan düz xətt boyunca Şuşaya qədər olan 50-60 kilometr məsafədəki sıldırım dağlı ərazilər o dərəcədə keçilməz ərazilər idi ki, erməni hərbi komandanlığı üçün Azərbaycan Ordusunun rəhbərliyi tərəfindən belə bir qərar veriləcəyi insan zəkasına sığışmayacaq bir seçim kimi qəbul edilirdi. Digər tərəfdən erməni hərbi-siyasi rəhbərliyi inanmırdı ki, Azərbaycan Ordusunun bölmələri hərbi texnikanın və pilotsuz uçuş aparatlarının köməyi olmadan erməni mövqelərinə doğru irəliləməyə cəsarət edə bilərlər. Amma Azərbaycan Ordusunun rəhbərliyi belə bir qərarı qəbul etdi. Bununla belə Azərbaycanın hərbi komandanlığı Hadrut–Xocavənd istiqamətində xeyli sayda qüvvə də saxladı ki, oradakı erməni qüvvələrinin Şuşanın müdafiəsinə yönəlməsinin qarşısı alınsın.

Həvalə edilmiş döyüş tapşırığının icrası üçün yaradıcı təfəkkürün ortaya qoyulması, gözlənilməzliyin, sürətin məntiqi seçimlə düzgün uzlaşdırılması, fiziki göztəricilər və mənəvi motivlər Azərbaycanın xüsusi təyinatlı qüvvələrinə imkan verdi ki, çox mürəkkəb coğrafi şəraiti arxada qoynaqla Şuşa şəhərinə yaxınlaşsın və bu şəhərin həndəvərindən yerləşmiş erməni hərbi qüvvələri ilə döyüşlərə başlasın. Hərbi aviasiyanın, raket-artilleriya qüvvələrinin fəal himayəsindən uzaq düşmüş Azərbaycan bölmələri kiçik dəstələrlə düşmənin müdafiə sahələrini tədri-cən zərərsizləşdirərək Şuşa həndəvərinə qədər təhlükəli və məsuliyyətli bir yol keçməli oldular.

Dağ yüksəkliklərində yaradılmış atəş nöqtələrindən erməni hərbi qüvvələrinin müqavimət göstərmək cəhdləri də Azərbaycan bölmələrinin irəliləməsinin qarşısını saxlaya bilmədi. 2020-ci il oktyabr ayının 29-30-da Azərbaycan Ordusunun bölmələri atrtıq Daşaltı kəndi ətrafında döyüşlər aparırdılar. Bu kənd Şuşanın qapısı hesab edilirdi və erməni hərbi komandanlığına aydın idi ki, bu kəndin işğaldan azad edilməsi erməni hərbi qüvvələrinin durumunu daha da ağırlaşdırlacaqdır.

Bu zamatəkcə Şuşa ətrafında deyil, eyni zamanda, Qubadlı və Xocavənd istiqamətdində də gərgin döyüşlər davam etdi. Bu şəhərlərin hər ikisi Şuşaya aparan strateji yolların üzərində yerləşirdi. Xocanvənddən keçən yol Qarabağın cənub-şərqindən Şuşaya çıxmaq imkanı verə bilərdisə, Qubadlıdan keçən yol isə Qarabağın cənub-qərbindən, Ermənistan sərhədi boyunca irəliləməklə Laçına çıxmaq və Laçın–Şuşa yolunu nəzarət altına almaq imkanı verə bilərdi.

Qubadlıdan Laçına aparan ensiz dağ yolu həm Ermənistan tərəfindən, həm də Laçın istiqamətindən erməni hərbi qüvvələrinin atəş nəzarəti altına alınmışdı. Coğrafi şəraitin xüsusiyyətlərinə görə, erməni hərbi qüvvələri böyük qüvvə cəlb etmədən də bu istiqaməti raker-artilleriya nəzarəti altına ala bilərdilər. Müşahidəçilər hətta onu da qeyd edirdilər ki, erməni hərbi-siyasi rəhbərliyi lazımi çevikliyi nümayiş etdirəcəyi təqdirdə Qubadlı istiqamətindəki Azərbaycan hərbi qüvvələrinə ciddi təhlükə də yarada bilərdi.

Noyabr ayının 3-də Laçın–Şuşa yolu hərəkət üçün bağlanıldı və hətta Ermənistandan Xankəndinə gəlmiş olan bir sıra jurnalistlər artıq bu yol ilə geri qayıda bilmədilər. Bununla eyni zamanda Qarabağdakı erməni qüvvələrinin Ermənistanla əsas təchizat yolu da bağlanmış oldu.

Şuşa şəhərinin azad edilməsi üçün Azərbaycan Ordusunun əldə etdiyi mühüm uğurlardan biri isə noyabr ayının 4-də Daşaltı kəndinin erməni işğalından azad edilməsi oldu. Bu kəndin azad edilməsi üçün Azərbaycanın ordu bölmələri, o cümlədən xüsusi təyintlı qüvvələr ciddi sınaqlarla qarşılaşmalı oldular. Bu kəndin azad edilməsi Azərbaycanın ordu bölmələrinə Şuşa ətrafında əlavə taktiki üstünlüklər yaratmaqla Azərbaycanın xüsusi təyinatlı qüvvələrinin Şuşaya girməsini də asanlaşdırmalı idi.

Daşaltı ətrafında tədricən güclü Azərbaycan dəstəsi formalaşdırılmışdı. Bu kəndin Şuşanın müdafiəsi üçün hansı əhəmiyyət kəsb etdiyini erməni hərbi-siyasi rəhbərliyi də yaxşı başa düşürdü. Ona görə də erməni hərbi komandanlığı da bura əlavə qüvvələr cəlb etməklə Azərbaycan Ordusunun hücumunun qrşısını almağa çalışırdı. Xüsusilə, Daşaltı kəndinə aparan yolu kənarında yerləşən 1431 və 1553 nömrəli hakim yüksəkliklərdə böyük sayda erməni qüvvələri yerləşdirilmişdi. Həmin yüksəklikləri işğaldanazad etmədən, Daşaltı kəndinə yaxınlaşmaq da mümkün deyildi.

Noyabr ayınnı ilk günlərindən etibarən Şuşa ətrafında hava şəraiti də mürəkkəbləşmişdi. Ona görə Azərbaycan bölmələri artilleriyanın və pilotsuz hava aparatlarının imkanlarından istifadə etmək məhdudiyyəti ilə qarşılaşmışdılar. Bu isə əlverişli coğrafi şəraitdə qərar tutan erməni hərbi qüvvələrinin daha yaxşı müdafiə olunmaq imkanlarını artırırdı. Onun nəticəsi idi ki, Azərbaycan bölmələri 1553 nömrəli yüksəkliyin ələ keçirilməsi üçün çox ağır bir döyüşə qatılmalı oldu. Həmin yüksəkliyin alınmasında xüsusi təyinatlı qüvvələri üç taboru iştirak edirdi.

**(ardı var)**

***Mehman SÜLEYMANOV,***
***Milli Müdafiə Universiteti Hərbi Elmi Tədqiqat İnstitutunun professoru, tarix elmləri doktoru***

# Milli Məclisin plenar iclası



**Dünən Sahibə Qafarovanın sədrliyi ilə parlamentin payız sessiyasında növbəti plenar iclası keçirilib.**

Milli Məclisin sədri Zəfər Günü barədə danışıb, şanlı Qələbənin tarixinə qısa nəzər salıb, azad olunmuş ərazilərimizdə aparılan abadlıq-quruculuq işlərindən bəhs edib.

Sonra cari məsələlər müzakirə edilib. Deputatlar xalqımızın tarixində əlamətdar hadisələrdən olan, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi şanlı Qələbə, 8 Noyabr – Zəfər Günü münasibətilə təbriklərini çatdırıblar. Parlamentin sədri Zəfər Günü ərəfəsində Milli Məclisin bir qrup üzvünün "Xarıbülbül zirvəsi"nə yürüş etdiyini diqqətə çatdırıb.

Sonra iclasın gündəliyinə daxil olan 16 məsələnin müzakirəsi keçirilib. İlk 2 məsələ Milli Məclisin qərar layihələri olub.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyəti üzvlərinin vəzifəyə təyin edilməsi haqqında məsələ barədə məlumat verib. O bildirib ki, Prezident tərəfindən Toğrul Nəcəfəli oğlu Əliyevin, Gülər Azər qızı Paşayevanın, Əli İsmayıl oğlu Əhmədovun və Vüsal Cahangir oğlu Xəlilovun Mərkəzi Bankın İdarə Heyətinin üzvləri təyin edilməsi ilə bağlı təqdimat daxil olub. Məsələ ətrafında aparılan müzakirələrdə bank sistemində mövcud vəziyyətlə bağlı bəzi qeyd və təkliflər açıqlanıb.

Komitə sədri çıxışlara münasibət bildirdikdən sonra Milli Məclis qərar layihəsi qəbul edilib.

Sonra komitə sədri Azər Əmiraslanov R.T.Orucovun Mərkəzi Bankın İdarə Heyətinin üzvü vəzifəsindən azad edilməsi haqqında məsələni nəzərə çatdırıb. O bildirib ki, komitə iclasında Rəşad Təmraz oğlu Orucovun Mərkəzi Bankın İdarə Heyətinin üzvü vəzifəsindən azad edilməsi ilə bağlı ölkə Prezidentinin təqdimatı nəzərə alınıb və məqsədəuyğun hesab edilib. Milli Məclisin bu qərar layihəsi də səsə qoyularaq qəbul olunub.

Sonra üçüncü oxunuşda olan 6 məsələ müzakirə edilib.

Parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" qanunlarda, Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Torpaq icarəsi haqqında" Qanunda, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Mülki Prosessual Məcəllədə, Azər Əmiraslanov "Kredit büroları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair məlumat veriblər. Qanun layihələri səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Növbəti 6 məsələ isə ikinci oxunuşda olan qanun layihələri olub.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Minatəmizləmə fəaliyyəti haqqında" qanun layihəsini təqdim edib. Sonra parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov "Yol hərəkəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair məlumat verib. Müzakirələrdən sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

S.Qafarova gündəliyin növbəti iki məsələsinin Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olduğunu və mahiyyətcə bir-birinə yaxın olduğunu deyib. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini təqdim edib. Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev isə "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında" və "Yaşıllıqların mühafizəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair məlumat verib.

Gündəliyin növbəti məsələsi olan "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Büdcə sistemi haqqında" və "Nağdsız hesablaşmalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov təqdim edib.

Daha sonra Arzu Nağıyev Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) müzakirəyə təqdim edib.

Qanun layihələri səsə qoyularaq qəbul olunub.

Milli Məclisin sədri Sahibə Qafarova gündəliyin son iki məsələsinin birinci oxunuşda təqdim edilən qanun layihələri olduğunu diqqətə çatdırıb. Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini Kamal Cəfərov diqqətə çatdırıb.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov isə sonuncu məsələ – "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin mahiyyəti barədə danışıb.

Müzakirələrdən sonra qanun layihələri səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Bununla da Milli Məclisin plenar iclası başa çatıb.

*XQ*

# Müsəlman din xadimləri Qarabağda



**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "Dünya dinləri yaşıl planet uğrunda" şüarı altında keçirilən Dünya Dini Liderlərinin Qlobal Bakı Sammitinin iştirakçıları Qarabağa səfər ediblər.**

Nümayəndə heyəti təyyarə ilə Füzuli Beynəlxalq Hava Limanına gəlib. Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Eldar Seyidov qonaqlara işğalçı Ermənistanın 30 il ərzində Füzuli rayonunun ərazisində törətdiyi dağıntılar, vandalizm aktları, həmçinin şəhərin Baş planına uyğun olaraq həyata keçirilən və görüləcək işlər barədə məlumat verib.





Diqqətə çatdırılıb ki, Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunub. Burada görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib.

*

Həmin gün dini liderlar Ağdama səfər ediblər. Onlar əvvəlcə Ağdam şəhərindəki Şəhidlər xiyabanına gəliblər. Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Eldar Seyidov qonaqlara Şəhidlər xiyabanı, ermənilərin burada törətdiyi vandalizm haqqında məlumat verib.

Dini liderlər sonra Ağdam şəhər Cümə məscidinə gəliblər. Bildirilib ki, erməni vandalları Ağdam Cümə məscidində mal-heyvan saxlamaqla azərbaycanlılara, müsəlman aləminə qarşı öz nifrətlərini nümayiş etdiriblər. Ağdam şəhəri işğaldan azad olunduqdan sonra Cümə məscidi bərpa olunaraq əvvəlki görkəminə qaytarılıb.

Müsəlman din xadimləri məsciddə namaz qılıblar.

Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə nümayəndə heyətinə ermənilərin müharibə cinayətləri barədə məlumat verib.

*

Dünya Dini Liderlərinin Qlobal Bakı Sammitinin iştirakçıları Xankəndi və Şuşa şəhərlərində də olublar.

Nümayəndə heyəti əvvəlcə Xankəndi şəhərinin Zəfər meydanına gəlib. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov onlara Xankəndi şəhəri haqqında məlumat verib.

Qonaqlar sonra Şuşa şəhərinə səfər ediblər. Cıdır düzündə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin icraçı direktoru Tural Novruzov məlumat verib.

Dini liderlər Şuşanın azad olunması uğrunda şəhid olanların ruhuna dua oxuyublar.

Dünya Dini Liderlərinin Qlobal Bakı Sammitinin iştirakçıları sonra Azərbaycanın tanınmış şəxsiyyətləri Bülbül, Xurşidbanu Natəvan və Üzeyir Hacıbəylinin güllələnmiş heykəllərinin yerləşdiyi Şuşa şəhər mərkəzi meydanı və qala divarları ilə tanış olublar.

Daha sonra müsəlman dini liderlər Yuxarı Gövhər Ağa məscidində namaz qılıblar.

*XQ*

# YAP-ın təşkilatçılığı ilə Zəfər Günü mərasimi



**Dünən Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə 8 Noyabr Zəfər Gününə həsr olunmuş təntənəli mərasim keçirilib.**

Əvvəlcə tədbirdə ulu öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov məclis iştirakçılarını müasir dövlətçilik tariximizin ən qürurverici hadisəsi – zirvə nöqtəsi olan və Azərbaycanın ərazi bütövlüyünün bərpasını təmin edən şanlı Zəfərin dördüncü ildönümü münasibətilə salamlamaqdan böyük məmnunluq duyduğunu bildirib. Tahir Budaqov vurğulayıb ki, Azərbaycan xalqı torpaqlarımızın işğaldan azad olunmasının, əzəli yurd yerlərinə əbədi qayıdışının hədsiz sevinc və qürurunu yaşamaqla 8 Noyabr Zəfər Gününü böyük coşqu ilə qeyd edir: "Bu gün iftixarla qeyd edirik ki, torpaqlarımız döyüş meydanında Ümummilli Lider Heydər Əliyevin siyasi varisi – Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli ordumuzun işğalçıları darmadağın edərək layiqincə cəzalandırması nəticəsində azad olunmuşdur".

YAP Sədrinin müavini, Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov bildirib ki, Vətən müharibəsində qazanılan Qələbə tariximizə qızıl hərflərlə yazılıb. Onun sözlərinə görə, Azərbaycanın müasir tarixinin ən mühüm iki hadisəsi dövlət müstəqilliyimizin bərpa olunması və 30 il Ermənistanın işğalı altında olan torpaqlarımızın azad edilməsidir.

Xüsusi Təyinatlı Qüvvələrin giziri, "Qarabağ" ordenli şəhid Şahmar Mənəfovun həyat yoldaşı Bəyim Mənəfova çıxışında bildirib ki, Azərbaycan xalqı artıq 2020-ci ildən hər ilin noyabr ayını böyük sevinc və fərəh hissi ilə qarşılayır: "Çünki Ali Baş Komandanımızın rəhbərliyi, Azərbaycanın igid oğullarının misilsiz şücaəti sayəsində Qarabağ əzəli sahiblərinə geri qaytarıldı".

Xüsusi Təyinatlı Qüvvələrin mayoru, Vətən Müharibəsi Qəhrəmanı Zaur Hüseynov çıxışında bildirib ki, Vətən müharibəsi Azərbaycan xalqının varlığını, kimliyini qorumaq uğrunda aparılan haqq mübarizəsi idi: "Hər bir azərbaycanlının qəlbində alışıb yanan Vətən sevgisi, dövlətə bağlılığı və milli kimliyimiz bizi bu zəfərə çatdırdı. Bu müqəddəs yolun hər addımı xalqımızın birliyini, ordumuzun qətiyyətini və dövlətimizin əzəmətini sübut etdi".

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov bildirib ki, 8 Noyabr təkcə hərbi gücümüzün qələbəsinin deyil, həm də xalqımızın birliyi, dözümü və vətənpərvərliyinin güclü bir rəmzidir: "Çünki həqiqi qələbə yalnız döyüşlərin nəticəsi ilə ölçülmür, millətin əzmi, vətənini qorumaq üçün sarsılmaz iradəsi və yenidən qurmaq, yenilik etmək və irəliləmək gücü ilə qeyd olunur. Dörd il öncə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında bir çağırış ilə birləşən Azərbaycan xalqı 30 illik ədalətsizliyə, dünyanın göz yumduğu məsələyə – Ermənistanın işğalçı siyasətinə son qoydu. Rəşadətli Azərbaycan Ordusunun Qələbəsi həm də daşıdığımız mənsubiyyətin – milli kimliyimizin, vətənpərvərlik və dövlətçilik dəyərlərimizin real təzahürü idi".

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonra 8 Noyabr Zəfər Gününə həsr edilmiş konsert proqramı təqdim olunub.

*XQ*

# Baş Prokurorluqda bayram toplantısı



**Noyabrın 7-də Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə prokurorluq əməkdaşları Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün təmini uğurunda şəhid olmuş hərbçilərimizin dəfn olunduğu II Şəhidlər Xiyabanını ziyarət edərək şəhadət zirvəsinə ucalmış şəhidlərimizin xatirələrini dərin ehtiramla yad edib məzarları üzərinə gül dəstələri qoyublar.**

Prokurorluq əməkdaşlarını və xalqımızı "8 Noyabr – Zəfər Günü" münasibətilə təbrik edən Baş prokuror tariximizin şanlı səhifəsi olan bu qələbəyə aparan yolun əsasının ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu vurğulayıb.

Qeyd edilib ki, Ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən Azərbaycan daha da inkişaf etdirilib, ölkəmizin ərazi bütövlüyü və suverenliyi tamamilə təmin edilib.

Baş prokuror "44 günlük Vətən müharibəsi" və lokal xarakterli antiterror tədbirləri zamanı prokurorluq əməkdaşlarının hərbi əməliyyatların aparıldığı ərazilərdə xidməti vəzifələrini layiqincə yetirdiklərini, bəzi prokurorluq əməkdaşlarının "I Qarabağ" və "44 günlük Vətən" müharibələri zamanı bilavasitə döyüşlərdə iştirak etməsini, hətta şəhid prokurorluq əməkdaşlarının olduğunu, habelə "44 günlük Vətən" müharibəsində iştirak etmiş və yüksək savad, bilikləri ilə seçilən gənclərin prokurorluq orqanlarında qulluğa keçirilən müsabiqədə uğur qazanaraq işə qəbul olunmasını və hazırda sıralarında xidmət etmələrini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Sonda "Səbrin sonu" adlı sənədli film nümayiş etdirilib.

*XQ*

# Vilayət Eyvazov sıra baxışı keçirib



**Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

Baxışdan sonra Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 163 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Onlardan da 23 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərində də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

## 8 Noyabr Şuşa Şəhəri Günüdür

**Azərbaycanın tacı Qarabağ, bu tacın ən dəyərli qaşı Şuşa indi Türk dünyasının qürur mənbəyi, qeyrət simvoludur. Təkcə məmləkətdə deyil, dünyanın dörd tərəfində yaşayan azərbaycanlıların hər biri bu gün özünü qarabağlı, şuşalı hiss edir desək, yanılmarıq. Bu gün xalqımız Zəfərlə eyni vaxtda həm də Şuşa Şəhəri Gününü bayram edir. Müqəddəs və doğma məkana çevrilən bu qala-şəhərə bircə dəfə ayağı dəyməyən soydaşımızın qəlbində Şuşa sevgisi boy verir. Bəli, Şuşa Zəfərdən sonra hər bir azərbaycanlının milli kimliyinin, mənəvi varlığının ayrılmaz parçasına çevrildi.**

# Sən şəhərlər gözəli olacaqsan, Şuşa!

İndi yenidən qurulan, abadlaşdırılan Şuşanın təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulub. Bu il 272 yaşını tamamlayan Şuşa zəngin inkişaf yolu keçib. O zaman Qarabağ xanlığının paytaxtı kimi inşa edilən bu şəhər Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynayıb. Bənzərsiz memarlıq üslubu, özünəməxsus şarmı, qədimi və tarixi görkəmi olan şəhər özünün milli, ziyalı mühiti ilə həmişə seçilib. Həmin mühiti əsrlər boyu qoruyub saxlayan Şuşanın yetirdiyi böyük şəxsiyyətlər Azərbaycanın ədəbi, mədəni, elmi və ictimai fikir salnaməsinə unudulmaz səhifələr yazıblar.



### Zəfərin sinoniminə çevrilən şəhər

Zəfərimizin rəmzinə çevrilmiş Şuşa sovet dönəmində daim qayğı ilə əhatələnib. Ötən əsrin 70-ci illərində Şuşanın sürətli inkişafı, abadlaşdırılması, qədim tarixi binaların bərpa edilməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Şəhərin inkişafına dair xüsusi qərarlar məhz Ulu öndərin təşəbbüsü ilə qəbul edilib. Həmin dövrdə Şuşada abadlıq-quruculuq işləri geniş vüsət almış, mədəniyyət xadimlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Üç tərəfdən dik qayalarla əhatə olunan, strateji mövqeyi ilə seçilən Şuşa Azərbaycana qarşı hərbi təcavüzə başlamış Ermənistan silahlı qüvvələri tərəfindən 1992-ci il mayın 8-də işğala məruz qaldı. 28 il 5 ay davam edən işğal dövründə şəhərin tarix və mədəniyyət yadigarı olan yüzlərlə qədim tikili, abidə vandallar tərəfindən dağıdıldı.

2024-cü il oktyabrın 21-də “Şuşa şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı” təsdiqlənib. Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən hazırlanan baş planda şəhərin ümumi sahəsi 46,765 kvadratmetr olacaq məhəllələrində 25 binanın inşa ediləcəyi planlaşdırılır. Amma, bildiyimiz kimi, Şuşada bərpa-quruculuq işlərinə 2021-ci ildən start verilib. 2022-ci ildə Azərbaycanın, 2023-cü ildə isə “Türk



dünyasının mədəniyyət paytaxtı” elan olunan Şuşanın əsl tarixi simasının bərpası istiqamətində nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddət ərzində şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin ilkin görkəminə qaytarılması, dahi bəstəkar Üzeyir Hacıbəylinin heykəlinin bərpa edilməsi, Mehmandarovların mülkinin təmir-bərpası, Bülbülün ev-muzeyinin açılışı, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin yenidən inşası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir. Zəfərdən sonra hər il Cıdır düzündə “Xarı bülbül” musiqi festivalının düzənlənməsi, Vaqifin məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası onu göstərir ki, Şuşa sürətlə dirçələrək özünün əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır.

### Çoxmərtəbəli binalar

Baş plana əsasən, Şuşanın yeni yaşayış massivi 6 məhəllədən ibarət olacaq. Hər məhəllə üzrə əhali sayı təxminən 2 min nəfər nəzərdə tutulub. Tikinti-quruculuq prosesində şəhərin özünəməxsus memarlıq üslubunun maksimum gözlənilməsinə xüsusi diqqət yetirilir. Şuşanın özünəməxsusluğunu onun coğrafi quruluşu və mövqeyi formalaşdırır. Şəhər bir tərəfdən təbii müdafiə səddi sayılan sıldırım qayalıq, digər tərəfdən isə vaxtilə müdafiə məqsədilə inşa edilmiş qala divarları ilə əhatə olunub. Şuşanı mədəniyyət şəhəri kimi xarakterizə edən əsas amil isə onun tarixən formalaşmış mərkəzi hissəsi, burada yerləşən abidələrdir. Bunlara misal olaraq, Yuxarı və Aşağı Gövhər ağa məscidlərini, Natəvanın evini, Uğurlu bəyin evini, Gəncə giriş qapısını və digərlərini göstərmək olar,

Birinci məhəllədə 3, 4 və 5 mərtəbəli binaların Şuşaya xas memarlıq üslubu ilə inşa edilməsi planlaşdırılıb. Təqdim olunan Baş planda Şuşada orta, yüksək və qarışıq sıxlıqlı yaşayış binalarının inşa edilməsi nəzərdə tutulub. Bundan başqa, şəhər mərkəzinin, qorunub saxlanılacaq tarixi binaların və abidələrin yerləri layihədə öz əksini tapıb. Şəhərdə 17,6 kilometr yeni yolun inşası nəzərdə tutulur. Baş plan hazırlanarkən şəhərin relyefinə uyğun olaraq yaşıllıqları və landşaftı qoruyub saxlamaq, onu inkişaf etdirmək məqsədilə yaşıl dəhlizlərin inşası da nəzərdə tutulur.

Onu da xatırladaq ki, bütün bu işlərə başlamaq üçün Prezident İlham Əliyevin göstərişi ilə əvvəlcə Zəfər yolu çəkildi, tunellər tikildi. Bu, Füzulidən Şuşaya istiqamətlənən rahat və geniş magistraldır. İlk işlər infrastrukturun bərpası üzrə aparılıb. İstilik şəbəkəsi bərpa edilib, şəhərə qaz çəkilib. Su təchizatı üçün dağlarda sututarlar yaradılıb ki, şəhərin daimi suyu olsun. 56 kilometr uzunluqda şəhərdaxili yol şəbəkəsi, 81 küçə və müxtəlif kateqoriyalarda 10-12 metr enindən başlayan dar yollaradək layihədə yer alıb.

Baş plana uyğun olaraq, şəhərin tarixi ərazisində kiçik evlər, gözəl terraslı, yaşıllıqlarla əhatə olunan kompleks tikiləcək. Həm ofislərin, həm də mağazaların yerləşəcəyi biznes-rayonun salınması da nəzərdə tutulub. “Qarabağ”, “Şuşa”, “Yasəmən” mehmanxanaları, tarixi hotel şəhərin görkəminə xüsusi çalar qatacaq.

### İctimai dayanacaqlar, velosiped yolları...

Baş planın icrası zamanı diqqət yetirilən əsas məsələ Şuşanın əvvəlki memarlıq mühitini qoruyub saxlamaqdır. Şəhərin simasını Seyidli, Qurdlar, Culfalar, Quyuluq, Çuxur, Hacı Yusifli, Dörd çinar, Saatlı, Mərdinli və digər bu kimi tarixi məhəllələrin ölçüləri, oradakı binaların fasadlarının qapalı və açıq hissələrinin nisbəti, horizontal və şaquli bölgülərdəki ardıcıllıqlar və ritmlər, mütənasiblik və miqyaslılıq, istifadə olunan yerli materiallar, özünəməxsus tağlı konstruksiyalar, həmçinin dam örtükləri, eyvanlar və digər memarlıq elementləri formalaşdırır. Bu barədə danışan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşı Ramiz İdrisoğlunun sözlərinə görə, Şuşada bütün tikinti və quruculuq işləri xüsusi nəzarət altında aparılır və bunu “Baş planla parallel olaraq müfəssəl həllərin hazırlanması” proqramı təmin edir. Şuşanın Baş planında orta, yüksək və qarışıq sıxlıqlı yaşayış binalarının inşa edilməsi nəzərdə tutulduğunu deyən komitə rəsmisi layihədə şəhərdə yerləşəcək tikililərin yeri, mərtəbəliliyi, fasadlarının tarixi-memarlıq görünüşü, abidələrin yenidən qurulması və bərpası zamanı əsas götürülən qaydalar və digər vacib detallar öz əksini tapıb. İnşa ediləcək yaşayış evləri ilə bərabər, qarışıq təyinatlı ərazilərdə tikiləcək təhsil, səhiyyə ocaqları, ictimai-iaşə obyektləri və digər tikililərdə də Şuşaya xas memarlıq elementlərindən istifadə olunacaq.

Komitə təmsilçisi onu da bildirdi ki, baş planda şəhərdə ictimai dayanacaqların yerləşmə yerləri də müəyyən olunub. Həmin dayanacaqlar elə yerləşəcək ki, şəhərin küçələrinə giriş-çıxışa maneə olmasın. Bununla bağlı R.İdrisoğlu Şuşanın tarixi və qoruq şəhər statusuna malik olması faktına xüsusi diqqətin yetirildiyini də ayrıca qeyd etdi. Komitə rəsmisinin sözlərinə görə, Şuşaya gələcək turistlərin çoxluğunu nəzərə alaraq, şəhərin giriş qapıları yanında ictimai avtomobil dayanacaqlarının (parklanma yerlərinin) yaradılması nəzərdə tutulur. Bu dayanacaqlar şəhərə gələn qonaqların şəxsi avtomobillərini burada saxlayaraq rahat hərəkət etmələrini təmin edəcək. Həmçinin, yaşayış məhəllələri boyunca yeraltı və yerüstü parklanma yerləri də planlaşdırılıb.

Baş planda nəzərdə tutulan maraqlı ideyalardan biri də Şuşada hansı nəqliyyat növlərinin fəaliyyət göstərəcəyi ilə bağlıdır. Şəhərin küçələrində ictimai və fərdi nəqliyyatla yanaşı, eyni zamanda mühərriksiz nəqliyyat vasitələrinin (velosiped və s.) hərəkət edəcəyi planlaşdırılıb. Nəqliyyat məsələsinin həlli baş planın əsas tərkib hissələrindən biridir. Şuşanın coğrafi mövqeyi, mədəni-tarixi əhəmiyyəti, xüsusilə də turizm imkanları nəzərə alınaraq, bu məsələyə diqqətin daha da artırıldığını deyən R.İdrisoğlu 2040-cı ilə qədər planda nəzərdə tutulan bütün işlərin yerinə yetiriləcəyini bildirdi.

### Şuşalıların arzu və istəkləri

Şübhəsiz, tarixi Şuşanı tam əvvəlki görkəminə qaytarmaq, bütün incəlikləri ilə bərpa etmək asan məsələ deyil. Çünki 28 illik işğal dövründə erməni vandalları qala-şəhərin simasına dərin yaralar vurublar. Xüsusilə, qədim məhəllələrdəki yurd yerləri viran qoyulub, bəzi evlər daş-daş sökülərək xarabazara çevrilib. Amma tarixi Şuşa qalasının bir çox məhəlləsini, məsələn, Çöl Qalanı, Çuxur Məhəlləni, Seyidlini, Ağadədəlini, Xocamircanlını əvvəlki görkəminə qaytarmaq, həyət evlərini bərpa etmək çətin olmaz. Bunu bizə rəyini soruşduğumuz şuşalılar dedilər. Onların fikrincə, başqa məhəllələrə də (Köçərli, Saatlı, Mamayı, Dəmirçilər, Culfalar, Təzə Məhəllə, Hamamqabağı, Quyuluq, Böyük Qurdlar, Kiçik Qurdlar, Merdinli, Hacı Yusifli) eyni üsulla sığal çəkmək mümkündür. Şuşalıların ən çox dilə gətirdiyi bir istəkləri də var – tarixi Meydan bulağının əvvəlki yerində bərpası. İşğala qədər bu bulaq Yuxarı Gövhər ağa məscidinin qarşısındakı meydanda yerləşib, elə adı da buradan gəlir. 1992-ci ilin mayında düşmənin ilk uçurtduğu abidələrin biri məhz Meydan bulağı olub. 2024-cü ildə bulaq bərpa olunsa da, şəhərin başqa bir səmtində qoyulub.

İşğala məruz qalana qədər Şuşada müalicəvi əhəmiyyətli sanatoriyalar və istirahət evləri fəaliyyət göstərib. Həmin sanatoriya və istirahət evlərinin fəaliyyətinin bərpa olunması da önəmlidir. Şəhərin qəbiristanlıqlarının – Mirzə Həsən və Mir Fəseh (Cıdır düzü) məzarlıqlarının abadlaşdırılması da dini adətlərə sayğılı qalalıların təbii arzudur.



**2021-ci il mayın 12-də təməli Prezident İlham Əliyev tərəfindən qoyulan yeni məscid modern memarlıq üslubunda layihələndirilərək inşa edilir. Onun memarlıq təməlini Zəfər Gününün rəmzi olan 8 rəqəmi təşkil edir. Məscidin iki minarəsindən 11 rəqəmi “boylanacaq”. Bu, Şuşa şəhərinin və Qarabağın on birinci ayda işğaldan azad edilməsinin simvoludur. Gümbəzi mozaika ilə bəzədiləcək. Bu, İtaliyanın “Simmetrico” şirkətinin iştirakı ilə azərbaycanlı və italyan mütəxəssislərin birgə işinin nəticəsi olacaq. Yeni tikilinin fasadı Şuşanın qədim məscidinin minarələrində istifadə edilən həndəsi naxışlarla bəzədiləcək. Bu memarlıq elementi Şuşanın keçmişi ilə bu günü arasındakı əlaqəni vurğulayacaq.**



### Şuşa yenə Günəş kimi parlayacaq, Vasif müəllim

“Şuşa” qəzetinin, “Günəş” jurnalının redaktoru, “Şuşa ensiklopediyası”nın müəllifi, Qarabağın tarixi, mədəniyyəti, ədəbiyyatı və etnoqrafiyasının araşdırıcısı Vasif Quliyev işğaldan sonra qəzetə epiqraf kimi bu sözləri seçmişdi: “Şuşa bir Günəşdi, Şuşa bir Aydı, Parisə bənzərdi dağılmasaydı”. Şuşanı canından çox sevən Vasif müəllimin bu pessimist seçimini doğma yurda bir daha dönə bilməyəcəyi nisgilindən doğan hissi kimi qəbul etmək olardı. Amma artıq azad edilən və doğma sakinlərini qoynuna almağa başlayan Şuşanın yenidən gözəl günlərinə qovuşacağına heç kəsin şübhəsi yoxdur. Yəqin, Vasif müəllim özü də əmindir ki, Şuşa onun nisgilini çəkdiyi 32 il əvvəlki görkəminə mütləq qayıdacaq və yenə də Günəş kimi parlayacaq, Ay kimi bərq vuracaq.

*İmran BƏDİRXANLI*
*XQ*

# Zəfərə gedən yol

(əvvəli qəzetin ötən sayında)

Əslində, dünyanın və elə Ermənistan siyasi elitasının da o qədər əhəmiyyət vermədiyi yaxınlaşan "tufanın ilk güclü ildırımı" iyulun 12-də çaxmışdı. Həmin gün Dağlıq Qarabağdan yüzlərlə kilometr aralıda Ermənistanla Azərbaycan sərhədində toqquşmalar baş verdi və bu 2016-cı ilin aprelindən 2020-ci ilin sentyabrına qədər tərəflər arasında baş verən ən böyük hərbi insident idi. O zaman bir çox siyasətçilər, diplomatlar və ekspertlər hadisəni yerli fövqəladə hal hesab edirdilər.

Bundan dərhal sonra iyulun 15-nə keçən gecə "Qarabağ uğrunda azadlıq müharibəsi"nə başlamaq tələbi ilə Bakıda genişmiqyaslı mitinq keçirildi. O zaman Prezident İlham Əliyev mitinqə çıxanların "xoş niyyətli" olduğunu etiraf etsə də, "heç kəsə hadisələri qabaqlamamağı məsləhət gördüyünü" dedi və əlavə etdi: "Qarabağda döyüşmək istəyirəm" deyən hər kəs şəxsi məlumatlarını Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə təqdim etsin". Bəziləri Prezidentin bu sözlərindən sonra gənclərin dərhal geri çəkiləcəyini düşünürdü. Ancaq belə olmadı. Cəmi bir neçə saat sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi prezidentə bildirdi ki, artıq 4 min nəfər qeydiyyatdan keçib.

Azərbaycan cəmiyyətindəki əhval-ruhiyyə, Bakıdakı mitinqdən də göründüyü kimi, ATƏT-in Minsk qrupunun himayəsi altında aparılan danışıqlar prosesinin dalana dirənməsi və diplomatik həllə inamın itirilməsi səbəbindən getdikcə daha radikal xarakter alırdı. Müharibədən bir neçə ay əvvəl Prezident İlham Əliyev xəbərdarlıq etmişdi: "Biz imitasiya xatirinə danışıqlar aparmaq, mənasız videokonfranslar keçirmək niyyətində deyilik. Hər şeyin bir mənası olmalıdır. Danışıqlar mahiyyəti üzrə aparılmalıdır. Onların mənasız olduğunu görsək, müvafiq addımlar atacağıq".

İyunun 15-nə keçən gecə Bakıda keçirilən mitinq həm də artıq xalqın da torpaqların azad edilməsi uğrunda müharibəyə hazır olduğunun nümayişi idi və bu, ölkə rəhbərinin daha qətiyyətlə hücum əmri verməsinə güclü bir dəstək oldu.

27 sentyabr 2020-ci il səhər saat altı radələrində ikinci Qarabağ müharibəsinin ilk atəşləri açıldı. Bazar günü gecə Ermənistan qoşunları bütün təmas xətti boyunca atəş açıb 14 mülki şəxsi yaralayandan dərhal sonra, Ali Baş Komandan İlham Əliyevin əmri ilə Azərbaycan Ordusu atışmaların qarşısını almaq üçün irimiqyaslı hücuma başladı. Konturları çoxdan çızılıb hazırlanmış "Dəmir yumruq" əməliyyatı coğrafi baxımdan bir-birindən ayrı bir neçə ərazidə eyni vaxtda həyata keçirilirdi. Mexanikləşdirilmiş döyüş qruplarına artilleriya və pilotsuz uçuş aparatları dəstək verirdi. Analitiklərin bir çoxu ilk saatlardan dərk etməyə başladı ki, bu hücum artıq improvizəyə və ya Azərbaycan rəhbərliyinin qəfil emosional qərarına əsla bənzəmir. Bu, həqiqətən, belə idi.

Bakı Moskvanın və Qərbin çoxsaylı atəşkəs çağırışlarına heç bir məhəl qoymadan öz ərazilərinin azad edilməsi uğrunda həlledici müharibəyə başladı və bütün silahlarından atəş açaraq Zəfər zirvəsinə doğru yola çıxdı.

Azərbaycanın müasir döyüş sursatlarının və bütün növ hərbi texnikanın alınmasına qoyduğu sərmayələr 44 günlük müharibədə artıqlaması ilə özünü doğrultdu: artıq əməliyyatın birinci mərhələsində Azərbaycan Silahlı Qüvvələri düşmənin zirehli döyüş maşınlarının, artilleriya atəş gücünün və hərbi hava hücumundan müdafiə vasitələrinin əhəmiyyətli hissəsini məhv edib sıradan çıxardı və bu da Ermənistanın müdafiə xətlərini daha az itki ilə yarmağa və sürətli irəliləyişə imkan verdi. Bundan əlavə, kəşfiyyat-atəş (kəşfiyyat-zərbə) konturlarından səmərəli istifadə erməni komandanlığının müdafiənin dərinliklərində canlı qüvvə və hərbi vasitələrin manevr etməsini xeyli çətinləşdirdi və müəyyən vaxtdan etibarən açıq-aydın Ermənistan qoşunlarının mənəvi-psixoloji vəziyyətinə ciddi təsir göstərməyə başladı. Zirehli maşınlara qoyulan investisiyalar da eyni dərəcədə effektiv oldu, düşmən müdafiəsinin əsas xəttinin dağıdılmasını və əməliyyatların taktiki müvəffəqiyyətinin genişlənməsini təmin etdi.

İlk günlərdən sonra aydın oldu ki, bu, müntəzəm kütləvi ordular tərəfindən aparılan müharibənin çox nadir nümunəsidir. XX əsrin sovet tipli müdafiəsinə qarşı XXI əsrin əvvəllərində yüksək dəqiqlikli Qərb silahlarından istifadənin nəticələri və nəhayət, xarici kontekstin köklü şəkildə dəyişməsi Ermənistanla Azərbaycan arasındakı qarşıdurmanı yerli müstəvidən qlobal kateqoriyaya keçirdi. Hər şey proqnozlaşdırıla bilən idi.

Münaqişənin ilk saatlarında Azərbaycan Ordusu düşmənin ön xəttinin hava hücumundan müdafiəsinin dəf edilməsi istiqamətində uğurlu əməliyyat keçirdi. Ermənistanın olduqca köhnəlmiş hava hücumundan müdafiə sistemləri və digər müdafiə qurğuları uzaq mənzilli MLRS ilə birlikdə işləyən zərbə və kəşfiyyat PUA-larının kütləvi istifadəsi qarşısında aciz qaldı.

Qondarma "Dağlıq Qarabağ təhlükəsizlik şurası"nın katibi Samvel Babayanın sözlərinə görə, "münaqişənin ilk dəqiqələrində qondarma "dqr müdafiə ordusu"





hava hücumundan müdafiə sistemlərinin yarısını (daha etibarlı mənbələrə görə 60 faizini – M.S.) və artilleriyasının 40 faizini itirib".

Münaqişənin ikinci günü, sentyabrın 29-u səhər saatlarında Ermənistan HHQ-yə məxsus Su-25 döyüş təyyarəsi tapşırığı yerinə yetirməmiş vuruldu. Bu müharibədə pilotlu təyyarələrdən fərqli olaraq, İkinci Qarabağ müharibəsinin əsl ulduzları İsrailin "Harop" zərbə PUA-ları və Türkiyənin "Bayraktar TB2" kəşfiyyat və hücum pilotsuz uçuş aparatı idi. Erməni silahlı qüvvələrinin kiçik ölçülü, aşağı sürətli hədəflərə qarşı effektiv mübarizə aparan hava hücumundan müdafiə vasitələri olmadığı üçün, pilotsuz uçuş aparatları havada dominant qüvvəyə çevrildi və təkcə kəşfiyyat və atəşin tənzimlənməsi üçün deyil, həm də Ermənistanın hərbi texnikasının birbaşa məhv edilməsi üçün ən vacib vasitə oldu. Azərbaycan Ordusunun döyüş qabiliyyəti hərbi strateqləri belə heyrətə salırdı, çünki bu, XXI əsrin yeni texnoloji müharibəsi idi və dünya hələ belə bir müharibənin şahidi olmamışdı.

İkinci Qarabağ müharibəsi zamanı dünya iki nizami ordunun döyüşündə, o cümlədən, dağlıq və meşəlik ərazilərdə PUA-lardan və idarəolunan döyüş sursatlarından geniş istifadə edildiyinin şahidi oldu. Ermənistanın hava hücumundan müdafiə sisteminin elementlərinə, o cümlədən, kifayət qədər müasir sistemlərə malik olmasına baxmayaraq, onlar nəinki qoşunları effektiv müdafiə edə bildi, PUA-ların və idarəolunan sursatların koordinasiya edilmiş uğurlu həmlələri sayəsində sıxışdırılıb məhv edildi. Faktiki olaraq, Ermənistan silahlı qüvvələri Azərbaycanın pilotsuz döyüş vasitələrinin sistemli təzyiqinə tab gətirə bilmədi. Nəticədə, müharibənin ikinci həftəsinin sonuna yaxın Azərbaycanın PUA-ları, sözün əsl mənasında, hər bir atəş nöqtəsinin, hər bir zirehli texnikanın, erməni döyüşçülərinin hər bir qrupunun ovuna başladı. Bu, nəinki erməni tərəfinin ağır itkilərinə, həm də şəxsi heyətin ciddi ruh düşkünlüyünə gətirib çıxardı.

Oktyabrın 12-dən etibarən Azərbaycan Ordusunun döyüş briqadalarından biri ələ keçirilmiş mühüm yol qovşağı olan Hadrutdan döyüşə atıldı. Bu vaxtlarda Azərbaycan 12 xüsusi təyinatlı dəstəsi buradan Şuşa istiqamətinə, eyni sayda dəstə də Füzuli rayon mərkəzinə gedən yoldan hücuma başladı. Onlar sürətlə strateji yüksəklikləri və kəndləri tutur, arxalarından isə cinahların təhlükəsizliyini təmin edən və əraziyə nəzarəti möhkəmləndirən iki motoatıcı briqada hərəkət edirdi. Məhz bu iki istiqamətdə həyata keçirilən sürətli hücumlarda əldə edilən uğurlar döyüşlərin bütün sonrakı gedişatını müəyyənləşdirdi.

Oktyabrın 14–15-də əsas döyüş əməliyyatları Füzuli ətrafında cərəyan edirdi. İlk günlərdə düşmənin mərkəzdəki möhkəmləndirilmiş müdafiə istehkamlarına edilən üzbəüz hücum uğursuz olmuşdu. Amma indi Azərbaycan qoşunları bu istehkamlara arxadan yaxınlaşırdı. Onlara doğru geri çəkilən erməni silahlı birləşmələrinin qalıqları xüsusi təyinatlıların pusqularına düşüb böyük itki verir və təslim olurdular.

Oktyabrın 20-də Araz çayı boyu irəliləyən Azərbaycan Ordusu qondarma "dqr"-in nəzarətində olan ərazilərdən keçərək bilavasitə Ermənistan sərhədinə çatdı. Azərbaycan qoşun hissələri hücumu davam etdirsəydilər, bu, Ermənistan ərazisindən Naxçıvan Muxtar Respublikasına dəhliz açmaq fürsəti verirdi. Lakin




Azərbaycan qoşunları sərhədi keçməyib Qarabağın dağətəyi ərazilərini və çay boyu dərələri təmizləməyə başladı. İki gün sonra, oktyabrın 22-də Prezident İlham Əliyev Azərbaycanın İranla bütün sərhədini tam nəzarətə götürdüyünü bəyan etdi.

Artıq oktyabrın 29-da Dağlıq Qarabağın qondarma rejimi etiraf etməyə məcbur oldu ki, "birbaşa Şuşa yaxınlığında, ondan 5 kilometr aralıdakı yaşayış məntəqələri uğrunda ağır döyüşlər gedir. Şuşaya zərbə nəinki Xankəndini təhlükə altında qoyurdu, həm də o zaman qondarma respublikanı Ermənistandan təmin edən əsas damarı–Gorus–Laçın–Şuşa–Xankəndi yolunu və Laçın dəhlizini bağlayırdı. Azərbaycanın burada uğur qazanması isə Ermənistan üçün müharibədə fəlakətli məğlubiyyətə bərabər idi.

Noyabrın 5-dən Şuşa uğrunda şiddətli döyüşlər başladı. Azərbaycan xüsusi təyinatlıları bu şəhərin xilası üçün nəfəs dərmədən döyüşürdülər. Artilleriya bu qüvvələrə dəstək verə bilmədiyindən, zərbələr uzaq mənzilli MLRS və PUA-lar tərəfindən həyata keçirilirdi. 90-cı illərdə tərifi yerə-göyə sığmayan erməni ordusu Xankəndi yaxınlığında daha yüngül minaatanlarla, müasir tank əleyhinə raketlərlə belə heç bir müqavimət göstərə bilmirdi.

Həmin ərəfədə "BBC"-yə başılovlu müsahibə verən Ermənistan İctimai radiosunun keçmiş rəhbəri Mark Gevorkyan deyirdi: "Şuşa bütün Qarabağın açarıdır. Bu, birinci müharibə zamanı da belə idi, indi də belədir. Lakin o zamanlar silahların səviyyəsi tamamilə fərqli idi". Başqa necə ola bilərdi?! Siz nə gözləyirdiniz, Azərbaycan 1990-cı illərin ölkəsi olaraq qalacaqdımı?!...

Noyabrın 7-də Şuşa artıq Azərbaycan qoşunlarının tam nəzarəti altında idi və birləşmiş erməni dəstələrinin əks-hücum cəhdləri heç bir nəticə vermirdi. Döyüşün yekun akkordu Şuşa–Laçın yolunda əks-hücuma keçən erməni ordusunun böyük dəstələrindən birinin darmadağın olunması, əksəriyyətinin məhv edilməsi və bir qisminin əsir düşməsi ilə başa çatdı.

Noyabrın 8-nə keçən gecədən başlayaraq bütün Azərbaycan bu müjdəni öz Ali Baş Komandanı cənab İlham Əliyevdən eşitmək üçün gözlərini televiziya ekranlarına dikmişdi. Budur, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib xoş xəbəri ilk olaraq onun ruhuna çatdırırlar. Sonra isə canını bu torpaqlar uğrunda qurban vermiş və hələ də ruhları sərgərdan olan Azərbaycan oğullarının uyuduğu Şəhidlər xiyabanına gəldilər. Ali Baş Komandan qürur və bir qədər də kövrək səslə deyir: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir!"

Çıxışının sonunda sanki bu Zəfər xəbərinin onun üçün nə qədər mühüm olduğunu təkrar dilə gətirərək nitqini bu sözlərlə bitirir: "Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir. Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq!"

*

Beləliklə, 44 gün davam edən İkinci Qarabağ müharibəsi Ermənistanın ağır, sarsıdıcı məğlubiyyəti ilə başa çatdı. Döyüş meydanındakı bu ağır məğlubiyyətdən sonra Ermənistan hakimiyyəti Rusiya Federasiyasının zəmanəti ilə faktiki olaraq Azərbaycana təslim olmaq məcburiyyətində qaldı. Nəticədə nəinki 26 ildən artıq işğal altında olan Dağlıq Qarabağ ətrafındakı Azərbaycanın bütün əraziləri azad edildi, həm də Dağlıq Qarabağın, sovet dövrünün muxtariyyəti hüdudları daxilindəki əhəmiyyətli bir hissəsi, o cümlədən, Qarabağın ikinci mühüm şəhəri Şuşa öz əzəli sahibinə qayıtdı.

Azərbaycanın 44 günlük müharibədə Ermənistan üzərindəki bu Zəfəri nüvə silahına malik olmayan, lakin öz milli maraqlarını təmin etmək üçün aydın xarici siyasət hədəfi müəyyən edən, böyük iradə və qətiyyətə sahib "orta regional gücün" – Azərbaycan dövlətinin imkan və resurslarını aydın göstərdi.

İkinci Qarabağ müharibəsi Azərbaycanın Qələbəsi ilə başa çatsa da, münaqişəyə son qoyulmadı. Bakı bu zəfərdən dərhal sonra xəbərdarlıq etdi ki, Qarabağ erməniləri Azərbaycanın dövlət sisteminə tam inteqrasiya ilə barışmalıdırlar, onlar üçün heç bir muxtariyyətdən söhbət belə gedə bilməz. Buna baxmayaraq, Ermənistan revanşizm meyillərindən əl çəkməyib təxribatlarını davam etdirirdi. 2023-cü il sentyabrın 2-də baş nazir Nikol Paşinyan qondarma "Dağlıq Qarabağın müstəqillik bəyannaməsi"nin "ildönümü" ilə əlaqədar separatçı rejimə təbrik müraciəti ünvanladı. Sentyabrın 9-da Azərbaycanın Qarabağ bölgəsində qondarma "prezident seçkiləri" keçirildi. Separatçı qüvvələrin yeni bir hakimiyyət formalaşdırmaq cəhdləri və qeyri-qanuni silahlı dəstələrə maddi-siyasi dəstək verilməsi Ermənistanın daha böyük hərbi təxribatlara hazırlaşdığını göstərirdi. Beləliklə, özündə kapitulyasiya aktını ehtiva edən üçtərəfli Bəyanatın imzalandığı vaxtdan üç il keçməsinə baxmayaraq, davam edən təxribatlar və terror aktları antiterror əməliyyatının keçirilməsini labüd edirdi.

2023-cü il sentyabrın 19–20-də Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin əmri ilə lokal xarakterli antiterror tədbirlərinə başladı və 23 saat davam edən əməliyyat nəticəsində ölkənin ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev 2023-cü il Xankəndidə keçirilən Zəfər paradında bu əməliyyatın labüdlüyünü çox sərrast və dürüst əsaslandıraraq dedi: "Bir dəfə demişdim ki, Şuşasız bizim işimiz yarımçıq olacaq. Ancaq hələ o vaxt mən bilirdim ki, Xankəndisiz, Xocalısız bizim işimiz yarımçıq qalacaq".

**Var olun, cənab Ali Baş Komandan! Siz 26 il sonra 100 il əvvəl hegemon dövlətlərin Azərbaycana qarşı çıxardığı daha bir ədalətsiz hökmü də dərin ağlınız, iti zəkanız, polad qətiyyətiniz və cəsarətinizlə tarixin zibilliyinə atıb, ərazi bütövlüyümüzü bərpa etdiniz. Azərbaycan var olduğu qədər Sizi xariqüladə xidmətinizi və xalqımızın qürur və ləyaqətini özünə qaytaran Zəfərinizi unutmayacaq!**

**Qarabağ Azərbaycandır!**

***Məhərrəm SƏFƏRLİ,***
***Həsən bəy Zərdabi mükafatçısı***

## Zəfər marafonunun 43 və 44-cü günləri

# Vətən müharibəsinin xronikası: 8–9 noyabr

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Şanlı Vətən müharibəsi otuzillik işğala son qoyan parlaq Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

• Noyabrın 8-də Şuşanın azad edilməsi başa çatıb.

• Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərinin işğaldan azad olunması münasibətlə Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət ediblər.

• Dövlətimizin başçısı, müzəffər Ali Baş Komandan Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciət edib.

• Ali Baş Komandan Şuşanın işğalçılardan azad olunması münasibətilə Hikmət Mirzəyevə, qala-şəhərin xilasında qəhrəmancasına və rəşadətlə iştirak etmiş hərbi qulluqçulara, silahlı qüvvələrimizin bütün şəxsi heyətinə təbriklərini çatdırıb. General-leytenant Hikmət Mirzəyev şəxsi heyət adından Ali Baş Komandana dərin təşəkkürünü ifadə edib. O, Ali Baş Komandanın əmrlərini yerinə yetirmək və etimadını doğrultmaq üçün şəxsi heyətin hər zaman hazır olduğunu bildirib.

• Prezident İlham Əliyev Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunu və milli müdafiə naziri Hulusi Akarı qəbul edib. Dövlətimizin başçısı qonaqları salamlayaraq deyib: “Bu gün xalqımız üçün çox əziz bir gündür, tarixi bir gündür. Bu gün Şuşa şəhərinin azad edilməsi günüdür. Belə bir gündə bizimlə bərabər olmağınız xüsusi önəm daşıyır. Bu, növbəti qardaşlıq nümunəsidir, növbəti qardaşlıq təzahürüdür. Hər zaman olduğu kimi, yaxşı günlərdə də, ağır günlərdə də biz bir yerdəyik. Bu hadisə bir daha onu göstərir ki, bizim xalqlarımız bir-birinə nə qədər yaxındır, Türkiyə və Azərbaycan bir-birinə nə qədər doğmadır.

Türkiyənin Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan son bir ay ərzində, ondan da çox bir müddət ərzində Azərbaycana dəfələrlə öz dəstəyini göstərmişdir, öz açıq ifadələri ilə siyasi, mənəvi dəstək verməklə bizə əlavə güc vermişdir. Eyni zamanda, siz – hörmətli müdafiə naziri, bizim digər qardaşlarımız dəfələrlə Azərbaycanın yanında olduğunuzu qeyd edirdiniz. Bildirirdiniz ki, Türkiyə Azərbaycanın yanındadır. Əlbəttə ki, bu açıqlamalar, bu siyasi və mənəvi dəstək bu münaqişənin həlli üçün də önəmli rol oynamışdır”.

• Birinci vitse-prezident Mehriban xanım Əliyeva Şuşa şəhərinin işğaldan azad olunması münasibətilə “Instagram” səhifəsində tarixi qələbə ilə bağlı paylaşım edib. Paylaşımda vurğulanıb: “Bu anlarda bütün xalqımız təsvirəgəlməz qürur və sevinc hissləri keçirir! Şuşa işğaldan azad edilib! Bu münasibətlə bütün həmvətənlərimizə səmimi təbriklərimi çatdırıram!

İllər boyu davam etmiş kədər, həsrət, faciəli hadisələrdən sonra tarixi ədalət bərpa olunur! Vətənimizi müdafiə edən və əzəli Azərbaycan torpaqlarını işğaldan azad edən qəhrəmanlar nəslinin bugünkü igidlikləri Azərbaycan tarixinə əbədi daxil olacaq və hər birimizin yaddaşında həmişəlik qalacaq!

Azərbaycan torpaqlarının hər qarışının azad edilməsi bizim rəşadətli əsgərlərimizin qəhrəmanlığı və igidliyi, dözümlülüyü və qələbə əzmi sayəsində mümkün olur! Vətən naminə canlarından keçmiş şəhidlərimizə Allah rəhmət eləsin!

Əziz qardaşlar və bacılar!

Biz Şuşamızı qaytardıq! Bu əlamətdar tarixi hadisə münasibətilə hamınızı bir daha təbrik edirəm. Qoy bizim bütün uğurlarımızın və nailiyyətlərimizin, bütün qələbələrimizin qarantı olan xalq–Prezident birliyi günbəgün möhkəmlənsin! Bu gün məhz bu birlik Azərbaycanın öz gücünü nümayiş etdirməsinə imkan yaradır! Milli həmrəylik, xalqın etimadı, inamı və dəstəyi sayəsində bizim Prezidentimiz bütün mürəkkəb məsələlərin öhdəsindən uğurla gəlməyi bacarır! Qoy Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Şuşa bizimdir! Qarabağ Azərbaycandır!”.

• Noyabrın 7-si gün ərzində və 8-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildirilib ki, döyüş əməliyyatları müxtəlif intensivlikdə əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. Sutka ərzində cəbhənin əsas istiqamətlərində düşmənə ciddi zərbələr vurulub. Cəbhənin bəzi sahələrində düşmən şəxsi heyət və hərbi texnika sarıdan itkilər verərək geri çəkilməyə məcbur edilib.

Cəbhədə müqavimət göstərə bilməyən düşmən çıxış yolunu dinc əhalini və mülki infrastrukturu atəşə tutmaqda görür. Keçən gün ərzində Ermənistan silahlı qüvvələri bölmələrinin Tərtər, Bərdə, Ağdam, Ağcabədi və Qubadlı rayonlarının kəndlərini artilleriya atəşinə tutması nəticəsində dinc sakinlər arasında ölən və xəsarət alanlar var, mülki infrastruktura ziyan dəyib. Azərbaycan Ordusunun gördüyü cavab tədbirləri yalnız düşmənin legitim hərbi hədəflərinə qarşı olub.

Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 4 ədəd T-72 tankı, 2 ədəd D-20 topu və döyüş sursatı ilə dolu bir neçə hərbi yük avtomobili məhv edilib və sıradan çıxarılıb. Hazırda döyüş əməliyyatları davam edir. Əməliyyat şəraiti qoşunlarımızın nəzarəti altındadır.

• Cəbhənin Xocavənd istiqamətində düşmənin yüksək vəzifəli şəxsləri məhv edilib. Xocavənd istiqamətində Ermənistan silahlı qüvvələrinin ön idarəetmə məntəqəsinə hava zərbələri endirilib. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

• Cəbhənin Xocavənd istiqamətində düşmən bəzi mövqeləri ataraq qaçır. Bu istiqamətdə Ermənistan silahlı qüvvələri ciddi itkilər verir.

• Xalqımız Şuşanın azad olunmasını böyük coşqu ilə qeyd edir.

• İşğaldan azad edilmiş Zəngilan rayonu ərazisindəki “Məmmədbəyli”, “Şərifan”, “Muğanlı”, “Tiri” və “Mincivan” sərhəd zastavaları üzərində 9 noyabr – Bayraq Günü ərəfəsində Azərbaycan Respublikasının dövlət bayrağı ucaldılıb və bu sərhəd zastavaları xidməti-döyüş fəaliyyətinə başlayıblar.

Bu münasibətlə təşkil olunan mərasimdə Azərbaycanın dövlət himni səsləndirilib, şəhidlərimizin xatirəsi yad edilib. Bildirilib ki, Azərbaycan–İran dövlət sərhədinin 132 kilometrlik hissəsinin işğaldan azad edilməsi Azərbaycan Respublikasının dövlət sərhədlərinin təhlükəsizliyinin təminatı üçün son dərəcə vacib hadisə olub və hər bir Azərbaycan sərhədçisi tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanıb.

Prezident İlham Əliyevin oktyabrın 19-da Xudafərin körpüsündə Azərbaycan bayrağının qaldırılması və Dövlət Sərhəd Xidmətinin (DSX) iştirakı ilə bir neçə yaşayış məntəqəsinin azad olunması münasibətilə DSX-nin şəxsi heyətini təbrik etməsi, oktyabrın 22-də isə Azərbaycan–İran dövlət sərhədinin tam nəzarətə götürülməsinin təmin olunması münasibətilə bütün Azərbaycan xalqını təbrik etməsi dövlət sərhədlərinin mühafizəsi məsələlərinə müzəffər Ali Baş Komandan səviyyəsində verilən böyük önəmin xüsusi ifadəsi olub.

Qeyd olunub ki, sentyabrın 27-dən bu günədək işğal altında olan 218 kənd və qəsəbənin, Cəbrayıl, Zəngilan, Füzuli, Qubadlı şəhərlərinin, bu gün isə Şuşa şəhərinin düşmən tapdağından azad edilməsinin Müzəffər Ali Baş Komandanı olan Azərbaycan Silahlı Qüvvələrinin, Qüdrətli Prezidenti olan Azərbaycan dövlətinin, müdrik və qətiyyətli lideri olan Azərbaycan xalqının böyük qələbəsi olması xüsusi vurğulanıb. Mərasimdə Prezident İlham Əliyevin Ali Baş Komandanlığı altında ən yaxın müddətdə dövlət bayrağımızın işğaldan azad ediləcək bütün ərazilərdə dalğalanacağına əminlik ifadə olunub.

• 9 noyabrda Müzəffər Azərbaycan Ordusu Füzulinin Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Xocalının Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Xocavəndin Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Cəbrayılın Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qubadlının Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Zəngilanın Keçikli, Ördəkli kəndlərini işğaldan azad edib. Bu barədə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev özünün tviter hesabında bildirib.

• Daha 48 kənd, 1 qəsəbə və 8 strateji yüksəklik işğaldan azad edilib. Bu barədə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev özünün tviter hesabında məlumat verib.

• Prezident İlham Əliyev “BBC News”a müsahibə verib.

• Cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivlikdə davam edib. Sutka ərzində cəbhənin əsas istiqamətlərində düşmənə ciddi zərbələr vurulub. Çoxlu itkilər verən işğalçı ordu geri çəkilməyə məcbur edilib. Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, bir ədəd T-72 tankı, bir ədəd D-30 topu, bir minaatan heyəti, döyüş sursatı ilə dolu bir hərbi yük avtomobili sıradan çıxarılıb.

• Laçın–Şuşa yolu üzərindəki Zarıslı kəndi yaxınlığında bölmələrimizə hücum etməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinin bir tankı və bir piyada döyüş maşını vurulub. Xocalı-Şuşa yolu ilə Xankəndi istiqamətində hərəkət edən Ermənistan silahlı qüvvələrinin canlı qüvvə ilə dolu qoşqusunda D-30 topu olan yük maşını zərbə PUA-ları ilə məhv edilib.

• Xocavənd istiqamətində düşmənin mövqelərinə artilleriya zərbələri endirilir.

• Cəbhənin Xocavənd istiqamətində düşmənin “Tor-M2KM” zenit-raket kompleksi, atəş mövqeyinə çıxarılan “Osa” zenit-raket kompleksi, eləcə də canlı qüvvəsi bölmələrimizin dəqiq atəşi ilə məhv edilib.

• Ermənistanın təxribatları nəticəsində sentyabrın 27-dən noyabrın 9-dək 93 mülki şəxs həlak olub, 407 nəfər xəsarət alıb, 3326 ev, 120 çoxmənzilli yaşayış binası və 504 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

• Noyabrın 10-na keçən gecə Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə Bəyanat imzaladılar. Bununla bağlı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciət etdi.

Bəyanata əsasən, noyabrın 20-də Ağdam rayonunun işğal altında olan hissəsi, noyabrın 25-də Kəlbəcər rayonu, dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verildi.





***

Xronikanın əvvəlində dövlətimizin başçısı, müzəffər Ali Baş Komandan İlham Əliyevin noyabrın 8-də Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciət etdiyini xatırlatdıq. Azərbaycan Prezidenti həmin müraciətində deyib: “Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm.

İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox. Mən dəfələrlə demişəm, bütün bəyanatlara rəğmən ki, bu münaqişənin – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hərbi həll yolları da vardır və bu gün biz bunu döyüş meydanında sübut edirik”.

30 ilə yaxın bir dövrdə aparılan danışıqlarla Azərbaycanın heç bir nəticə əldə etmədiyini, bu müddətdə əzəli tarixi torpaqlarımızın işğal altında saxlanıldığını, uzun zaman ərzində Ermənistanın, sadəcə olaraq, vaxt udmaq, status-kvonu möhkəmləndirmək, əbədi etmək istəyinin sirr olmadığını vurğulayan Prezident İlham Əliyev bildirib ki, ötən illərdə Azərbaycana müxtəlif güc mərkəzlərindən dəfələrlə göndərilən siqnallar bizi vəziyyətlə barışdırmaq məqsədi daşıyıb: “Ancaq biz qətiyyət, cəsarət, siyasi iradə göstərərək Azərbaycan xalqının maraqlarına cavab verməyən heç bir razılaşmaya getmədik. Mən dəfələrlə bütün beynəlxalq kürsülərdən bəyan etmişdim ki, torpaqlarımızın, ərazi bütövlüyümüzün bərpa edilməsi bizim əsas vəzifəmizdir və biz bu vəzifəni icra edirik. Danışıqlar heç bir nəticə vermədi. Sadəcə olaraq, bizim başımızı aldadırdılar, sadəcə olaraq, məsələni dondurmaq istəyi müşahidə olunurdu. Biz bu Qələbəni döyüş meydanında qazandıq, şəhidlər verərək bu Qələbəni qazandıq…”.

Yeri gəlmişkən, Şuşa haqqında yazılarımın birində qeyd etmişəm ki, bu əzəli-əbədi qala şəhərimiz işğal edildiyi gündən – 1992-ci il mayın 9-dan ta xilas gününədək heç kimdə onun nə vaxtsa yağı tapdağından xilas olunacağına şübhə yox idi. Hamıda o günün nə vaxtsa gələcəyinə, doğma Qarabağımızın “döyünən ürəyinin” düşməndən təmizlənəcəyinə qəti əminlik var idi. Bu inamı Azərbaycan Ali Baş Komandanı İlham Əliyevin qətiyyəti sayəsində ordumuzun gündən-günə artan güc-qüdrəti yaratmışdı.

2020-ci il sentyabrın 27-də başlayan əks-həmlə əməliyyatları ilə silahlı qüvvələrimiz addım-addım ùuşaya yaxınlaşırdı, bu, dövlətimizin başçısının dediyi kimi, uğura bir nəfəs qədər yaxın olduğumuzdan xəbər verirdi, Prezident İlham Əliyevin o zaman Türkiyə mətbuatına verdiyi müsahibələrin birində “Şuşa azad edilmədən bu əməliyyat tamamlanmış sayılmaz, yarımçıq qalar” – söyləməsi də bu qələbəyə, uğura yönələn ümid və əminliyimizi daha da artırırdı.

Nəhayət, o gün gəldi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də xalqımızı Şuşanın işğaldan azad edilməsi münasibətilə təbrik edərək dedi: “Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi. Şuşa bizimdir. Qarabağ bizimdir. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm.

İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi, Şuşa indi azaddır. Biz Şuşaya qayıtmışıq. Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür”.

Dövlətimizin başçısı müraciətində həm də xalqa Şuşanın işğaldan azad edilməsi müjdəsini verməsini həyatında bəlkə də ən xoşbəxt günlərindən biri olduğunu bildirdi: “Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim,xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik. Bu, böyük Qələbədir. Şəhidlərimizin, ulu öndərin ruhu şaddır bu gün. Gözün aydın olsun Azərbaycan. Gözünüz aydınolsun dünya azərbaycanlıları”.

***

Erməni faşizmi Şuşanın işğalı illərində havadarlarına arxalanaraq sülh danışıqlarından, tapdaq altında saxladığı torpaqları azad etməkdən boyun qaçırdı. Bununla kifayətlənməyib, “Qarabağın döyünən ürəyi”, “musiqi və incəsənət beşiyi” olan Şuşanı gələcəkdə, hətta oyuncaq “dqr”in paytaxtı elan etmək, qondarma rejimin parlamentini bu əzəli, tarixi şəhərimizə köçürmək iddiasını səsləndirdi. Ermənistanın baş naziri Paşinyan beynəlxalq norma və qaydaları pozaraq tez-tez Şuşya gəldi, burada görüşlər keçirdi. Məsuliyyətsiz erməni baş nazir burada keyf məclisləri qurdu, separatçı rejimin nümayəndələri ilə yallı getdi, “Qarabağ Ermənistandır, nöqtə” kimi sərsəm bəyanat verdi. Düşmən bununla da Azərbaycan xalqında bir ümidsizlik yaratmaq, inadımızı qırmaq, inamımızı sarsıtmaq, sonda isə Qarabağı Ermənistana birləşdimək məqsədi güddü.

Lakin Ali Baş Komandanımızın rəhbərliyi ilə müzəffər ordumuz işğalçının bu planını alt-üst etdi, arzusunu ürəyində qoydu. Prezident İlham Əliyev Şuşanın işğaldan azad edilməsi münasibətlə Azərbaycan xalqına müraciətində 28 il yarım işğal altında saxlanılan bu şəhərin Azərbaycan tarixində xüsusi yeri olduğunu, bizim qədim, tarixi qalamızda əsrlərboyu azərbaycanlıların yaşayıb, qurub-yaratdıqlarını bildirib: “Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, bizim tarixi abidələrimizi dağıtdı, bizim məscidlərimizi dağıtdı, təhqir etdi. Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi bərpa edəcəyik, bütün məscidləri bərpa edəcəyik”.

Dövlətimizin başçısı hər zaman olduğu kimi, bu vədinə də əməl etdi. Qala-şəhər azad edilən ilk gündən erməni vəhşiliyinin ürək ağrıdan izlərini aradan qaldırmağı diqqət mərkəzində saxladı. Düşmən Şuşada, necə deyərlər, nəinki daşı-daş üstə qoymuşdu, heç olanı, qərinələrlə saxlanılanı belə qorumamışdı, daşa-torpağa düşmən münasibətini gizlətməmişdi, maddi-mədəni abidələrimizi silməyə, dağıtmağa cəhd göstərmişdi.

Şuşa işğaldan azad ediləndən dərhal sonra şəhərin yaralarına məlhəm qoyulmağa başlandı. Qala divarlarının böyük hissəsi, dahi Bülbülün ev muzeyi, Cıdır düzünə aparan tarixi daş döşəməli yollar, Molla Pənah Vaqifin məqbərəsi, Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa, Saatlı, Təzə məhəllə məscidləri, Mamayı, Xoca Mərcanlı bulaqları, Mehmandarovların malikanə kompleksi və digər tarixi-mədəni abidələr, eləcə də infrastruktur qısa müddətdə tamamlandı.

***

Şuşada genişmiqyaslı quruculuq işləri dövlətimizin başçısının tapşırığına uyğun olaraq şəhərin tarixi memarlıq xüsusiyyətlərinə uyğun şəkildə aparıldı. Qədim mədəniyyət paytaxtımızda tarixiliklə müasirliyin qovuşması diqqətdə saxlanıldı. Bütün görülən işlər, həyata keçirilən layihələrlə Şuşa şəhəri dünyanı öz gözəlliyi ilə valeh edəcəyi əvvəlki görkəminə qaytarıldı.

Şuşa indi əvvəlki xoş günlərini yaşayır, sevinc dolu sabahların ümidi ilə neçə-neçə uğura imza atır, şəhərin abadlıq-quruculuq işləri getdikcə geniş vüsət alır, buradakı müqəddəs ocaqlar, mədəniyyət və incəsənətimizin böyük simalarının ev-muzeyləri yenə də ziyarətgahlara çevrilir. Şuşa dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biri kimi keçirilən mərasimlərə evsahibliyi edir, məşhur turizm məkanı kimi şöhrət qazanır.

***

Şuşanın azad olunması Vətən müharibəsinin kulminasiyası idi. Prezident İlham Əliyev müharibənin gedişində qardaş Türkiyə mediasına müsahibəsində bəyan etmişdi ki, “işğal edilmiş torpaqların hər bir qarışı, hər bir şəhər bizim üçün doğmadır, əzizdir. Ancaq Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Şuşasız bizim işimiz yarımçıq olar”. Bu bəyanat Azərbaycan bayrağının tezliklə alınmaz qala olan Şuşada dalğalanacağının anonsu idi.

Xatırladaq ki, noyabrın 8-də qala-şəhərin işğaldan azad olunmasından sonra müharibənin taleyi həll olundu. Prezident İlham Əliyevin də bəyan etdiyi kimi, Şuşanın şəhər döyüşləri nəticəsində azad edilməsi tariximizin parlaq səhifəsidir: “Şuşa mədəniyyət ocağı kimi tanınsa da, eyni zamanda, qəhrəmanlıq, zəfər və sülh rəmzidir”.

Onu da deyək ki, noyabrın 9-dan 10-na keçən gecə dövlətimizin başçısı, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən üçtərəfli Bəyanatın imzalanması ilə hərbi əməliyyatlar dayandırıldı. Noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın Ermənistan ordusu tərəfindən boşaldıldı. 2022-ci ilin avqustun 26-da isə Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürüldü. Beləliklə, Azərbaycanın tarixində yeni inkişaf mərhələsi başlandı.

Vətən müharibəsindən sonra regionda yeni reallıqlar yarandı. Azərbaycan öz sərhədlərində möhkəmlənməyə başladı. 2023-cü il aprelin 23-də “Laçın” dövlət sərhədində buraxılış məntəqəsinin qurulması isə Şuşa zəfərindən sonra əldə edilən ən böyük və əhəmiyyətli hərbi-siyasi qələbə kimi tarixə düşdü. Beləliklə, Azərbaycanın ərazi bütövlüyü təmin olundu. 2023-cü il sentyabrın 19-dan 20-nə keçən gecə isə üçtərəfli bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması məqsədilə Azərbaycan lokal xarakterli antiterror əməliyyatına başladı. Cəmi bir sutkadan da az davam edən əməliyyatlar nəticəsində Azərbaycan öz suverenliyini bərpa etdi. Bu, 44 günlük Vətən müharibəsinin məntiqi sonluğu idi.

***Vaqif BİNYATOĞLU***
***XQ***

# Azərbaycanlı ləyaqətinin təntənəsi

*Zəfər özü olmaq, öz mahiyyətinə varmaqdır.*

*Martin Haydegger*

### Zəfərin fəlsəfəsi haqqında

“Zəfər” anlayışını müxtəlif anlamlarda işlədirlər. O, bir mübarizə prosesinin yekununu ifadə edir. Tərəflərdən birinin qalib olmaq daxili yaşantısını əks etdirə bilir. Zəfər həm də etirafdır. Zəfər təntənədir, dünyaduyumunun tamlığıdır. Bunlardan başqa, zəfər həm də xalqın yeni dövrünün başlanğıcıdır!

Martin Haydegger zəfərin məna çalarlarından iki mühüm fəlsəfi nəticə çıxarır. Birincisi, zəfər – həyatda qalmaq kimi. İkinci, özü olmaq, “öz mahiyyətinə varmaq” kimi. Bu iki aspektin sintezində zəfər şəxsi və toplum miqyaslarında özyetərliliyinin tarixi “şəhadətnaməsidir”!

Bunları ümumiləşdirsək, belə bir fəlsəfi tezis alırıq: “Zəfər – yaddaş, mədəniyyət, sülh, humanitarlıq və insan ləyaqətinin vəhdətidir”! Yəni zəfər hər şeydən öncə, şəxsiyyətin və xalqın mənəvi dəyəridir. Bu dəyər müxtəlif mənəvi dəyərləri vahid aksioloji (əxlaqi, mənəvi, mədəni) sahədə birləşdirir. Bu da Zəfərin konkret mədəniyyətdə ümumi birliyi ifadə etdiyini göstərir! Zəfər dərin mənəvi qaynaqlara malikdir! Ona görə də zəfər xalqın məxsusi humanitar və fəlsəfi mədəniyyətinin təməlində ucalan “Qaliblik monumentidir”! Zəfər elə bir mənəviyyat abidəsidir ki, insanın gücünün və özyetərliliyinin yüksəlişinin, onun yaradıcı iradəsinin reallaşmasıdır (Fridrix Nitşe)!

### Qaliblik kompleksi

Müdriklər xəbərdar edirlər – qaliblik kompleksinin öz simptomları vardır! Onların təsiri altına düşməmək gərəkdir. Qaliblik duyğusu insanı ifrat üsyançı edə bilər. Hər şeyə etirazçı yetişə bilər. Ruhun yüksəlişi yanlış bir mövqeyə gətirib çıxara bilər ki, insan özünü hər kəsdən üstün tutmaq fikrinə düşər. Bu da hədsiz hüquq tələbi, başqalarına nisbətən xüsusi imtiyaza sahib olmaq haqqı kimi duyğular yarada bilər.

Bunlarla yanaşı, qaliblik sindromu fərd və kollektiv səviyyədə arxayınçılıq formalaşdıra bilər. Bu, tədricən təşəbbüsü əldən vermək, passivləşmək və gerçəkliyi adekvat dərk etməmək deməkdir.

Azərbaycan Prezidenti İlham Əliyev bu barədə həm xəbərdarlığını etmişdir və həm də çıxış yolunu göstərmişdir! Dövlət başçısı böyük zəfərdən arxayınlaşmamağı, bundan sonra da fəal olmağı, Vətən və dövlət üçün yorulmadan çalışmağı tövsiyə etmiş, konkret vəzifələri də göstərmişdir. Ölkənin bütün sferalarda inkişafının fəlsəfəsini açmışdır, strateji hədəfini göstərmişdir.

Qalib xalq, qalib ordu, qalib əsgər və, ümumiyyətlə, qalib azərbaycanlı çalışqan, təşəbbüskar və azərbaycançı olmaqda davam etməlidir! Zəfərin əsl mahiyyəti bunu tələb edir. Zəfər anlayışı bu mənəvi, mədəni, əxlaqi keyfiyyətlərin feili reallaşmasının qaynağı, stimullaşdırıcısıdır! Azərbaycan qaliblik kompleksinə düşmədi və heç zaman düşməyəcək!

### Böyük Zəfərə aparan yol

Bu yol 1993-cü ildən başlamışdır. Ulu öndər Heydər Əliyev “fəxr edirəm ki, mən azərbaycanlıyam” tarixi kəlamı ilə milyonlarla azərbaycanlını vahid ümumi mənəvi-mədəni və ideoloji cəbhədə səfərbər etdi. Bu səfərbərliyin strateji hədəfini də dəqiqliklə göstərdi – azərbaycançılıq!

Azərbaycanlılar fərd kimi cəmiyyət mənsubluqlarından fəxarət hissi duyaraq, azərbaycançı olmağı, Vətəni sevməyi, dövlətçiliyə sədaqətli olmağı, adət-ənənəyə, dilə, dinə sadiqliyi şüurlu surətdə qəbul edərək Zəfər yoluna çıxdılar! 2020-ci ilin payızı bu yolun ilk mərhələsinin finişi oldu. Həmin mərhələ göstərdi ki, Ulu öndərin tövsiyələri ilə azərbaycanlılar fərd və toplum miqyaslarında özlərinə qalib gəlmişlər! Son 300 ilin pessimist psixoloji baryerini aşmışlar. Azərbaycanlılar qalib gəlmək üçün lazım olan ümumi mədəni, mənəvi və ideoloji bazanı yaratmışlar! Toplum olaraq Azərbaycan dərin dövlətçilik ənənsinə malik olduğunu və onu yaddaşına silinməz surətdə həkk etdiyini təsdiq etmişdir!

### Döyüş meydanının dramatizmi

Sözün həqiqi mənasında, döyüş meydanı liderin aparıcı və Ali Baş Komandan olaraq yüksək zəkasının və iradəsinin, xalqın kollektiv kimi mübarizliyinin, ordunun bir müdafiə sistemi və azərbaycanlıların fərd olaraq savaşlarının sınaq məkanı idi. 2020-ci il sentyabrın 27-dən başlayan bu praktiki sınağın hər anı və günü dramatik proseslərlə müşayiət olunurdu. Çünki Avrasiya məkanında ilk dəfə idi ki, son 50 ildə müstəqil dövlət təkbaşına böyük güclərin havadarlıq etdiyi bir təcavüzkarla



hərbi və informasiya mübarizəsinə qalxmışdı. Azərbaycan öz lideri, xalqı, ordusu, dövlət qurumları və əsgəri ilə eyni zamanda, bir neçə istiqamətdə əsl azadlıq savaşı aparırdı. Zəfərin fəlsəfəsinin ilk şərti olan ümumxalq birliyi, ideya, mənəviyyat, Vətən və dövlət sadiqliyi bu anlarda özünü sübut etdi. Bu, Böyük Zəfərin ilk müjdəçisi idi!

Prezidentin inamlı, qətiyyətli, yüksək zəkalı fəaliyyəti, Ali Baş Komandan kimi çevik və ağıllı qərarları bütün ölkə üçün bir örnək oldu. Böyük Zəfərin manifestə çevrilməsinin mərkəzi faktoru bundan ibarətdir. Liderin bu keyfiyyələri dramatik bir dinamikaya malik hərbi mübarizədə qalib olmağın çox ciddi motivəedici qüvvəsi oldu.

İndi döyüş səhnələrini xəyalımızda bir də canlandırırıq və görürük ki, Azərbaycan əsgəri var gücü ilə savaşırdı, qəhrəmanlıq və sədaqətlilik nümunəsi göstərirdi. Bütün mübarizə müddətində bir nəfər də olsun fərarinin olmaması dünya nümunəsidir. Liderinə, ailəsinə, xalqına, Vətəninə, dövlətinə sıx bağlılıq Azərbaycan əsgərini şücaətli və fədakar etmişdir! Onun daxili fədakarlıq passonarlığı çox yüksək səviyyədə idi! Böyük Zəfərin hərb meydanındakı “qaliblik naxışları”nın memarları qəhrəman Azərbaycan əsgəri idi!

Şuşa müasir Zəfər tariximizin və yaddaşımızın ayrıca bir səhifəsi, bənzərsiz rəmzidir. Bu şəhərin azad edilməsi yalnız hərbi şücaətin nəticəsi deyildir. Burada liderin cəsarətinin, ordunun şücaəti ilə peşəkarlığının vəhdətinin, fərdi rəşadətlə kollektiv əzmkarlığın Qələbə çələngini hörməyin birliyi vardı.

Dünyanın heç bir ordusu hələ bu yüksəlişə nail ola bilməmişdir. Şuşa uğrunda savaş dünyanın hərb tarixində qalib gəlməyin yeni səhifələrinin açılmasını ifadə edir. Bu anlamda Şuşa uğrunda aparılan mübarizə dünya hərb tarixinin Zəfər manifestlərindən biridir!

Azərbaycanın Zəfər yolu zamanca 44 gündə cəmləşdirilə, rəmzi olaraq məzmunlaşdırıla bilər. Bu, faktiki olaraq 44 mərhələli yüksəliş prosesinin simvoludur. Çünki Azərbaycan Prezidentinin vurğuladığı kimi, ordu hər gün irəliləyişdə olmuşdur. Hər gün zəfərə aparan yolun bir “dayanacağıdır”. Eyni zamanda, Azərbaycanın dövlət olaraq iradəsini, azadlığını, suverenliyini əzmlə ortaya qoymasıdır.

Onu dramatik edən faktorlar sırasında kənardan Azərbaycana göstərilən təzyiq cəhdləri xüsusi yer tutur. Çünki onların miqyası və nəzərdə tutduqları təsir gücü elə səviyyədə idi ki, buna yalnız yüksək müqavimət iradəsi, azadlıq sevdası, yenilməz gücü olan dövlət sinə gərə bilərdi.

Bu sözlərin məntiqində Azərbaycan Prezidentinin o günlərdə təkbaşına həmin təzyiq cəhdlərinə, onları çatdıran informasiya orqanlarına qarşı verdiyi tarixi mücadilənin əsas məqamları yer almışdır. İlham Əliyev yorulmadan mübarizə apardı, özünün, dövlətin, xalqın, ordunun, Azərbaycan vətəndaşının haqq səsini inamla ifadə etdi. Bu məqamlar Böyük Zəfərin döyüş meydanında, diplomatiya sahəsində, informasion-psixoloji mühitində akkordları və ritmləridir. Bunlar Vətən müharibəsinin tarixi anları, gerçək fraqmentləridir!

### Yeni zəfərlərin başlanğıcı

Biz zəfərin fəlsəfəsində yalnız müharibə müddətində qazanılan qələbələr kontekstini izah etməklə kifayətlənməməliyik. Çünki bu zəfər həm də gələcək fəaliyyət üçün bir təməl, başlanğıc nöqtəsi və motivedici fenomendir. Azərbaycanın Zəfər Günü həm də gələcək zəfərlərin müjdəçisidir.

Perspektiv gələcəkdə onun əsas əlamətlərini dövlət başçısı ifadə etmişdir. Ümumi halda onu “Yeni tarixi mərhələ” adlandırsaq, zəfərlər bütün sahələrdə qazanılacaq uğurlar və nailiyyətlərin kompleks halında Azərbaycanın dövlət və cəmiyyət olaraq növbəti inkişaf mərhələsinə çıxmasının rəmzi olacaqdır.

II Qarabağ müharibəsinin Zəfər simvolu kimi psixologiyamız, şüurumuz və davranışlarımız üçün ən qiymətli töhfəsi bundan ibarətdir. Bu zəfər sonrakı zəfərlərin təməli kimi tarixi mənaya malikdir. Bu şans müharibədən qalib çıxan hər bir dövlətə qismət olmur. Azərbaycan təcrübəsinin özünəməxsusluğu onu təmin etmişdir.

### Savaşın strateji mənası

Vətən müharibəsinin strateji mənası Azərbaycan üçün faktiki şəkildə yeni tarixi mərhələnin başlanmasının əsas motivəedici faktoru olmasından qaynaqlanır. Reallıqda bizim dövlət və millət olaraq yeni tarixi mərhələyə qədəm qoymağımız ərazi bütövlüyünü və suverenliyi tam bərpa etməmiz ilə sıx bağlıdır. Əgər bu anlamda Zəfər olmasaydı, yeni tarixi mərhələ də başlamayacaqdı. Deməli, Zəfər xüsusi fenomen, hadisə və proses olaraq özündə strateji hədəfləri müəyyən etmək zərurətini də daşımaqdadır.

Müqəddəs olduğu qədər də məsulyyətli bir məqamdır. Azərbaycan dövlət və cəmiyyət olaraq elə kurs seçməli idi ki, yeni qalibiyyətlərə aparıb çıxarsın. Zəfər bu kursun əsas müddəalarını müəyyən etməyin istiqamətini göstərdi. Prezident həmin məqamları sistemli şəkildə strateji inkişafa aid olan sənədlərdə ifadə etmişdir. Onlar sosial, siyasi, iqtisadi, enerji, psixoloji, mənəvi-mədəni, əxlaqi və digər sferaları əhatə edən davamlı yeniləşmə ilə bağlıdır.

Azərbaycanın strateji hədəfi qüdrətli demokratik dövlət və yüksək rifah cəmiyyəti olmaqdan ibarətdir (strateji sənəddə bu göstərilmişdir). Deməli, 2030-cu ildə zəfərimiz qüdrətli, demokratik dövlətlə yüksək rifaha malik cəmiyyətin harmoniyası olacaqdır. Vətən müharibəsindəki Zəfərin Böyük Qayıdış, Böyük Millət Quruculuğu, Qərbi Azərbaycan məsələsinin aktuallaşdırılması, Türk Dövlətləri Təşkilatının daha da gücləndirilməsi və qlobal güclərdən birinə çevrilməsi, Naxçıvan–Şuşa–Qarabağ bəyannamələrinin vahid sistem kimi ruhunu və enerjisini reallaşdırması əzmini, qeyrətini və qürurunu yaratdığı kimi, qüdrətli dövlət və yüksək rifah cəmiyyəti də Azərbaycanın dünyanı ən inkişaf etmiş dövlətləri sırasına yüksəlişini təmin edəcəkdir! Bununla ərazi bütövlüyü və suverenliyin tam təminində yüksələn dövlət və cəmiyyət modelinə keçidin Azərbaycan nümunəsi tarixə düşəcəkdir!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

---

RƏŞİD MAHMUDOV – 95

**Milli jurnalistikamızın parlaq nümayəndələrindən biri Rəşid Mahmudovun 95 yaşı tamam olur. O, 1929-cu il noyabrın 6-da İsmayıllı rayonunun Mican kəndində müəllim ailəsində anadan olub. 1950-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) jurnalistika şöbəsinin ilk buraxılış məzunlarından biri olub. Sonrakı illərdə aspiranturanı və Bakı Ali Partiya Məktəbini bitirib. Gənclik illərində keçmiş “Kommunist” (1991-ci ildən “Xalq qəzeti”) qəzetində ədəbi işçi, şöbə müdiri, redaktor müavini vəzifələrində işləyib.**

# Görkəmli jurnalist, nüfuzlu redaktor, fəal ictimai xadim



1965-ci ildə təcrübəli jurnalist kimi Azərbaycan KP MK-da mətbuat bölməsinin müdiri vəzifəsinə irəli çəkilib, 1973-cü ildə Zaqatala Rayon Partiya Komitəsinin birinci katibi vəzifəsinə seçilib. Jurnalist-redaktor fəaliyyətini 1980-ci ildən doğma “Kommunist‖” qəzetinin redaktoru, 1987-ci ildən isə “Azərbaycan kommunisti” (“Kommunist Azerbaydjana” ) jurnalının baş redaktoru, 1988–1991-ci illərdə Azərbaycan Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsinin sədri vəzifələrində davam etdirib.

Rəşid Mahmudov fəal ictimai xadim kimi müxtəlif illərdə Azərbaycan Jurnalistlər İttifaqına və “Kitab” Cəmiyyətinə rəhbərlik edib. O, uzun illər Azərbaycan KP MK-nın üzvü, 4 çağırış respublika Ali Sovetinin deputatı və mədəniyyət daimi komissiyasının sədri seçilib. Tanınmış jurnalist və media təşkilatçısı olan Rəşid müəllim “Azərbaycan Respublikasının Əməkdar jurnalisti” fəxri adına, “Qızıl qələm”, “Ustad” media mükafatlarına, bir sıra orden və medallara layiq görülüb. Ömrünün son illərində Azərbaycan Prezidentinin fərdi təqaüdçüsü olub.

Ötən əsrin 50-ci illərindən etibarən Azərbaycan milli jurnalistikasının peşəkarlıq və milli varlığa bağlılıq baxımından inkişaf etməsinə, dövlət müstəqilliyinin bərpası uğrunda mübarizəyə yönlənməsinə layiqli xidmətlər göstərmiş qələm sahibi və mətbuat təşkilatçılarından biri də Rəşid Mahmudov olmuşdur.

Böyük bir ailədə halallıq mühitində böyüyən Rəşid Mahmudov müharibə illərinin ağrı-acılarını dadıb, uşaqlıq illərindən zəhmətə alışıb. Orta məktəbi əla qiymətlərlə bitirib, ali jurnalistika təhsili alıb. Tələbəlik illərindən istedadı, güclü yaddaşı və çalışqanlığı ilə seçilən gənc qələm sahibi maraqlı mövzularda yazıları ilə müxtəlif mətbuat orqanlarında çıxış edib. Universiteti fərqlənmə diplomu ilə bitirdikdən sonra aspiranturaya daxil olması, jurnalist tələbələrə mühazirələr oxuması, respublikanın ən nüfuzlu dövri nəşri olan “Kommunist” qəzetində çalışması Rəşid Mahmudovun peşəkar jurnalist kimi formalaşıb samballı uğurlar qazanmasında önəmli rol oynayıb.

Səriştəli ideoloji işçi kimi Rəşid Mahmudov hansı vəzifəyə göndərilibsə təşəbbüskarlığı, təşkilatçılığı ilə etimadı yüksək səviyyədə doğruldub. Hansı sahədə çalışıbsa intizamı, səmimiliyi və qayğıkeşliyi ilə seçilib. Həmişə işlədiyi kollektivlərin dərin hörmət və ehtiramını qazanıb. Ümummilli lider Heydər Əliyevin tövsiyəsi ilə Zaqatala Rayon Partiya Komitəsinin birinci katibi vəzifəsində çalışdığı illərdə Rəşid Mahmudovun rəhbər işçi və ictimai xadim kimi insanları quruculuq işlərinə səfərbər etmək bacarığı daha da yüksəlib, bir sıra uğurlarla müşayiət olunub.

Rəşid Mahmudov milli qəzetçilik, jurnalistika ənənələrinə sadiq qalan qələm sahiblərindən idi. O deyirdi: “Heç bir çətinlik əsas olmamalıdır ki, kimsə jurnalist adına ləkə gətirsin”. Xalq şairi Cabir Novruz isə Rəşid müəllimin 75 illiyinə həsr etdiyi məqalədə yazırdı: “Rəşid müəllim çox yüksək və müxtəlif vəzifələrdə işləyib, lakin o, bütün vəzifələrin zirvəsində duran – insanlıq vəzifəsinə nail olmuşdur”.

Ömrünün sonuna qədər Rəşid Mahmudovun qələmi fəaliyyətdən qalmayıb. Ahıl yaşlarında “Vətən” nəşriyyatının direktoru işləyərkən müstəqillik dövrünün bir sıra gərəkli nəşrlərinin çap olunmasında yaxından iştirak edib. Onun özünün bir çox siyasi, elmi-publisistik əsərləri, “Azərbaycan jurnalistləri”, “Müasir mətbuatımızın xarakteri”, “Hümmət” təşkilatı və onun nəşrləri”, “İnsan əməyi ilə gözəldir” adlı kitabları gənc jurnalistlərin peşəkarlığının yüksəlməsində qiymətli mənbədir. Özü isə mətbuat komitəsinə rəhbərlik edərkən müstəsna bir çətinliklə müqəddəs “Quran”ın ana dilimizdə nəşrinə və 20 Yanvar həqiqətlərini əks etdirən sənədli toplunun müxtəlif dillərdə kütləvi tirajla çapına nail olduğuna görə qürur duyurdu.

Rəşid müəllim çox sayda jurnalistin bilik-bacarığına uyğun işə qəbul edilməsində, layiqli mövqe qazanmasında, müxtəlif problemlərinin həllində fəal və xeyirxah rol oynayıb. Həmin jurnalistlərdən biri də mən olmuşam.

1969-cu ilin ürəkaçan may günləri idi. Azərbaycan Dövlət Universitetinin jurnalistika şöbəsini bitirməkdə və müvafiq bir iş axtarışında idik. Müxtəlif redaksiyalara baş vurur, istəyimizə təxmini cavablar alırdıq. Həmin günlərin birində məni dekanlığa çağırıb dedilər ki, get Mərkəzi Komitəyə, bölmə müdiri Rəşid Mahmudov səni qəbul edəcək. Getdim, Rəşid müəllimlə ilk ünsiyyətim təhsilimlə, şəxsi həyatımla əlaqədar verdiyi suallardan başladı. Sonra bir neçə dəfə də görüşdük, bilik-bacarığıma, tərbiyə və davranışıma mümkün qədər bələd oldu.

Nəhayət, Rəşid müəllimin etimadı və zəmanəti ilə o vaxtadək görünməmiş, yatsam yuxuma da girməyəsi bir hadisə baş verdi: ali məktəb auditoriyasından birbaşa Şərur rayonunda çıxan “İşıqlı yol” qəzetinə redaktor göndərildim. Bir daha xatırladıram ki, o dövrdə rayon qəzetinin redaktoru vəzifəsi Mərkəzi Komitənin nomenklaturasında idi. Yerlərdə isə raykomun plenum, çox halda həm də büro üzvü, eləcə də rayon Xalq Deputatları Sovetinin deputatı olurdu. Belə bir vəzifəyə namizəd MK-da xeyli müsahibə-sınaq, süzgəcdən keçirilir, müvafiq tələbə uyğun bilindikdə təsdiqlənirdi.

Mən 25 avqustdan bu vəzifəni sınaq müddəti ilə icra etməyə başladım. Noyabr ayında isə Bakıya çağırıldım və iyul ayının14-də Azərbaycan KP MK-nın birinci katibi seçilmiş möhtərəm Heydər Əliyev məni qəbul edərək tövsiyələrini verdi, məsul vəzifəyə təsdiq olundum. Buna hamıdan çox sevinən Rəşid müəllim oldu.

O vaxtdan 50 il keçəndən sonra düşünürəm: Görəsən, o zaman Rəşid müəllim yox, bir başqası olsaydı, adətən, yerli partiya komitələrindən məsləhət bilinən neçə-neçə namizədi bir kənara qoyub dünənki tələbəni universitet partası arxasından birbaşa rayon qəzeti redaktorluğuna məsləhət bilərdimi? Başqa birisi bu sahədə ilk cəsarətli eksperimentin, məsuliyyətli və riskli işin altına girərdimi? Çətin!..

1980-ci ildə artıq 10 ilə yaxın idi ki, “Kommunist” qəzeti redaksiyasında çalışırdım. Tale elə gətirdi ki, həmin il Rəşid Mahmudov əvvəllər müxtəlif vəzifələrdə çalışdığı bu qəzetə redaktor təyin olundu. İlk kadr dəyişikliyində yenə də öz təşəbbüsü ilə məni Quba – Xaçmaz zonası və Sumqayıt şəhəri üzrə xüsusi müxbir təyin etdi.

Rəşid müəllim ona tapşırılmış ictimai və dövlət işinə, vəzifə borcuna olduqca ciddi və məsuliyyətlə yanaşırdı. Bunu, ilk növbədə, şahidi olduğum, onun “Kommunist” qəzetinin redaktoru işlədiyi dövrdəki fəaliyyətinə əsaslanıb deyirəm. Səhər–axşam – fasilə bilmədən çalışır, gözünün yağını əridir, yazı-pozu, redaktə işi ilə dərindən məşğul olurdu. Tanıyanlar bilir ki, digər qurumlarda fəaliyyət göstərəndə də beləcə gərgin işləyib. Elə bu səbəbdən özünü gərgin zehni əməyə həddindən artıq fəda edib, gözlərinin ziyasını vaxt keçdikcə əridib.

Təcrübəli və mahir redaktor kimi Rəşid müəllim çalışardı ki, milli avanqard qəzetimiz yüz minlərlə oxucusuna layiqincə xidmət etsin, öncül mövqeyini qoruyub saxlasın. O, həm də milli təəssübkeşlik nümunəsiydi. O vaxtlar Moskva qəzetləri ermənilərin fitnəsi ilə Qarabağ məsələsini bilərəkdən qızışdıranda, daha doğrusu, qədim və əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağı qəsdən Ermənistan ərazisi kimi qələmə verəndə, Rəşid müəllim partiyalı mövqeyini bir kənara qoyaraq milli mənafeyi əsas götürdü. Redaktoru olduğu qəzetdə mərkəzin ermənipərəst jurnalistlərinə “coğrafiyadan dərs” verən tutarlı materiallar çap elədi. Əvəzində, yuxarılardan, öz “beynəlmiləlçilərimiz”dən təşəkkür yerinə, qınaq eşitdi.

Sonradan “Kommunist” qəzetindən başqa işə dəyişilsə də, onu müxtəlif tədbir və mərasimlərdə görəndə şad olur, mütləq yaxınlaşıb görüşməyi özümüzə müqəddəs borc bilirdik. Bunlar Rəşid müəllimin mənim kimi yüzlərlə jurnalistin üzərindəki haqqı-sayının yüzdən biri də deyildi. Son illər səhhəti imkan vermədiyindən evdən çıxa bilməyəndə yetirmələri, onunla bir yerdə çalışanlar, yolunun davamçıları öz ustadlarını və xeyirxahlarını unutmur, qədirbilənliklərini əsirgəmirdilər.

Rəşid müəllimin gənc jurnalistlərə göstərdiyi təmənnasız və davamlı qayğı barədə danışmağı ona görə gərəkli sayırıq ki, bugünün oxucusu bilsin: Azərbaycan jurnalistikasının indiki yüksək səviyyəyə çatmasında yurdsevər və ustad qələm sahibləri uzun illər necə fədakarlıqla çalışıblar. Rəşid Mahmudov həmin nəslin öndə gedənlərindən biri olub. Görkəmli jurnalist, nüfuzlu redaktor, fəal ictimai xadim Rəşid Mahmudov 16 ildir ki, sıralarımızda olmasa da, işıqlı xatirəsi daim qəlbimizdədir.

*Rafiq HƏSƏNOV,*
*XQ-nin sabiq əməkdaşı*




# “Qlobal oyun”da möhtəşəm Azərbaycan Zəfəri

*(əvvəli 1-ci səhifədə)*

1991-ci ildə qlobal siyasi sistemin iki qütbündən biri olan Sovet İttifaqının süqutu beynəlxalq siyasi sistemdə zəlzələ effekti yaratdı və dünyanı forma və mahiyyət etibarı ilə yeni hərbi-siyasi trasformasiyalar mərhələsinə adlatdı. Həmin illərdə çökməyə başlayan İttifaqın dağıntıları içərisindən çıxan xalqlar özlərinin dövlət müstəqilliyini bərpa etməyə və ya təsis etməyə çalışırdılar. Lakin tarixin bütün dövrlərində olduğu kimi, metropoliya mərkəzi buna yol vermək istəmirdi. Belə bir şəraitdə milli-etnik zəmində münaqişələrin yaradılması və məhz bu münaqişələr vasitəsilə əraziləri və həmin ərazilərdə yaşayan müxtəlif xalqları öz əsarətində saxlamağa davam etmək imperiya güc mərkəzi üçün yeganə “səmərəli” çıxış yolu kimi görünürdü. Məhz o zaman çökməkdə olan İttifaqın perimetri boyunca yerləşən ölkələrdə məqsədli şəkildə etnosiyasi və dini münaqişələrin alovlandırılmasına start verildi.

Cənubi Qafqazda yaşayan ermənilərin bu hadisələrdən, təxminən, 160–170 il əvvəl yerləşdiyi ərazilərini genişləndirmək arzusu və daha əvvəl mövcud olduqları Şərqi Anadoluya qarşı ərazi iddiaları irəli sürmək təşəbbüsləri bütün dünyaya məlum idi. Beləliklə, imperiya mərkəzi üçün Ermənistan – Azərbaycan münaqişəsini alovlandırmaq imkanı yaradan iki əlverişli amil artıq mövcud idi. İmperiya mərkəzində hadisələrin ehtimal olunan sonrakı inkişafı haqqında kifayət qədər aydın təsəvvür vardı. Ermənistanı Azərbaycan torpaqlarını işğal etməyə sövq etməklə hər iki ölkəni öz əlində marionet qurumlara çevirmək və heç birinin əsarətdən azad olmasına imkan verməmək imperiya mərkəzi üçün çox asan bir oyun idi.

Dünyanın digər güc mərkəzləri də bölgədə baş verənləri diqqətlə izləyir və on minlərlə insanın həyatına son qoyan, çoxsaylı şəhərləri və kəndləri viran qoyan hadisələrə birmənalı münasibət bildirməyə tələsmirdilər. Bu gün Qərb dövlətlərinin və siyasətçilərinin həmin bölgələrdə hətta iki vətəndaş arasında baş verən ən kiçik məişət insidentinə belə dərhal reaksiya verməsi fonunda vətəndaşlar üçün onların həmin illərdəki susqunluğunu başa düşmək çox çətindir. Amma Qərbin “Realpolitik” yanaşmasına yaxından bələd olan siyasi təhlilçilər bilirlər ki, o zaman hadisələrə müdaxilə etmək və Azərbaycanda, Gürcüstanda, Moldovada, Ukraynada və Rusiyanın öz ərazisində (Dağıstan, Çeçenistan, İnquşetiya) Fərqanə, Qırğızstan və s. ərazilərdə qan tökülməsinin qarşısını almaq onların məqsəd və məramlarına uyğun deyildi. O zaman Qərbin məqsədi sərhəd münaqişələrinin, etnik təmizləmə və soyqırımı cinayətlərinin, on minlərlə günahsız insan ölümlərinin qarşısını almaq deyildi. Ona görə də Qərbin siyasi gündəliyində beynəlxalq hüquq normalarına riayət olunması və insan haqlarının qorunması kimi tələblər yer almırdı. Alternativ qlobal güc mərkəzini təmsil edən kollektiv Qərb şüurlu şəkildə bu cinayətlərə göz yumur və keçmiş İttifaq ərazisində kimin kimi məhv edəcəyini müşahidə etməklə özlərinin bu ərazilərdə baş verən hadisələrdən hansı mənfəəti əldə edə biləcəkləri barədə düşünürdülər.

Cənubi Qafqaz bölgəsi Qərb neo-imperializmi üçün xüsusi strateji əhəmiyyət kəsb edirdi. Qərbin məqsədi Avropa və Asiya arasında körpü rolunu oynayan və Avrasiya miqyaslı qloballaşma proseslərində Şərqlə Qərbi bir-birinə bağlayan Cənubi Qafqaz bölgəsində yerli xalqların və dövlətlərin müqavimət gücünün tam zəifləməsini gözləmək, daha sonra bölgəyə daxil olmaq və özlərinə loyal “oyuncaq dövlətlər” yaratmaqla bütövlükdə bölgəni öz idarəçiliyi altına almaq idi. Odur ki, özünü SSRİ-nin varisi elan etmiş Yeltsin Rusiyası Qarabağ münaqişəsində nə qədər maraqlı idisə, Qərb də bu münaişənin davam etməsində bir o qədər maraqlı idi. Cənubi Qafqaz bölgəsi üzərində nəzarət məsələsində Qərb və Rusiya arasında açıq rəqabətin qlobal siyasi gündəliyə gəlişi də məhz Qarabağ münaqişəsinin başlanğıcı ilə sinxron şəkildə baş verirdi.

Odur ki, 1992-ci ildə təsis edilmiş ATƏT-in Minsk Qrupunun əsil fəaliyyəti heç də elan olunduğu kimi Ermənistan–Azərbaycan münaqişəsinin ədalətli həllinə nail olmaqdan yox, münaqişəni qeyri-müəyyən müddətə dondurmaqla hər iki ölkəni dünyanın güc mərkəzlərindən daimi asılılıq vəziyyətinə salmaq və bütövlükdə, Cənubi Qafqaz bölgəsini Afrika ölkələri kimi gələcək əsrlər ərzində hərtərəfli istismar etməkdən ibarət idi. Bu, həm Qərbin və həm də Rusiyanın maraqlarına cavab verən və bütövlükdə, Cənub Qafqaz bölgəsinə qarşı düşünülmüş “qlobal oyun” ssenarisi idi.

Bu oyunda Ermənistana da, Azərbaycana da siyasi oyunun qurbanları kimi baxılırdı. Ermənistanda və Azərbaycanda siyasi hakimiyyətə gəlmiş yeni siyasi qüvvələr isə bu oyunun nə məqsədini, nə qaydalarını, nə də bu oyundan itkisiz və ya heç olmasa az itki ilə çıxmağın yollarını anlayırdılar. Həmin illərdə Ermənistanda hakimiyyətə gəlmiş qatı millətçi və işğalçı siyasi qrup özlərinin “Böyük Ermənistan” xülyalarını gerçəkləşdirməyin bir addımlığında olduqlarına inanır, Moskvanın göstərişləri və dəstəyi ilə daha çox Azərbaycan ərazisini işğal etməyə çalışır və “Böyük Ermənistan” fantaziyalarını bir



qədər də böyüdərək artıq “dənizdən dənizə Ermənistan” yaratmaq haqqında düşünürdülər. Bölgədə baş erən hadisələrdə onlara “oyunun qurbanı” rolunun ayrıldığını heç ağıllarına belə gətirmirdilər.

Azərbaycanda 80-ci illərin, əsasən, SSRİ DTK tərəfindən nəzarət altına alınmış xalq hərakatı dalğasında siyasi hakimiyyətə yiyələnmiş qruplar da oyunun mahiyyətini dərk etmirdilər. Onlar sadəcə baş verənləri görür və hadisələrin ardınca sürünürdülər, pərdə arxasında daha yüksək səviyyədə aparılan oyundan xəbərsiz idilər. Oyun qaydaları haqqında isə, ümumiyyətlə, təsəvvürləri yox idi. Odur ki, özlərinin də anlamadığı hansısa möcüzəyə ümid edərək həm müstəqil olmaq və həm də imperiya tərəfindən ona sırınmış müharibədə qalib gəlib torpaqları azad etmək haqqında utopik şüarlar səsləndirir və vədlər verirdilər. Təxminən, iki il davam edən AXC–Müsavat hakimiyyəti vəziyyətin günbəgün, saatbasaat daha da pisləşdiyini görür, lakin nə etməyin lazım olduğunu başa düşmürdülər. Onlar da tezliklə dövlətçiliyin məhv olacağı qorxusu qarşısında xalqın tələbi ilə ölkənin müdrik siyasətçisi Heydər Əliyevi hakimiyyətə dəvət edərək ölkənin siyasi səhnəsindən uzaqlaşdılar.

Heydər Əliyev az öncə SSRİ idarəçiliyinin ən yüksək pillələrində təmsil olunmuş təcrübəli siyasətçi kimi o zaman Cənubi Qafqaz bölgəsi ətrafında ssenariləşdirilmiş oyunun mahiyyətini anlayan yeganə azərbaycanlı idi. Odur ki, ölkənin və bölgənin ən kritik dönəmində Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi Azərbaycan dövlətçiliyinin qorunub saxlanmasında və daha sonrakı dövrdə Qarabağ münaqişəsinə ədalətli son qoyulmasında əvəzsiz rol oynadı. Ulu öndər, ilk növbədə, atəşkəs haqqında razılıq əldə edərək hərbi əməliyyatların dayandırılmasına nail oldu. Daha sonra yeni dövr üçün neft strategiyasını işləyib hazırladı və dünyanın aparıcı dövlətlərini ölkənin neft-qaz sənayesinə iri həcmli sərmayələr yatırmasına nail oldu. 1994-cü ildə Azərbaycanın gələcək inkişafını və Qarabağ münaqişəsinin Azərbaycanın xeyrinə həll olunmasını təmin edəcək “Əsrin müqaviləsi” imzalandı. Ölkə iqtisadi tənəzzüldən çıxarıldı və ictimai-siyasi sabitlik tam şəkildə bərqərar olundu. Azərbaycanın sürətli inkişafı və Azərbaycan Ordusunun qurulması və gücləndilməsi istiqamətində bütün zəruri addımlar atıldı.

2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyev bütün torpaqların işğaldan azad ediləcəyinə və Azərbaycanın öz ərazi bütövlüyünü tam şəkildə bərpa edəcəyinə qətiyyətli inamını bildirdi. Bu məqsədlərə nail olmaq üçün İlham Əliyev ölkəyə rəhbərlik etdiyi bütün illərdə iqtisadi inkişafın davamlılığını və dayanıqlılığını təmin etməklə yanaşı, həm də ölkəmizin müdafiə qabiliyyətinin və ordumuzun döyüş qüdrətinin durmadan artırılması istiqamətində məqsədəyönlü fəaliyyət apardı. 17 il ərzində planlı şəkildə davam edən bu siyasət 2020-ci ilin Vətən müharibəsində bütün torpaqlarımızın işğaldan azad edilməsi və 2023-cü ilin anti-terror tədbirlərində isə ölkəmizin bütün ərazisi üzərində suveren hüquqlarımızın bərpa edilməsi ilə nəticələndi.

Bu, qeyri-adi və heç bir güc mərkəzinin gözləmədiyi bir nəticə idi. Tarixi təcrübə onu göstərir ki, ogünədək Qarabağ münaqişəsi kimi mürəkkəb və çoxtərəfli maraqların toqquşduğu bir problemin ədalətli həll presedenti yox idi. Bu presedenti məhz Azərbaycan yaratdı. Dünyanın bütün güc mərkəzləri və bütün beynəlxalq təşkilatları tərəfindən ölkəmizə və onun siyasi rəhbərliyinə qarşı nümayiş etdirilən təzyiq və təhdidlərə baxmayaraq, Azərbaycan 44 günlük Vətən müharibəsini işğala son qoyulana qədər uğurlu şəkildə davam etdirdi. 44 günlük Vətən müharibəsinin hər günü və hər saatı rəşadətli ordumuzun çoxsaylı qələbələri ilə tarixə yazıldı. Qarabağın ürəyi qədim Şuşanın düşməndən azad edilməsi əməliyyatı özünün operativ unikallığı ilə dünyanın hərb tarixinə qızıl hərflərlə yazılan ən böyük qəhrəmanlıq dastanına çevrildi. Hazırda dünyanın bütün hərb məktəblərində bütün incəlikləri ilə öyrənilən Şuşa əməliyyatı Qarabağ Zəfərimizin baş tacı oldu. Şuşanın azad edildiyi 8 Noyabr günü Azərbaycan tarixinə Zəfər günü kimi daxil oldu.

8 Noyabr Zəfəri, ilk növbədə, Azərbaycanın imperiya əsarətində olduğu son iki yüz il ərzində itirilmiş torpaqlarımızın geri alınmasının ilk parlaq nümunəsini yaratdı. Bu Zəfər hər bir azərbaycanlıda milli həmrəylik gücünün yenilməzliyinə inamı daha da möhkəmləndirdi. 8 noyabr zəfəri Azərbaycanda son 20 il ərzində aparılan düçünülmüş və balanslı siyasətin ən doğru siyasət olduğunu bir daha sübut etdi.

Bütün bunlarla yanaşı, 8 Noyabr Zəfəri beynəlxalq siyasi sistemdə son onilliklər ərzində meydana gəlmiş bir sıra ziddiyyətlərin mövcudluğunu və bu ziddiyyətlərin aradan qaldırılması üçün beynəlxalq siyasi sistemdə mühüm islahatların aparılmasına ehtiyacın olduğunu bir daha göstərdi.

8 Noyabr Zəfəri dünyanın müxtəlif bölgələrində bu günədək davam edən etno-siyasi münaqişələrin ədalətli həlli üçün nadir bir presedent yaratdı.

8 Noyabr Zəfərinin müəllifi ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında işğala və beynəlxalq təzyiqə qarşı “Dəmir Yumruq” şəkilində birləşmiş Azərbaycan xalqı oldu.

Azadlığın, müstəqilliyin və qalibiyyətin qürurunu və sevincini xalqımıza yaşadanlar isə torpaqların işğaldan azad edilməsi uğrunda canlarından keçmiş üç minə yaxın şəhidimiz oldu.

Bu Zəfər günündə bütün şəhidlərimizin xatirəsini dərin ehtiramla yad edir və onların ruhu qarşısında baş əyirik. Allah şəhdlərimizə rəhmət eləsin!

Bu ağır qarşıdurmada erməni işğalçılarına və onların arxasında gizlənən neo-imperialistlərə qalib gəlmiş Azərbaycan xalqını bu möhtəşəm qələbə günü münasibətilə təbrik edir və xalqımıza daimi sülh və əmin-amanlıq arzulayıram.

***Cavanşir FEYZİYEV,***
***Milli Məclisin deputatı,***
***fəlsəfə doktoru***

# Qələbənin əbədi öyüncü

**Noyabrın 7-də Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində 8 Noyabr Zəfər Gününə həsr olunan elmi sessiya keçirilib.**



Muzeyin direktoru, akademik Rafael Hüseynov çıxış edərək Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 gün ərzində Azərbaycan Ordusunun qazandığı tarixi Qələbədən danışıb. Vətən müharibəsində əldə olunmuş Zəfərin ordumuzun gücünün, xalqımızın birlik və həmrəyliyinin bariz təcəssümü olduğunu vurğulayıb. Bildirib ki, ərazi bütövlüyümüzün bərpa edilməsi və dövlət suverenliyimizin tam təmin edilməsi ölkə başçısının xalqımız və müstəqil dövlətimiz qarşısında müstəsna xidmətidir.

Alim qeyd edib ki, qədim və çoxəsrlik tarixə, zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqı çoxlu bayram və əlamətdar günlərə malikdir. Zəfər bayramı isə müasir Azərbaycan tarixinin ən şərəfli, şanlı tarixlərindən biridir.

Zaman-zaman xalqımıza qarşı törədilən soyqırımı və deportasiyalardan danışan alim bildirib ki, son 200 il ərzində azərbaycanlılar ermənilərin çoxsaylı zülmünə məruz qalıb. O, 1905, 1918–1920, 1948–1953-cü illərin deportasiya və soyqırımılarında azərbaycanlıların öz dədə-baba yurdlarından didərgin salındığını, qırğınlara məruz qaldığını söyləyib. 44 gün davam edən Vətən müharibəsi nəticəsində Ermənistanın işğalçılıq siyasətinə son qoyulduğunu bildirib. Qeyd edib ki, ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş Azərbaycan Ordusu indi dünyanın ən güclü orduları sırasında yer alıb.

Akademik Rafael Hüseynov vurğulayıb ki, ulu öndər Heydər Əliyevin ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycanın qlobal arenada mövqeyi daha da möhkəmlənib, eyni zamanda, ölkə başçımız beynəlxalq miqyasda dünya liderlərindən biri kimi qəbul olunur.

Çıxışının sonunda akademik Rafael Hüseynov Zəfər Gününün Azərbaycanın müasir tarixinə qızıl hərflərlə yazıldığını deyib, bu qələbəni bizlərə yaşadan qəhrəman şəhidlərimizin xatirələrinin daim uca tutulacağını vurğulayıb. O, Vətən müharibəsində qazanılmış şanlı Qələbənin dördüncü ildönümü və müstəqilliyimizin simvolu olan Dövlət Bayrağı Günü münasibətilə əməkdaşları təbrik edib.

Daha sonra muzeyin komparativistika və bədii tərcümə şöbəsinin müdiri, professor Şəfəq Əlibəyli, mədəni irs və mənbəşünaslıq şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Xatirə Başirli və muzeyin nəzdində fəaliyyət göstərən Xurşidbanu Natəvan adına Qarabağ filialının kiçik elmi işçisi Məhsəti Əhmədova Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ordumuzun qəhrəmanlığı sayəsində əldə olunan qələbənin tarixi əhəmiyyətindən danışıblar.

*Qabil YUSİFOĞLU*
*XQ*

# “Biz birlikdə güclüyük”

**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində Zəfər Gününə həsr edilən mərasim “Biz birlikdə güclüyük” sənədli filmin nümayişi ilə başlanıb.**



BBMM-in icraçı direktoru Rəvan Həsənov bildirib ki, 44 günlük Vətən müharibəsində qazanılan Zəfər dövlətçilik tariximizin ən şanlı səhifələrindən biridir. Azərbaycan Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin liderliyi ilə son 200 ilin ən böyük qələbəsini qazandı. Bu qələbə hər bir azərbaycanlı üçün sonsuz qürur mənbəyidir və tariximizdə əbədi qalacaq. Zəfər Günü Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin, gücünün və qüdrətinin rəmzidir.

Qeyd edilib ki, Vətən müharibəsindəki Zəfərimizin arxasında duran ideya birlik, qardaşlıq idi. Çünki torpaqlarımızın azadlığı, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizədə dinindən, dilindən, mədəniyyətindən asılı olmayaraq, hər kəs “Dəmir yumruq” ətrafında birləşdi. Təsadüfi deyil ki, şanlı Zəfərimizdən sonra Qarabağda, Şuşada keçirilən ilk mədəni tədbir xalqların birliyini tərənnüm edən “Xarı Bülbül” festivalı oldu.

Digər çıxış edənlər – Milli Məclisin deputatı Ceyhun Məmmədov, Bakı Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Milix Yevdayev, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Vüsal Göyüşov, Vətən müharibəsi iştirakçıları polkovnik Rəşad Aslanov, mayor Şahin Əsgərov, baş leytenant Radif Mustafayev, Azərbaycan İlahiyyat İnstitutunun İlahiyyat fakültəsinin dekanı dosent Elnurə Əzizova, Rus Pravoslav Kilsəsinin Bakı Yeparxiya İdarəsinin katibi protoiyerey Elnur Əfəndiyev, Alban-Udi Xristian Dini İcmasının sədri Robert Mobili, Bakı İlahiyyat Kollecinin direktoru Mehman İsmayılov, Katolik kilsəsinin nümayəndəsi Yozef Marik Azərbaycanda yaşayan milli və dini icmaların nümayəndələrinin ölkəmizin inkişafı üçün bütün sahələrdə həmrəy olduqlarını vurğulayıblar. Qeyd olunub ki, Azərbaycan dövləti öz siyasətində multikultural dəyərləri hər zaman əsas tutur.

Zəfər Günü “Azərbaycan multikulturalizmi” fənninin tədris olunduğu dünyanın bir çox universitetlərində də qeyd edilib. Belə ki, Yaponiyanın Hokkaydo, Türkiyənin Ərciyəz, Bolqarıstanın K.Oxridski adına Sofiya, Hindistanın Şri Şri, Rumıniyanın Aleksandr İoan Kuza universitetlərinin auditoriyalarında ayrıca olaraq Zəfər Gününə həsr edilən seminarlar keçirilib. Rumıniyanın Yassı Universitetindəki Azərbaycan Multikulturalizm Mərkəzinin direktoru, professor Lüdmila Bejenaru, Yaponiyada Hokkaydo Universitetində konfliktologiya elmləri üzrə PHD təhsili almış yaponşünas alim, Yaponiya hökuməti dövlət təqaüdçüsü Əlibəy Məmmədov, Bolqarıstanda Kliment Orxidski Universitetinin Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin direktoru Sofiya Şiqayeva, Hindistanda Şri Şri universitetinin müəllimi Kənan Məmmədov və Türkiyədə Ərciyəz Universitetinin professoru Qafar Mehdiyev tədbir iştirakçılarına 44 günlük Vətən müharibəsi, Şanlı Zəfərimiz haqqında ətraflı məlumat veriblər. Vurğulayıblar ki, 44 günlük Vətən müharibəsindəki zəfər, yalnız hərbi qələbə deyil, eyni zamanda Azərbaycan xalqının tarixinə, mədəniyyətinə və vətəninə olan dərin bağlılığının təntənəsidir. Xalqın, dövlətin və ordunun sarsılmaz iradəsinin, əzminin və qətiyyətinin təcəssümüdür.

# Tarixi Zəfərimizin yaddaş kitabları



**Azərbaycan Yazıçılar Birliyində yazıçı-publisist Vəsimə İsmayılqızının Vətən müharibəsində qazanılan Qələbəyə həsr olunan “Zəfər kitabı” seriyasından çapdan çıxmış “Zəfər Kitabı. Şuşa”, “Zəfər Kitabı. Goranboy” və “Zəfər Kitabı. Beyləqan” nəşrlərinin təqdimatı olub.**

Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov çıxışında adıçəkilən kitabların Vətən müharibəsindən bəhs etdiyindən, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Zəfərin əbədiləşdirilməsində əhəmiyyətindən danışdı. Bildirildi ki, 44 günlük Vətən müharibəsində əldə olunmuş möhtəşəm Qələbə nəticəsində torpaqlarımız işğaldan azad olundu, ərazi bütövlüyümüz bərpa edildi.

Kitabların redaktorları Əməkdar müəllim İsgəndər Səklikov və AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun əməkdaşı İsmayıl Umudlu nəşrlərin əmələ gəlməsi prosesindən danışdılar. Qeyd olundu ki, kitablarda Vətən müharibəsinin Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildiyi xüsusilə vurğulanır. Həmçinin bu kitablar oxucuda ordumuzun şücaətləri haqqında geniş təsəvvür yaradır.

Tədbirdə Yeni Azərbaycan Partiyası Həmkarlar İttifaqı Komitəsinin sədri Məhəmməd Məhərrəmov, Azərbaycan Milli Konservatoriyasının kafedra müdiri Firudin Qurbansoy, “Ədalət” qəzetinin baş redaktor müavini, şair Əbülfət Mədətoğlu, “Apastrof-A” mətbəəsinin direktoru Akif Dənzizadə, şair Kəmalə Abıyeva, Azərbaycan Yazıçılar Birliyinin əməkdaşı, şair Güləmail Murad, “Goranboy” Xeyriyyə Cəmiyyətinin nümayəndəsi Əli Şəfiyev, Nağı Əsgərov və digərləri çıxış edərək kitabların əhəmiyyətindən və gənclərin vətənpərvərlik hissinin formalaşmasında rolundan danışdılar.

Məlumat verildi ki, çoxcildlik ölkəmizin hər regionuna həsr olunmuş bir clddən və ümumiləşdirilmiş xüsusi clddən ibarətdir. Hər clddə Vətən müharibəsinin mahiyyəti, gedişi, Zəfər və onun xronikası təsvir, təhlil və təqdim olunur.

Hər kitabda cildin həsr olunduğu bir rayonun, respublika tabeli bir şəhərin Birinci Qarabağ müharibəsi, atəşkəs dövrü, Aprel döyüşləri, İkinci Qarabağ müharibəsi şəhidlərindən, onların döyüş yolundan, dövlət tərəfindən təltif edilməsindən söz açılır.

Bütün cildlər standart formatda və tərtibatda, ensiklopedik toplu meyarlarına uyğun, xronoloji ardıcıllıqla qələmə alınıb.

Hər üç kitabın məsləhətçiləri və “Ön söz”ün müəllifləri Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov, ictimai-siyasi xadim və ədəbiyyatşünas-alim, filologiya elmləri doktoru Vilayət Quliyevdir.

*XQ*

# Bölgələrdə bayram təntənələri

## Sumqayıt



**Gənclik şəhərində Zəfər Günü əsl el bayramı kimi qeyd olunur.**

Heydər Əliyev Mərkəzində Abşeron–Xızı Regional Mədəniyyət İdarəsinin “Söz və Səda“ adlı yeni layihəsi çərçivəsində “Zəfər nəğməli Azərbaycan” adlı mərasim, eləcə də İdrak Liseyinin təşkil etdiyi “Şanlı Zəfər tariximiz” adlı ədəbi-bədii gecə xüsusilə yaddaqalan olub. Öncə mərkəzin foyesində rəsm sərgisinə baxış olub. Tədbirin aparıcısı Əməkdar artist Cəlal Məmmədov Vətən müharibəsi və Zəfərimizlə bağlı məlumat verdikdən sonra xanəndə Məlahət Hüseynova, gənc ifaçılar Kənan Məmmədli, Aydan Salahova və Nicat Məsimov vətənpərvərlik ruhlu ifalar səsləndiriblər. Şairlər Zəfərə həsr olunan şeirlərini söyləyiblər.



Digər tədbirdə 2020-ci il noyabrın 8-də Şuşa şəhərində həlak olan şəhid Səbuhi Həsənquliyevin anası Maisə xanımın müəllifi olduğu “Zəfər” poemasını oxuması tədbir iştirakçılarına duyğulu anlar yaşadıb. Müzəffər Ali Baş Komandan İlham Əliyevin Şuşanın azad olunması haqqında xalqa müraciəti bir daha təqdim edilib. Tədbir liseyin xor kollektivinin ifası ilə yekunlaşıb.

İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) Peşə Təhsil Mərkəzində də Zəfər Günü sevinclə qeyd olunub. Dörd il öncə “Dəmir yumruq” əməliyyatı ilə işğal altındakı ərazilərimizin azad edilməsi tariximizin ən parlaq səhifəsi kimi qeyd olunub. Bayram mərasiminə qatılan Vətən müharibəsi iştirakçıları döyüş əməliyyatlarından, əsgərlərimizin qəhrəmanlıqlarından danışıb, müharibə ilə bağlı xatirələrini bölüşüblər. Sonda 44 günlük Vətən Müharibəsindən bəhs edən “Zəfər yolu” adlı videoçarx nümayiş olunub.

## Mingəçevir



**“Nur şəhəri”ndə Zəfər günü münasibətilə təntənələr bir neçə gündür ki, davam edir.**

Dünən ümumşəhər bayram tədbirinin iştirakçıları əvvəlcə Zəfər Parkında olub, “Şəhidlərin xatirə lövhəsi”nin qarşısına gül dəstələri qoyaraq torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş Vətən övladlarını yad ediblər.

İcra Hakimiyyəti başçısı aparatının əməkdaşlarının, hüquq-mühafizə orqanları rəhbərlərinin, şəhid ailələri üzvlərinin, qazilərin, müharibə veteranlarının, ictimaiyyət nümayəndələrinin, idarə və müəssisələrin rəhbərlərinin iştirak etdiyi tədbiri açan şəhər rəhbəri İlham İsmayılov geniş məruzə ilə çıxış edib. O bildirib ki, ölkə Prezidentinin rəhbərliyi ilə yaranan xalq–dövlət–ordu birliyi sayəsində “Qarabağ Azərbaycandır!” şüarı real həyatda öz təsdiqini tapıb və 30 ilə yaxın bir müddətdə işğal altında olan torpaqlarımız azad olunub. 44 gün davam edən müharibə nəticəsində erməni ordusunun məğlubedilməz olması mifi darmadağın edilib.

Qeyd edilib ki, Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunması ilə yanaşı, Azərbaycanın dünyada siyasi nüfuzu da artıb. Azərbaycan bölgədə yeni reallıqlar yaradıb. Artıq dünya dövlətləri Azərbaycanı qalib və diktə edən bir ölkə kimi qəbul edir. Böyük Zəfər tariximizdə Mingəçevir şəhərinin də payı var. Hələ I Qarabağ müharibəsində 985 nəfər mingəçevirli döyüşlərdə iştirak etmiş, qəhrəmanlıq göstərən 322 igid şəhidlik zirvəsinə ucalmışdır. Aprel döyüşlərində 5 mingəçevirli igid şəhid olmuşdur. Vətən müharibəsi başlananda isə 1041 nəfər Mingəçevir gənci könüllü olaraq cəbhəyə getmiş, şücaətləri ilə müharibədə iz qoymuşdur. Vətən müharibəsində 54 nəfər mingəçevirli şəhidlik zirvəsinə ucalmış, 100 nəfərdən çox döyüşçü yaralanmışdır.

Bu gün Mingəçevir özünün 5 Milli Qəhrəmanı, 2 Vətən Müharibəsi Qəhrəmanı ilə, eləcə də çaxsaylı orden və medallar almış yetirmələri ilə fəxr edir. Şəhid ailələri və qazilər dövlətimizin daimi himayəsindədirlər. “YAŞAT” fondu tərəfindən şəhid ailələrinin sosial problemlərinin həllinə müvafiq dəstək göstərilir, qazilərin müalicəsi təşkil olunur.

Şəhər rəhbəri fərəhlə bildirib ki, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Qarabağ torpağı işğaldan azad olunduqdan sonra orada geniş miqyaslı quruculuq və bərpa işlərinə start verilib və indi də bu işlər planlı surətdə davam etdirilir. İnam böyükdür ki, çox tezliklə bütün keçmiş məcburi köçkünlər özlərinin Qarabağ və Şərqi Zəngəzurdakı yurd-yuvalarına qayıdacaqlar.

Mərasimdə Vətən müharibəsi qəhrəmanı Elnur Gebidov, şəhid anaları Azadə Abdullayeva və Qumru Məmişova, 3-cü qrup Vətən müharibəsi əlili Ramil Həsənov, YAP şəhər təşkilatının sədri Bəxtiyar Mustafayev, ictimaiyyət nümayəndələrindən Nurcamal Əsgərova, Mayıl İsmayılov çıxış edərək şəhid adlarının daim uca tutulmasından məmnunluqlarını ifadə edib, Zəfər bayramı münasibətilə təbriklərini çatdırıb, qazilərə, veteranlara cansağlığı arzulayıblar.

## Lənkəran

**“Cənub mirvarisi” adlanan Lənkəranda Zəfər Günü ilə bağlı bir sıra maraqlı tədbirlər təşkil olunub. Məktəblərdə, mədəniyyət ocaqlarında anım mərasimləri, bədii kompozisiyalar, sərgilər keçirilib.**



Lənkəran Dövlət Dram Teatrında yazıçı Qafar Cəfərlinin "Şəhid bayrağı” pyesi əsasında hazırlanan eyniadlı tamaşa xalqımızın 44 günlük Vətən müharibəsində keçdiyi şanlı zəfər yolunu əks etdirib. Teatrsevərlərin maraqla baxdığı tamaşanın quruluşçu rejissoru Emil Əskərov, rəssamı Tərlan Sadıqov, musiqi tərtibatçısı Vüqar Fərəcov, rejissor assistenti Nuranə Nəcəfovadır.

Lənkəran Dövlət Universitetində LDU-nun nəzdində fəaliyyət göstərən Sosial Aqrar-Texnoloji Kolleclə birgə Zəfər Günü və Dövlət Bayrağı Günü münasibətilə musiqili-nəğməli bayram tədbiri keçirilib. Zəfər ovqatlı, vətənpərvərlik ruhlu mahnılar, şeirlər səslənib. LDU tələbələrinin Zəfər Gününə həsr etdikləri rəsm əsərlərindən ibarət sərgiyə baxış keçirilib.

Lənkəran ŞİH başçısı Taleh Qaraşov, icra aparatının məsul şəxsləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, yerli idarə və müəssisələrin, ictimaiyyətin nümayəndələri isə noyabrın 7-də Milli Qəhrəman Əsgər Əliyevin doğum günü ərəfəsində abidəsini ziyarət edib, önünə tər güllər düzüblər. Milli Qəhrəmanın atası Ələkbər Əliyevlə söhbət edən icra başçısı dövlət və dövlətçiliyimizin müdafiəsi uğrunda canından keçən Vətən oğullarının xatirəsinə hörmət və ehtiramın göstərilməsinin mənəvi borcumuz olduğunu vurğulayıb. Qəhrəmanın atası göstərilən diqqət və qayğıdan məmnun olduğunu, dövlət tərəfindən bütün problem və qayğılarının daim diqqətdə saxlanıldığını ifadə edib, bütün bunlara görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığını vurğulayıb.

Onu da qeyd edək ki, Lənkəran şəhər rəhbərliyi sentyabrın 27-dən başlayan Vətən müharibəsinin bütün şəhidlərinin anım mərasimlərində yaxından iştirak edir. Son günlərdə şəhidlər Əbdülhəsən Həsənzadə, Röyal İbrahimov, Valeh Əkbərzadə, Taleh İsmayılov, Şəhriyar Həbibli, Emil Qurbanov və Baloğlan Əhədlinin məzarı ziyarət edilib, Taleh Qaraşov onların ailə üzvlərinin qayğı və problemləri ilə yaxından maraqlanıb.

## Göyçay

**8 Noyabr Zəfər Günü münasibətilə Göyçay Gənclər evi, rayon üzrə gənclər və idman sektoru və Uşaq Gənclər İnkişaf Mərkəzinin birgə təşkilatçılığı ilə “Zəfər tariximiz” adlı gecə keçirilib.**



Göyçay Rayon İcra Hakimiyyəti başçısının müavini Zivər Zeynalova 44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbə və Zəfər Günü münasibətilə tədbir iştirakçılarını təbrik edərək bildirib ki, Azərbaycan Respublikası Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən Müharibəsində rəşadətli ordumuz tərəfindən torpaqlarımızın qarı düşməndən azad edilməsi ilə Azərbaycan tarixinə yazılan möhtəşəm Zəfərin bayramını bu gün bütün dünya azərbaycanlıları qürur hissi ilə qeyd edirlər.

Sonra çıxış edən Vətən Müharibəsi şəhidi Xəyyam Hüseynin atası Hüseynağa Hüseynov və Vətən müharibəsi iştirakçısı Fazil Mehdiyev ordumuzun gücü ilə ərazi bütövlüyümüzün tam təmin olunmasından söz açıblar və dövlət tərəfindən onlara göstərilən diqqətə görə ölkə Prezidentinə öz minnətdarlıqlarını bildiriblər.

Gənclər şanlı zəfərimiz haqqında şeirlər, mahnılar səsləndirib, rəqs nümunələri ilə çıxış ediblər.

*Hazırladılar:*
*Əli NƏCƏFXANLI,*
*İlqar HƏSƏNOV*
*XQ*

# Vətən müharibəsinin kəşfiyyatçı qəhrəmanı

## *Yurd sevgisinin Orxan Əkbərov örnəyi*

**Vətən müharibəsində canını qurban verib torpağı düşməndən geri alanlardan daha birinin ömür yolunu vərəqləyirik. Şəkildən boylanan gəncin baxışları insanı titrədir. Biləsuvarlı şəhidin çöhrəsindəki ifadə səni özünə çəkir. "Kimdir, niyə bu qədər tanış gəldi?"– deyə düşünürük. Və axtarıb ömürlülüyünə nəzər salırıq. Bu nədir? Doğurdanmı o bizim illər öncə tanış olub, sonra ayrıldığımız ailənin övladıdır?**



Taledən qismətimizə düşən ömrün 5 ilini Saatlıda yaşamalı olmuşuq. Orada bizi "komsomolun ailəsi" kimi tanıyırdılar. Həyat yoldaşımı Saatlı Rayon Komsomol Komitəsinin I katibi vəzifəsinə göndərmişdilər. Mən də analıq məzuniyyətində idim. Kiçik qızımla oğlum orada doğulublar. Məlumdur, bizə yad rayon, kimsəni tanımırdıq. Çox keçmədi ki, Biləsuvardan olan ailə ilə yaxınlaşdıq. Ailə başçısı Nadir Əkbərov müstəntiq, həyat yoldaşı Sevil Abdullazadə ginekoloq-həkim idi. Uşaqlarımız eyni məktəbdə oxumasalar da, yaşıd idilər. Dolu bədənli Taleh də gözümün qarşısındadır, Ənvər də, Orxan da, hətta onların həyatimizdə oyunlar oynadıqları da (kiçik oğlan yadıma gəlmir). Məktəblilərin qış tətili günlərində uşaqların bir yerdə Moskvaya səfərə getdiklərini yaxşı xatırlayıram. Çox yaxın idik. Bilirdim ki, Sevil xanım ailənin tək övladıdır, ərkəsöyün böyüyüb. Sözünün qabağında söz deyən olmayıb. Anası tez-tez qonşu rayondan gəlib ona ev işlərində kömək edirdi.

Kiminsə taleyinin necə olacağını Rəbbimizdən başqa kimsə bilməz. Həyat elə gətirdi ki, biz yenidən Bakıya – evimizə qayıtdıq və həyat yoldaşımın vaxtsız ölümü mənə nəinki dost-tanışı, özümü də unutdurdu. Dostlar ayağını çəkdi, aləm qarışdı, rejim dəyişdi və Azərbaycan müstəqillik qazandı. 5 il sonra təsadüfən Sevillə o vaxt Kirov İnstitutu adlanan Tibbi Bərpa İnstitutunda rastlaşdıq. Evə dəvət etdim, Nadirin müalicə aldığını, çıxa bilməyəcəyini dedi. O vaxt mobil telefonlar da yox idi. Bir dəfə Saatlıdakı tanışlardan biri ilə rastlaşdım, Sevilgilin Biləsuvara köçdüklərini dedi. Əlaqə qurmaq imkanım sıfırlandı.

İndi qarşımda Orxan Nadir oğlu Əkbərovun şəklinin məni niyə bu qədər həyəcanlandırdığını anladım. Bəli, bu həmin 7 yaşlı Orxanın baxışları idi. Həyətimizdə topla oynayan, əlinə keçən taxta parçasını avtomat kimi sinəsinə sıxıb atəş açırmış kimi sağa-sola dönə-dönə heyva ağacının gövdəsinə sığınan, uşaqları "öldürən", "yaralayan" Orxan. Allah bizi beləmi qarşılaşdırmalı idi, bala? Sənin o vaxt sinənə sıxdığın "taxta silah" illər sonra həqiqi avtomat olub düşmən bağrı yaracaqmış, nə bilərdik?..

### Vətən Müharibəsi Qəhrəmanı

Azərbaycan Silahlı Qüvvələrinin polkovnik-leytenantı Orxan Əkbərov 2020-ci il sentyabrın 27-də işğal altında olan ərazilərimizin azad edilməsi üçün



başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. O, oktyabrın 2-də İlanlı dağda şəhid olub, 6-da Biləsuvar şəhərində dəfn edilib.

Dövlət başçısının sərəncamları ilə Orxan Əkbərova ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib. Sağlığında III və II dərəcəli "Qüsursuz xidmətə görə" medalları, həmçinin "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalları ilə fərqləndirilib.

Vətən Müharibəsi Qəhrəmanı Orxan Əkbərov ömrünü çətin, lakin müqəddəs və şərəfli hərb peşəsinə ürəkdən bağlamışdı. O, orta məktəbdə oxuyan vaxtlarda peşəkar boksçu kimi respublikamızda keçirilən rayon birinciliyinin dəfələrlə qalibi olmuşdu. Bu nailiyyətlər onun gələcək həyatında lider zabit və bacarıqlı kəşfiyyatçı kimi yetişməsində böyük rol oynadı.

### Saatlıda doğulmuş biləsuvarlı qəhrəman

Orxan Nadir oğlu Əkbərov 1982-ci il dekabrın 12-də Saatlı rayonunda ziyalı ailəsində doğulmuşdu. Ailədə 4 qardaşdan 3-cü övlad olan Orxan orta məktəbdə ağlı, zəkası, savadı ilə seçilirdi. O, 1989–1997-ci illərdə Saatlı şəhərində 3 nömrəli tam orta məktəbdə, 1997–1999-cu illərdə isə Biləsuvar şəhərində 1 nömrəli tam orta məktəbdə təhsil alıb.

Orxan Əkbərov hərbçi olmaq arzusunu həyata keçirmək üçün 2000-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. Təhsil aldığı illərdə nümunəvi, hazırlıqlı kursant kimi müəllimlərinin rəğbətini qazanıb. Hərb sənətinin sirlərinə, incəliklərinə dərindən yiyələnib. Məktəbi kəşfiyyat ixtisası üzrə bitirərək leytenant rütbəsində Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissədə tağım komandiri olaraq xidmətə başlayıb. Çox keçmədən onun situasiyanı qiymətləndirmə bacarığını, erudisiyasını görən rəhbərlik Orxanı bölük komandiri təyin edib və o, bu vəzifədə Vətənə, dövlətə, orduya ləyaqətlə xidmətini davam etdirib. Yüksək mənəvi və şəxsi keyfiyyətləri, intellekti, liderlik bacarığı, nizam-intizamı, vətənpərvərliyi, zəngin təcrübəsi, döyüş tapşırıqlarını uğurla yerinə yetirməsi komandanlıq tərəfindən



hər zaman qiymətləndirilib. O, həm də hərbçilər arasında peşəkar boks üzrə keçirilən yarışlarda dəfələrlə qalib olub.

### Aprel döyüşlərinin təcrübəsi

2016-cı ildə Aprel döyüşlərində o, artıq təcrübəli hərbçi kimi iştirak etməklə qalmır, eyni zamanda, döyüş təcrübəsi əldə edir. Hücum əmri gələndə silaha sarılan peşəkar kəşfiyyatçı əsgərlərinin önündə gedir, Lələtəpə istiqamətində düşmənin alınmaz qala hesab etdiyi beş postun istehkamını başına sovurur. Meşədə 100-ə yaxın xüsusi təyinatlı düşmən əsgərinin məhv edilməsində xüsusi rəşadət göstərir. Aprel döyüşlərində iştirakı zamanı qazandığı təcrübə Orxana Vətən müharibəsində daha düzgün addım atmağa, düşdükləri vəziyyətdən çıxış yolu tapmağa kömək edir. Xidmət boyu ön cəbhədə qulluq etməkdən qürur duyan qorxmaz kəşfiyyatçı Orxan Əkbərovun illər ötdükcə artan zəngin təcrübəsi, cəsarətli xidməti komandanlıq tərəfindən yüksək qiymətləndirilərək çoxsaylı fəxri fərman və diplomlara layiq görülür. Beyləqan və Ağdam rayonlarında "N" saylı hərbi hissələrdə kəşfiyyat rəisi olduğu illərdə nizam-intizamı, vətənpərvərliyi, çətin tapşırıqları uğurla icra etmək bacarığı peşəkar zabit kimi onu şöhrətləndirir.

### Hərbi hissə komandiri

Orxan Əkbərov 2020-ci il yanvarın 5-də Füzulidə "N" saylı hərbi hissəyə komandir təyin olundu. Xidmət dövründə düşmənin kəşfiyyat-diversiya qruplarının törətdiyi təxribatların qarşısının alınmasında xüsusi fəallıq göstərdi.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələrinin genişmiqyaslı təxribatlarına qarşı ordumuzun əks-hücum əməliyyatı başlayanda "Hər kəsə şəhidlik qismət olmur, Vətən uğrunda canımdan keçərəm",– deyərək irəli atıldı. Orxan komandir kimi daim özündən çox şəxsi heyəti düşünürdü. Əsgərlərini döyüşə hazırlayır, dost, qardaş kimi bu ağır sınaq günlərində də onları qorumaq üçün az itkiylə böyük uğur qazanmağın yollarını axtarırdı.

Müharibənin ilk günlərində Orxan Əkbərov əsgərləri ilə birlikdə kənd Horadiz istiqamətində düşmənin çoxlu sayda xüsusi təyinatlı əsgərinin, silah və texnikasının məhv edilməsində, istehkamlarının darmadağın olunmasında, qəhrəmanlıq, fədakarlıq nümunələri göstərir, "Vətən yolunda öldü var, döndü yoxdur", – deyir. Düşmənə kömək üçün tələsən bölüyün silahla dolu 5 avtomobili, 60 nəfərlik canlı qüvvəsi Orxanın rəhbərliyilə məhv edilir.

Qarşı tərəfin cəbhəsini yararkən, "həyatın ən böyük xoşbəxtliyi budur", – deyən komandirin qəlbində gəzdirdiyi ülvi bir istək var idi: Şuşada üçrəngli bayrağımızı birinci dalğalandırmaq!

Təəssüf ki, bu arzusu elə qəlbində qalır, Vətənin qəhrəman oğlu Orxan Əkbərov Füzulidə gedən döyüşlərdə ayın 2-də şəhidlik zirvəsinə yüksəlir. Nəşini götürmək mümkün olmur. Neçə gün sonra nəhayət, şəhidlərimizin nəşi döyüş meydanından çıxarılır və Orxan oktyabrın 6-da ata-baba yurdu Biləsuvar şəhərində dəfn olunur.

### Şəkillərdən baxan Orxan

Qəhrəmanın mənzilində şəxsi əşyalarından ibarət zəngin xatirə guşəsi yaradılıb. Bu guşədə qorunan hər bir əşya Orxanlı günlərin şirin xatirələrini yaşadır. Hər dəfə guşənin qarşısından keçəndə ananın, eləcə də həyat yoldaşının nələr yaşadığını, ürəklərindən nələr keçdiyini yalnız özləri bilir.

Anası Sevil xanımla görüşmək fikrindən hələlik daşındım. Orxan kimi igiddən sonra, yarası qaysaq bağlamamış, ananın sinəsinə 2024-cü ilin may ayında ikinci övlad dağı çəkilir, gözünün ilk ovu Taleh Əkbərov dünyasını dəyişir. 4 ay sonra oktyabrın 16-da 38 yaşlı sonbeşik Elnur Əkbərovun halı qəfil pisləşir və xəstəxanaya çatdırılsa da, onun həyatını xilas etmək mümkün olmur. Həmin gün Elnur Milli Qəhrəman Mübariz İbrahimovun atasının dəfn mərasimində olubmuş.

Elnurun 40 mərasiminə günlər qalıb, qismət olsa, anası ilə görüşəcəyik. Həyat yoldaşının ölümündən sonra 3 oğul itirmək nə qədər çətin, ağır olsa da, həyat davam edir. Sevil xanım Biləsuvar Şəhər Xəstəxanasında şöbə müdiridir.

**Qəhrəmanımız haqqında çəkilən videofilmlərə baxıram. Gənc vaxtı tanıdığım Sevil xanım görünüşcə dəyişsə də, həmişəki kimi məğrur görünür. Qəhrəman oğlundan yana-yana, amma qürurla danışır:**

– Uşaqlardan ikisi, Orxan da, Ənvər də Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbin məzunlarıdır. Orxan hələ ibtidai sinifdə oxuyanda hərb sənəti ilə maraqlanır, gələcəkdə peşəkar hərbçi olmağı arzulayırdı. Müharibə ilə bağlı hansı ölkənin istehsalı olmasına baxmayaraq, çəkilən filmləri izləyirdi. O vaxt disklər yox idi. O atasından da, məndən də daim müharibədən, döyüşdən bəhs edən kasetlər almağı xahiş edərdi. Saatlarla oradakı döyüş qaydalarına baxardı. Çox tərbiyəli, qeyrətli oğul idi. Hansı məkana düşsə, orda hər kəsin hörmətini qazanırdı. Bizə qarşı tamam fərqli davranan bir övlad idi.

Uşaq vaxtı da qeyri-adi uşaq idi. İstedadı, qabiliyyəti ilə yaşıdlarından seçilirdi. Tarix fənnini xüsusilə sevirdi. Rəssamlıq bacarığı da var idi, idmanla da məşğul olurdu. Onun boks müəllimi İmaməli Muradov Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun da məşqçisi olmuşdu. Hələ məşqlərin ilk günlərindən onun bacarığına heyran qalmış və demişdi ki, yaxşı boksçu belə cəsarətli uşaqlardan yetişir, Orxan gələcəyin məşhur boksçusu olacaq. Qismət olmadı balama. 20 ilə qədər ömrü hərbin çətin yollarında keçdi. Bilirəm, itkisiz döyüş, şəhidsiz Qələbə olmur. Bu azadlıq uğrunda can verən, qan tökən bütün şəhidlərimizin məkanını Allah cənnət eləsin.

4 il öncə Orxanın məzarına gedib "mənim hərbçi olmağı seçib özünü Vətənə qurban edən balam, 20 ilin yuxusuzu, yorğunusan, yat, dincəl, anan ölsün"– deyən Sevil xanım indi qəbiristanlıqda hansı oğlunun məzarına öncə gedəcəyini, hansını necə oxşamağı, necə əzizləməyi, necə dindirməyi bilmir. Allah səbr versin.

Orxanın qardaşı, mayor Ənvər Əkbərov Vətən müharibəsində Murov, Füzuli, Cəbrayıl istiqamətində döyüşlərdə iştirak edib. Azərbaycan Prezidentinin sərəncamı ilə "Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.

**Ənvər qardaşından danışır:**

– Atalar məsəli var: "Qardaşını tanıyırsanmı?" Deyir: "Yoldaş olmamışam". Mən qardaşımı müharibədə bir daha tanıdım. Orxanın hərbi xidmət yolu yalnız ön xətdə keçmişdi. Kəşfiyyat bölməsi komandiri vəzifəsindən hərbi hissə komandiri vəzifəsinə kimi yüksəlmişdi. O həqiqətən də ordumuzun yetişdirdiyi mükəmməl kəşfiyyatçılardan biri idi. Vətən müharibəsi zamanı kənd Horadiz istiqamətində Orxan döyüşçüləri ilə birlikdə düşmənin xüsusi təyinatlı qüvvələri ilə qarşı-qarşıya gəlmişdi. Mühasirəyə düşmüşdülər. Orxanın yüksək döyüş bacarığı sayəsində mühasirə yarılmış, üstəlik, düşməndən xeyli silah-sursat hərbi qənimət olaraq götürülmüşdü. O, bir komandir olaraq döyüşə şəxsi heyətin önündə gedirdi. Hər ikimiz eyni istiqamətdə Vətənimizin bütövlüyü uğrunda döyüşə qatılmışdıq. Mən təmas xəttindən aralıda fəaliyyət göstərirdim.

Lakin Orxanın danışıqlarını çox eşidirdim. Onun bir həftəlik döyüşünün şahidi oldum. Orxan döyüşü komanda mərkəzindən də idarə edə bilərdi. Lakin düşmən



postlarına hücum edirdi. Orxan elə bir kəşfiyyatçı idi ki, düşməni özündən zəif hesab etmirdi. Onu bütün detallarına – əlaqə yolları, əlavə dəstəyinə kimi incələyirdi. Hansısa tapşırığı icra edəcəkdisə, öncədən hazırlaşırdı. Artıq orada uğur əldə etməmək qeyri-mümkün idi. Lakin itkisiz müharibə, şəhidsiz Vətən olmur. Oktyabrın 3-də mənə zəng gəldi ki, Orxan şəhid olub. Həmin günləri yada salmaq çətindir...

Hərbçi olmaq istəyi məndə Orxanı hərbi mundirdə görəndən sonra yaranmışdı. Ona hərbi forma o qədər yaraşırdı ki, görəndə qürur hissi yaşayırdım. Qardaşımın yolu ilə getməyi qərara aldım. Orxan məndən iki kurs yuxarıda oxuyurdu. Fiziki cəhətdən çox sağlam, güclü, xaraktercə çox sadə idi. Xüsusi liderlik bacarığı vardı. Orxan və onun kimi oğullar heç zaman ölmür, xalq qəlbində onları daim yaşadır.



### Ailəsi

**Şəhidin Sevil və Çingiz adlı iki övladı Vətənə əmanət qalıb. Qızı Sevil 12, oğlu Çingiz isə 11 yaşındadır. Orxan Əkbərovun həyat yoldaşı Nuranə Əkbərova ET Mamalıq və Ginekologiya İnstitutunun qəbul şöbəsində mama vəzifəsində çalışır. 10 illik ailə həyatının xoş günlərindən, xatirələrdən söhbət açır:**

– Orxanla həmişə qürur duymuşam. Bu gün şəhid xanımı adını məsuliyyətlə, şərəflə daşıyıram. Yadigarlarını onun adına layiq böyüdüb arzularına çatdırmalıyam. Uşaqlar "Zirvə" liseyində təhsil alırlar. Atalarının necə qəhrəman olduğunu anlayır və onun adı ilə fəxr edirlər.

Oğlumuz Çingiz atasının yolunu davam etdirmək istəyir. Deyir ki, o da hərbçi olacaq. Mənə Orxanla bağlı keçmiş zamanda, yox kimi danışmaq ağır gəlir. O, hərbçi sərtliyini evə gətirmirdi. Övladlarına on dəqiqədə on günün sevincini yaşadırdı. Bu gün bizi yaşadan onun xoş xatirələridir. Orxan mənim fəxarətimdir. Həyatına həsr olunmuş "Əfsanəvi kəşfiyyatçı" adlı kitab nəşr olunub. Bu yaxınlarda təqdimatını edəcəyik.

Orxanla son dəfə oktyabrın 1-də danışdıq. Onlara İlanlı dağı azad etmək tapşırığı verilmişdi. Əhval-ruhiyyəsi yaxşı idi. "Uşaqlardan muğayat ol"– dedi. Ertəsi gün şəhidlik məqamına ucaldı, nəşini həmin gün götürmək mümkün olmadı.

Çingiz eynilə atasının mən gördüyüm uşaqlığına bənzəyir. Sevil isə anasına çəkib. Çingiz "Mən atamla fəxr edirəm. O, Qarabağımız, torpaqlarımız uğrunda şəhid olub, həmişə mənim ürəyimdə yaşayacaq"– deyir. Sevil isə atasının arzusuna uyğun nənəsinin davamçısı olacağını, həkim olub onun kimi ailələrə sevinc bəxş edəcəyini söyləyir: "Atam evə gələndə öncə dərslərimizlə, qardaşımın idman hazırlığı ilə maraqlanardı. Biz də atamızın adına layiq övlad olacağıq. Vətənimizi, torpağımızı, anamızı atamız kimi sevəcəyik".

Vətən Müharibəsi Qəhrəmanı, şəhid polkovnik-leytenant Orxan Əkbərovun xatirəsinə vaxtilə yaşadığı evin önündə abidə kompleksi ucalır. Biləsuvar şəhər Musiqi və İncəsənət məktəbi onun adını daşıyır. Bakı şəhəri Nizami rayon Ərəstun Mahmudov adına 220 saylı məktəb-liseyin 3d sinfinə qəhrəmanın adı verilib, şəhid haqqında videoçarx hazırlanıb. Sinif otağında şəxsi əşyalarından ibarət guşə yaradılıb. Ailəsi dövlət tərəfindən 3 otaqlı mənzillə, təqaüdlə təmin olunub.

Ruhun şad olsun, Orxan, sən sancmasan da, Azərbaycan Bayrağı Şuşada dalğalanır.

*Zərifə HÜSEYNOVA*
*XQ*

GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan" şirkəti və onun törəmə şirkətləri

Azərbaycan xalqını

"Absheron Operating Company"

"Binagadi Oil Company"

"Karasu Operating Company"

"Shirvan Operating Company"

"Neftechala Operating Company"

8 NOYABR Zəfər Günü münasibətilə təbrik edir, xoş günlər və firavan həyat arzulayır!




Möhtərəm Cənab Prezident, Qəhrəman Ali Baş Komandan! Sizin rəhbərliyinizlə 44 günlük Vətən müharibəsində yenilməz Ordumuzun əldə etdiyi möhtəşəm "Zəfər Günü" Azərbaycan tarixinin müstəsna əhəmiyyətli hadisələrindən biridir. Bu möhtəşəm Qələbə Sizin yorulmaz əməyinizin, mərhəmətli birinci xanım Mehriban Əliyevanın bütün sahələrdə Sizə misilsiz dəstəyi, illər boyu böyük ustalıqla formalaşdırdığınız xarici siyasət və diplomatiyanın, Azərbaycan xalqının birlik və əzmkarlığının məhsuludur.

Möhtərəm Prezident, mərhəmətli birinci xanım Mehriban Əliyeva! **"Fructus Aqropark"ın** kollektivi başda Siz olmaqla xalqımızı və dünya azərbaycanlılarını şanlı Zəfər Bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, ölkəmizə əbədi sülh və firavanlıq arzulayır!

**"Fructus Aqropark"**
**MMC-nin kollektivi**

# Vətənin qəhrəman oğlu

**Yaxşı deyiblər ki, qəhrəmanlıq şərin üstünə getməkdir. Bəli, o da elə şərin, Vətənimizin ərazi bütövlüyünü təmin etmək məqsədilə erməni vandallarının üzərinə getdi, özü də mərd-mərdanə. O, həyatı üçün təhlükəni ağlına belə gətirmədən qəhrəmanlığı ilə şərə qalib gəldi. Onun bu qəhrəmanlığı elə Vətən Müharibəsi Qəhrəmanı kimi əbədiləşdirildi.**

Söhbət döyüş yoldaşlarının "Terminator" adlandırdıqları, Şuşaya ilk daxil olan hərbçilərdən biri olan Xüsusi Təyinatlı Qüvvələrin şəhid baş giziri, kəşfiyyatçı-istehkamçı, 3 övlad atası Mehrab Niftəliyevdən gedir.

Mehrab Söhrab oğlu 1985-ci il mayın 13-də Quba rayonunun Qamqam kəndində anadan olub. 2005-ci ildən 2020-ci ilə qədər Xüsusi Təyinatlı Qüvvələrin döyüşçüsü kimi Vətənə xidmət edib. "Qafqaz qartalı" və EFES kimi çətin hərbi təlimləri uğurla tamamlayıb. 2016-cı il Aprel döyüşlərində də yüksək şücaət göstərib. Vətən müharibəsinin ilk günündən ön cəbhədə olan Mehrab Niftəliyev Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Xocavənd, xüsusilə Hadrut qəsəbəsi, Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmanlıq nümunələri göstərib.

Mehrab Niftəliyev noyabrın 7-də Şuşa uğrunda gedən döyüşlərdə sol ayağından yaralanıb. Noyabrın 8-də elə Şuşada şəhadətə yüksəlib. Noyabrın 11-də Sumqayıtda Şəhidlər xiyabanında torpağa tapşırılıb. "Vətən Müharibəsi Qəhrəmanı" adına, həmçinin "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medallarına layiq görülüb.





Mehrab Niftəliyev üçrəngli bayrağımıza böyük ehtiram bəsləyirdi. Onun bayrağa olan sevgisi Vətənə, xalqa, dövlətə olan məhəbbətinə bərabər idi. Özü də hər döyüş meydanına hər dəfə bayraq ilə atılardı. Yeri gəlmişkən, Mehrab düşməndən azad edilmiş Cəbrayılda bayrağı ilk qaldıran hərbçilərdən biri kimi tarixə düşüb. Qarabağın tacı sayılan Şuşada da üçrəngli bayrağımızı qaldırmaq onun arzusu idi. Şair Ramiz Qusarçaylının sözləri ilə desək, "bayrağımızın kölgəsi düşən torpağı gözünə çəkmək" istəyirdi. Amma şəhid oldu.

Erməni dilini bilən Mehrab dəfələrlə hərbi kəşfiyyata getmişdi. Düşmən Mehrab Niftəliyevi ələ keçirmək məqsədilə onun başına pul qoymuşdu. Düşmənin bu niyyəti ürəyində qaldı.

Döyüş yoldaşlarının sözlərinə görə, Mehrab döyüşlər zamanı yaralı və şəhid hərbi qulluqçuları savaş meydanından çıxarmaqla yanaşı, yaralı silahdaşlarına ilk tibbi yardım da göstərmişdir.

Təkcə döyüş yoldaşlarınamı? Bu məqamda bir faktı da xatırlatmaq istərdim. Qamqam kəndində şəhidlərimizin şərəfinə ucaldılmış xatirə kompleksinin açılış mərasimində çıxış edən natiqlərdən birinin sözləri hamını çox təsirləndirmişdi...

Deməli, belə... Adını unutduğum həmin şəxs öz çıxışında bildirdi ki, Bakının isti yay günlərindən biri idi. İki azyaşlı övladımla dənizdə çimirdik. Birdən-birə dalğa qalxdı. Dalğalar uşaqları ağuşuna alaraq onları dənizin içərilərinə tərəf aparmağa başladı. Onlardan birini birtəhər xilas edə bildik. İkincini isə xilas etməkdə çətinlik çəkdik. Bu zaman əlində idman çantası olan pəhləvan cüssəli bir şəxs özünü dənizə atdı və çətinliklə də olsa həmin uşağın həyatını xilas etdi. Hadisə yerinə təcili yardım maşını da gəldi. Mənim başım onlara və uşaqlara qarışdı. Elə bu səbəbdən həmin şəxsin kim olduğunu öyrənə bilmədim.

Həmin şəxs sonra bunları dedi:



– Sözün düzü, buna görə özümü bağışlaya bilmirdim. Bu hadisədən bir müddət sonra televiziya kanallarının birində, Şuşa uğrunda gedən döyüşlərdə şəhid olanlarla əlaqədar hazırlanmış bir verilişə baxarkən həmin şəxsin fotosunu gördüm və tanıdım. O, mənim uşağımı xilas edən şəxs idi, yəni Mehrab Niftəliyev idi! Təəssüf ki, bu igidi sağlığında bağrıma basa bilməmişəm…

Yeri gəlmişkən qeyd edək ki, Vətən Müharibəsi Qəhrəmanı şəhid Mehrab Niftəliyevin adı Quba və Sumqayıt şəhərlərində küçələrə, o cümlədən Quba Texniki Təmayüllü Liseyinə verilib. Qamqam kəndində isə kənd sakinləri tərəfindən onun, həmçinin torpaqlarımızın azadlığı uğrunda canından keçən digər şəhidlərimizin şərəfinə xatirə kompleksi – kiçik xiyaban, park yaradılıb. Həqiqətən də qəhrəmanlıq ölmür, əbədi yaşayır.

***Qəhrəman QASIMOV,***
***Əməkdar jurnalist***

# Şuşada əbədi izi qalıb...

**Şəhid Rəşad Rəhimovun ailəsi ilə ilə tez-tez əlaqə saxlayıram. Yaxşı yadımdadır ki, "Biz Vətən üçün doğulduq" kitabını hazırlayanda Rəşad Rəhimov məhz 2020-ci il noyabrın 8-də Şuşa uğrunda gedən döyüşlərdə Daşaltıda şəhid olmuşdu.**

Həyat yoldaşı İlahə xanıma zəng edib hal-əhval tuturam. Nə gözəl ki, artıq şəhidin yadigarları – Fatimə "İdrak" liseyində 3-cü sinifdə təhsil alır, oğlu Ömər isə bağçaya gedir.

Dövlətimiz onları qayğı ilə əhatə etmiş, Sumqayıtda mənzillə təmin olunmuşlar. Şəhidin valideynləri İlqar və Solmaz isə digər övladları ilə ömürlərinə davam edirlər. Amma heç birininin nisgili zərrə qədər də azalmayıb. Dərd həmin dərddir, ağrı həmin ağrıdır.

"Şuşa indi azaddır. Biz Şuşaya qayıtmışıq. Biz bu tarixi qələbəni döyüş meydanında qazanmışıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır." Bu sözləri Ali Baş Komandandan eşitmək üçün, bayrağımızın Şuşada dalğalanması üçün nə günəşlərimiz söndü. Anaların ürəyində odlu silahlar açıldı. Dözdülər, "Təki Vətən yaşasın", – dedilər.



Millət olaraq hər şəhidlə öldük, yenidən şəhidlərlə dirildik. Rəşad Rəhimov sağlığında həmişə döyüş yoldaşlarına deyirmiş: "Şuşa təkcə şuşalılar üçün deyil, bütün azərbaycanlılar üçün, Vətənini, millətini sevən hər bir vətəndaşımız üçün müqəddəs torpaqdır, qaladır, abidədir".

Rəşad 1985-ci il iyulun 16-da Tərtər şəhərində anadan olmuşdu. O, 1991-ci ildə Yevlaxın Qoyunbinəsi kəndində Rövşən Rzayev adına tam orta məktəbin birinci sinfinə gedib. 2002-ci ildə məktəbi bitirib və həmin ili ailə Bakıının Zabrat qəsəbəsində məskunlaşıb. Rəşad o vaxtlar fəaliyyət göstərən Beynəlxalq Universitetin hüquq fakültəsinə daxil olub, 2006-cı ildə oranı bitirdikdən sonra 3 aylıq kurs keçərək hərbi xidmətə zabit kimi yollanıb. Əsgəri xidmətini Gədəbəydə keçərkən nümunəvi və peşəkar xidmətinə görə Müdafiə Nazirliyi tərəfindən baş leytenant hərbi rütbəsi ilə dəyərləndirilib. Əsgərlikdən sonra "Azərpoçt"da mühafizə xidmətində çalışıb.

2011-ci ildə sevib-seçdiyi İlahə xanımla evlənib, özünə xoşbəxt yuva qurmuşdu. İki gül balası dünyaya gəlmişdi. 2020-ci ilin sentyabrında xalqımızın başladığı "Dəmir yumruq" mübarizəsinə Rəşad birincilər sırasında qatıldı. Qara buludları yox edib, böyüyən övladlarına işıqlı sabahlar açmaq istəyən Rəşad bir neçə gün əvvəl səfərbərlik üçün qeydiyyatdan keçib və çağırış gəlməyincə, özü komissarlığa gedib oradan hərbi hissəyə yollanıb. Hərbi peşəkarlığı olduğu üçün ilk gündən tağım komandiri kimi döyüş əməliyyatlarına başlayıb. Qubadlı, Zəngilan, Şuşa və Daşaltı döyüşlərində iştirak edib, qəhrəmancasına döyüşüb.

Son döyüşü Daşaltı əməliyyatında olub. İgidliklə, mərdliklə vuruşub. Döyüşçülər oranı azad etdikdən sonra noyabrın 7-də Şuşaya daxil olublar. Tez-tez döyüş yoldaşlarına təkrar edirmiş: "Şuşanı almadan şəhid olmayacağam. Dediyini də elədi. Şuşanın alınmasında qəhrəmanlıqlar göstərdi".

Noyabrın 8-də Şuşanı azad edən qəhrəman Ordumuz Xankəndi istiqamətində irəliləyirdi. Döyüşçülər arasında Rəşad yenə də misilsiz şücaət göstərirdi. Lakin həmin gün İsa bulağı ərazisində gedəndöyüşlərdəRəşadşəhadətəyüksəldi.Noyabrın 22-də Bakıda İkinci Fəxri xiyabanda dəfn olundu.

O gün dünya ağır yük olub üzərinə çökdü İlahənin. İgidi, aslanı, uşaqlarının atası, baş yoldaşı bayrağa bükülü tabutda gəlmişdi evinə. Bir gerçək vardı, nə onun göz yaşları quruyacaqdı, nə bu amansız dünya Rəşad kimi oğulları aparmaqdan yorulacaqdı...

Tək yolu var gənc qadının: Rəşadın ən qiymətli əmanətlərini – Fatiməni və Öməri ona layiq böyütmək və qəhrəmanını son nəfəsinədək ruhunda yaşatmaq. Yuxarıda qeyd etdiyim kimi, o, bütün bunları sədaqətlə yerinə yetirir.

Öz şəhid izini torpağa salan Rəhimov Rəşad İlqar oğlu ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif olunmuşdur. Rəşadın uğrunda canından keçdiyi Qarabağ Azərbaycandır!

***Əminə YUSİFQIZI,***
***Əməkdar jurnalist***

# “Yaşıl dünya” naminə həmrəylik



## Bakı Media Mərkəzi COP29-un rəsmi yayım şirkəti olacaq




**Bakıda keçiriləcək COP29-un dünya ictimaiyyətinə təqdim olunması üçün tədbir məkanı olan Bakı Stadionundan yüksək keyfiyyətli yayımı təmin etmək məqsədilə Bakı Media Mərkəzi iqlim konfransının rəsmi yayım şirkəti təyin olunub.**

COP29 Azərbaycan Əməliyyat Şirkətinin mətbuat xidmətindən redaksiyamıza verilən məlumata görə, Azərbaycanın peşəkar audiovizual istehsalçısı olan Bakı Media Mərkəzi dünya izləyicilərinə COP29 çərçivəsində yer alacaq qlobal iqlim fəaliyyətini canlı rejimdə onlayn izləmək imkanını yaradacaq. Konfransın hər bir anını qeydə almaq məqsədilə tədbir məkanının müxtəlif zalları, auditoriyaları, görüş otaqları və digər müxtəlif sahələrində yerləşdiriləcək müasir yayım avadanlıqları sayəsində şirkət konfrans çərçivəsində keçirilən bütün mühüm tədbirlərin və müzakirələrin fasiləsiz canlı yayımını təmin edəcək.

İrimiqyaslı tədbirlərin yayımında geniş təcrübəyə malik olan Bakı Media Mərkəzi tərəfindən COP29 üçün müasir texnoloji imkanlarla yanaşı, peşəkar işçi heyəti də cəlb ediləcək. Belə ki, yayımın reallaşdırılması məqsədilə şirkət tərəfindən 300-dən çox yayım mütəxəssisi cəlb olunacaq. Bakı Media Mərkəzinin COP29-la əməkdaşlığı yalnız yayım ilə məhdudlaşmayaraq, həmçinin foto və videomateriallarla da təmin ediləcək.

Rəsmi yayım şirkəti olaraq Bakı Media Mərkəzi ilə əməkdaşlıq mühüm qlobal əhəmiyyətli tədbir çərçivəsində istehsal edilən multimedia materiallarının qorunmasına dair zəmanəti də əhatə edir.

Bu tərəfdaşlıq COP29-un beynəlxalq səviyyədə yüksək standartlara uyğun media təqdimatını gerçəkləşdirməklə yanaşı, konfransın ehtiva etdiyi əsas mesajları qlobal auditoriyaya effektiv və geniş miqyasda çatdırılmasına xidmət edəcək. Belə ki, bu vacib vəzifəni icra edəcək Bakı Media Mərkəzi yüksək keyfiyyətli yayım vasitəsilə tarixi məqamların əlçatan olmasını təmin etmək istiqamətində daima səy göstərdiyini bir daha nümayiş etdirir. Tərəfdaşlıq çərçivəsində şirkətin zəngin təcrübəsi, müasir yanaşması və peşəkarlığı nəticəsində COP29 konfransının dünyanın istənilən nöqtəsindən istənilən şəxs tərəfindən fasiləsiz izlənməsinə şərait yaradılacaq.

## Könüllülərin son hazırlığı

**Qlobal iqlim konfransına hazırlıq prosesi çərçivəsində COP29 könüllüləri üçün 3 ay davam edən geniş təlim proqramının yekun mərhələsi başa çatıb. Proqram çərçivəsində COP29-un Mavi Zonasında işə cəlb olunacaq könüllülər məkan təlimləri ilə sonuncu hazırlıq mərhələsinə yekun vurublar.**

COP29 Azərbaycan Əməliyyat Şirkətinin məlumatına əsasən, məlumat sessiyası, məkan sessiyası və konfrans məkanında gəzinti olmaqla üç hissədən ibarət yekun mərhələyə 1200 könüllü qoşulub. Sonuncu təlim mərhələsinin məqsədi könüllüləri konfrans ərəfəsində tədbir məkanı ilə yaxından tanış etmək və sessiya müddətində onların icra edəcəkləri vəzifələr barədə ətraflı məlumat vermək olub.

Carçalova çıxışında Könüllülük Proqramının konfransa hazırlıq prosesinin vacib istiqamətlərindən olduğunu qeyd edərək ötən aylar ərzində könüllər üçün təşkil olunan təlimlərdən danışıb. O, iqlim konfransı tədbirinin uğurlu icrasında əhəmiyyətli payın öz fədakar əməyi, nümunəvi davranışları ilə seçilən dayanıqlılıq səfirləri kimi çıxış edəcək könüllülərin üzərinə düşdüyünü vurğulayıb.



COP29 Könüllülük Proqramı bu ilin may ayında elan edilib. Proqrama qoşulmaq üçün müraciət edən 16 min nəfərdən çox namizəd bir neçə mərhələdən ibarət seçim prosesindən keçib və nəticədə müraciət edənlərdən 3 min nəfəri COP29 könüllüsü olaraq seçilib. COP29-a hazırlıq mərhələsində Könüllülük Proqramının iştirakçılarının hərtərəfli məlumatlandırılması və səriştələrinin artırılması məqsədilə ötən aylar ərzində müxtəlif istiqamətlərdə bir sıra intensiv təlimlər reallaşdırılıb.

Tədbirin açılışında çıxış edən COP29-un müəyyən edilmiş Prezidenti Muxtar Babayev iqlim konfransının həm yerli, həm də qlobal əhəmiyyətindən danışaraq bu prosesdə gənclərin, eləcə də könüllülərinin vacib rolunu vurğulayıb. O, könüllülərin üzərinə düşən vəzifələri uğurla icra edəcəklərinə əminliyini ifadə edib.

COP29 Azərbaycan Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri, Əməliyyatlar üzrə baş icraçı Nərmin

Tədbirə onlayn bağlantı vasitəsilə qoşulan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stil COP29 könüllülərini sözügedən qlobal əhəmiyyətli tədbirdə iştirak etmək şansını qazandıqlarına görə təbrik edib, bu məsuliyyətli prosesin bir hissəsi olduqlarına görə minnətdarlığını çatdırıb ifadə və onlara uğurlar arzulayıb.

Tədbirin davamında BMT-nin Baş katibi Antonio Quterreşin COP29 könüllülərinə videomüraciəti də təqdim olunub.

Tədbirin sonunda COP29 könüllülərinin qarşısında, həmçinin çıxış edən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Konfrans İşləri şöbəsinin direktoru Vasim Mir Azərbaycanın bu konfransa ev sahibliyi etməsinə hazırlıqların və təşkilatçılığın yüksək səviyyədə icra edildiyinə xüsusilə diqqət çəkib və COP29 könüllülərinin konfransın səmərəli təşkilinə töhfələrini verəcəyinə inandığını diqqətə çatdırıb.

## “ACWA Power” də COP29-un tərəfdaşıdır




**Dünyanın ən böyük duzsuzlaşdırılmış su təchizatçısı, “yaşıl” hidrogen sənayesində novatorçu və qlobal enerji keçidi üzrə lider olan “ACWA Power” şirkəti COP29 tədbirinin enerji və su məsələləri üzrə rəsmi tərəfdaşı seçilib.**

Səudiyyə Ərəbistanı şirkəti COP29 tədbiri zamanı davamlı enerji və su həllərinə dair ciddi ehtiyac barədə məlumatlılığı artırmaq məqsədilə öz platformasından istifadə edəcək. Şirkətin məqsədi qlobal enerji sənayesində çalışan həmkarları, eləcə də potensial tərəfdaşlar və iqlim müdafiəçiləri ilə əməkdaşlıq əlaqələri qurmaq və enerji keçidində irəliləyiş əldə etmək üçün bu unikal platformadan yararlanmaqdır. Dialoq və ideya mübadiləsi vasitəsilə “ACWA Power” COP29-un rəsmi tərəfdaşları ilə birlikdə enerji keçidində irəliləyişə nail olmağı və öz davamlılıq təşəbbüslərini nümayiş etdirmək fürsətindən yararlanmağı planlaşdırır.

“ACWA Power” şirkətinin baş icraçı direktoru Marko Arçelli bildirib ki, Bakı konfransı enerji keçidinə doğru addım atan hər kəsə bərpaolunan enerji və su təhlükəsizliyi həllərini genişləndirmək üçün zəruri olan mütərəqqi siyasətləri müdafiə etmək imkanı verir. Onun sözlərinə görə, COP29-a qatılmaqla “ACWA Power” şirkəti qlobal tərəfdaşlıqlarını gücləndirir, yalnız bərpaolunan enerji sahəsində deyil, həm də hər kəs üçün davamlı və ədalətli bir gələcək yaratmaqda lider olaraq mövqe qazanır.

“ACWA Power”in öz qarşısına 2050-ci ilə qədər xalis sıfır emissiyaya nail olmaq kimi iddialı məqsədlər qoyduğunu vurğulayan baş icraçı direktor deyib ki, “NEOM yaşıl hidrogen layihəsi” kimi aparıcı layihələr şirkətin iqlim dəyişmələri ilə mübarizənin fəal iştirakçısı olmaqla yanaşı, həm də qlobal miqyasda iqtisadi artım imkanları yaradan innovativ həllər təklif etməsinin göstəricisidir.

Qeyd edək ki, 2004-cü ildə Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərində yaradılan “ACWA Power” şirkətinin hazırda 4 mindən çox işçisi var. Yaxın Şərq, Afrika, Mərkəzi Asiya və Cənub-Şərqi Asiyanın 13 ölkəsində fəaliyyət göstərən şirkətin portfoliosu 94,3 milyard ABŞ dolları dəyərində fəaliyyət göstərməkdə, hazırlanma mərhələsində və ya tikilməkdə olan 90 layihədən ibarətdir. Şirkət icra etdiyi layihələr vasitəsilə 65 GW enerji ilə yanaşı, gündə 8 milyon kubmetr duzsuz su hasil edə bilir.

Yeri gəlmişkən, “ACWA Power” şirkəti Azərbaycanın da “yaşıl” enerji sahəsində əsas tərəfdaşlarından biridir. Şirkət hazırda ölkəmizdə 240 meqavatlıq “Xızı-Abşeron” külək enerjisi stansiyasının inşasını həyata keçirir. Stansiyada quraşdırılacaq hər birinin gücü 6,5 meqavat təşkil edən 37 külək turbini vasitəsilə ildə 1 milyard kilovat-saat elektrik enerjisi istehsal olunacaq. Bu isə il ərzində 220 milyon kubmetr təbii qaza qənaət etməklə 400 min tondan artıq karbon emissiyasının atmosferə atılmasının qarşısını almağa və 300 min evi elektrik enerjisi ilə təmin etməyə imkan verəcək.

Bundan əlavə, şirkət Azərbaycanın Energetika Nazirliyi ilə ölkədə 1 qiqavat gücündə yerüstü və 1,5 qiqavat gücündə dəniz külək elektrik stansiyalarnın tikintisi imkanlarının öyrənilməsi və hidrogen layihələrinin həyata keçirilməsi ilə bağlı memorandum imzalayıb. Bundan əlavə, “ACWA Power” həm də Azərbaycan hökumətinin Qarabağ və Şərqi Zəngəzurda “yaşıl enerji” zonası yaratmaq təklifinə müsbət cavab verən iki şirkətdən biridir. Belə ki, adı çəkilən şirkət növbəti mərhələdə bu ərazilərdə külək və günəş elektrik stansiyalarının tikintisini məqsədəuyğun hesab etdiyini bildirib.

## Qarabağda elektrik doldurma məntəqələri

### *İlin sonunadək onların sayı 20-yə çatdırılacaq*

**Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyindən redaksiyamıza verilən məlumata görə, elektrik avtomobillərdən istifadə işğaldan azad edilmiş ərazilərdə daha təmiz ətraf mühitin formalaşdırılmasına müsbət təsir göstərən mühüm amillərdən biridir.**



Qeyd edək ki, bu məqsədlə 2024-cü ilin sonunadək həmin ərazilərdə, ümumilikdə, 20 elektrik doldurma məntəqəsinin quraşdırılması planlaşdırılıb. Həmin bölgələrdəki 6 məntəqədə (“Zəngilan” yarımstansiyası, “Cəbrayıl” İntelektual Tədris, “Xocalı” Rəqəmsal İdarəetmə mərkəzləri və s.) üzrə, ümumilikdə, 12 elektrik doldurma qurğusu işə salınıb. Eyni zamanda, Zəngilan şəhərində Konqres mərkəzin həyətində 3, Şuşa şəhərində “Şuşa Otel və Konqres Mərkəzi”-nin avtomobil parkında 2 elektrik doldurma qurğusu quraşdırılıb.

## “Azercell”in konfransa telekommunikasiya dəstəyi

**“Azercell Telekom” Məhdud Məsuliyyətli Cəmiyyəti COP29-un rəsmi telekommunikasiya tərəfdaşı qismində çıxış edərək davamlı və dayanıqlı inkişafa, ətraf mühitin mühafizəsinə sadiqliyini bir daha nümayiş etdirir. COP29-la tərəfdaşlıq çərçivəsində şirkət dayanıqlılıq strategiyasını gücləndirməklə yanaşı, daha “yaşıl” gələcək üçün yeni əməkdaşlıqların qurulmasını hədəfləyir.**




“Azercell Telekom” MMC-nin prezidenti Zərinə Zeynalova şirkətin cəmiyyət və ətraf mühit qarşısında üzərinə götürdüyü sosial məsuliyyəti vurğulayıb: “Azercell” Azərbaycanın lider mobil operatoru və ölkənin rəqəmsal ekosisteminin aparıcı qüvvələrindən biridir. Şirkət ölkə boyu tətbiq etdiyi ekoloji cəhətdən təmiz texnologiyalar və bərpaolunan enerji həlləri vasitəsilə ətraf mühitə təsirini minimuma endirməyə çalışır. İqlim dəyişikliyinə qarşı mübarizə səylərini dəstəkləməklə biz korporativ idarəetmədə yeni standartlar da müəyyən edirik. Birlikdə daha dayanıqlı və “yaşıl” gələcək üçün zəmin yarada biləcəyimizə inanıram”.

COP29 Azərbaycanın İdarə Heyətinin sədri Nərmin Carçalova “Azercell”in təcrübəsinin iqlim konfransının uğurla həyata keçirilməsinə mühüm töhfə verəcəyini bildirib: “Azercell” ölkəmizdə ən böyük bazar payına sahib mobil operator olaraq telekommunikasiya məkanında böyük nüfuza malikdir. Hər zaman respublikamıza innovativ texnoloji yenilikləri gətirən “Azercell” COP29-da sosialyönümlü layihələrini, xüsusilə də iqlim fəaliyyəti ilə bağlı gerçəkləşdirdiyi təşəbbüsləri nümayiş etdirmək imkanı əldə edəcək”.

“Azercell”in dayanıqlılıq siyasəti müxtəlif ekoloji təşəbbüslər vasitəsilə karbon emissiyalarının azaldılmasına, enerjidən istifadənin optimallaşdırılmasına, su və yanacaq səmərəliliyinin artırılmasına yönəlib. Şirkət 2017-ci ildən etibarən ölkə ərazisində günəş enerjisi ilə işləyən baza stansiyalarının tətbiqinə başlayıb.

Qeyd edilib ki, təkcə Qarabağda lider mobil operatorun 35 “yaşıl” baza stansiyası fəaliyyət göstərir və onların enerji tələbatının 60 faizi bərpaolunan enerji hesabına qarşılanır. Həmçinin “Azercell” bir sıra qlobal iqlim təşəbbüslərini də dəstəkləyir. Belə ki, BMT-nin Qlobal Sazişinə qoşulmaqla “Azercell” digər bazar iştirakçılarını da ətraf mühitlə bağlı səylərini gücləndirməyə təşviq edir.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***



Möhtərəm Prezident İlham Əliyev. Sizin – yenilməz sərkərdəmizin və uzaqgörən Liderimizin rəhbərliyi ilə Azərbaycan torpaqlarının işğaldan azad edilməsi, dövlətimizin ərazi bütövlüyünün, suverenliyinin bərpa olunması ilə nəticələnən Tarixi Qələbə ölkəmizin dünya birliyindəki mövqeyini daha da yüksəltmişdir.

Cənab Prezident, Qalib Ali Baş Komandan!

Sizi və xalqımızı Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış 8 Noyabr QƏLƏBƏ BAYRAMI münasibətilə ürəkdən təbrik edirik. İnanırıq ki, Sizin rəhbərliyinizlə Azərbaycan dünyanın ən qüdrətli dövlətlərindən birinə çevriləcək!

**“Sabirabad-konserv” ASC-nin kollektivi**




Möhtərəm Prezident, Qalib Ali Baş Komandan! Sizi və ən yaxın silahdaşınız olan Birinci vitse-prezident Mehriban xanım Əliyevanı, həmçinin xalqımızı 8 Noyabr Zəfər Bayramı münasibətilə ürəkdən təbrik edirik.

Sizin işğal altındakı torpaqlarımızın azad edilməsi uğrunda göstərdiyiniz iradə və qətiyyət sayəsində İkinci Qarabağ müharibəsində şanlı Qələbə qazandıq. Həmin gün Qarabağ münaqişəsinə ölkəmizin möhtəşəm Qələbəsi ilə nida qoyduğunuz gündür. İşğal altında olan torpaqlarımızın düşmən tapdağından qurtulması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrilmişdir.

Cənab Prezident, Sizə, ən yaxın silahdaşınız olan Birinci xanım Mehriban Əliyevaya dövlətimizin daha da inkişafı naminə yorulmaz fəaliyyətinizdə yeni-yeni uğurlar, doğma Azərbaycanımıza rifah və əmin-amanlıq arzulayırıq.

**“Aqro-Az” MMC-nin kollektivi**

## Hərbi media-tur

# Şuşa zəfəri əbədi qürur mənbəyimizdir

**Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Şuşada xidmət edən hərbi qulluqçuların döyüş hazırlığı və döyüş növbətçiliyi, eləcə də onların sosial-məişət şəraiti ilə tanış olmaq məqsədilə kütləvi informasiya vasitələrinin nümayəndələri üçün media-tur təşkil edilib. Media təmsilçiləri Şuşada çəkilişlər aparıb və Vətən müharibəsində göstərilən qəhrəmanlıq nümunələrini ictimaiyyətə çatdırmaq məqsədilə hərbçilərdən müsahibələr götürüblər. Şuşa döyüşünün iştirakçıları torpaqlarımızın işğaldan azad olunması uğrunda aparılan hərbi əməliyyatlarından xatirələrini media nümayəndələri ilə bölüşüblər.**

Media-tur çərçivəsində Müdafiə Nazirliyi xüsusitəyinatlıların, dəniz xüsusi təyinatlılarının (dəniz piyadaları və “dəniz pişikləri”) və quru qoşunlarının hərbçiləri ilə həmsöhbət olduq. Hərbi qulluqçular onlar üçün yaradılan şəraitdən məmnunluqlarını bildirdilər, azad olunan ərazilərdə xidmət etməkdən qürur duyduqlarını və xidmət növbətçiliyində ayıq-sayıq durduqlarını ifadə etdilər.

Xüsusitəyinatlılar bildirdilər ki, Şuşa zəfəri müharibənin taleyini həll etdi. Bu şəhər elə bir yüksəklikdə yerləşir ki, buraya meşə cığırlarından keçib tankla, yaxud digər ağır silahlarla girmək mümkün deyildi:

– Biz səhəri hava zərbələri, uzaq top atəşləri ilə də azad edə bilərdik. Lakin Şuşa kimi tarixi bir incinin bombardman edilməsi böyük dağıntılara səbəb olacağından komandanlıq bu yolu seçmədi. Yüngül silahlarla meşələri, dərələri keçərək, qayalar, dağlar aşaraq düşməni üzbəüz döyüşdə məhv etmək, Şuşanı işğalçılardan təmizləmək tapşırığı aldıq. Yüngül silah-sursat ilə təchiz edilib qruplara bölünərək Şuşanın sıldırımlarına iplərlə dırmaşaraq şəhərə dörd tərəfdən daxil olub döyüşlərə başladıq.

Böyük itki verən düşmən 6–7 saata Şuşanı tərk etdi. Şəhərə nəzarəti yenidən bərpa etmək məqsədilə ermənilərin çoxsaylı hücum cəhdləri də boşa çıxdı. Qadağan olunmuş “İsgəndər-M” ballistik raketləri atılsa da, bu, heç nəyi dəyişə bilmədi. Prezident, Ali Baş Komandan İlham Əliyev bizim qələbəmizi yüksək qiymətləndirdi, çıxışlarında dəfələrlə bu hünəri xatırlatdı. Bizi Bakı və digər şəhərlərimizin küçələrində insanların qələbə sevinci, təntənələr daha da ruhlandırırdı. Böyükdən-kiçiyə hər kəs Prezidentimizə qoşulub “Əziz Şuşa, sən azadsan”, – deyirdi.

Dəniz piyadaları Hərbi Dəniz Qüvvələrinin tərkibində – suda, quruda, sahilyanı ərazilərdə, sualtında xüsusi əməliyyat fəaliyyəti göstərirlər. Onlar Vətən müharibəsində aktiv iştirak ediblər. Dəniz piyadalarına Qarabağ müharibəsinin gizli qəhrəmanları da deyirlər. Özləri isə Şuşa zəfərini belə xatırladılar:

– Bizdə qorxu deyilən hiss yoxdur. Keçirdiyimiz əməliyyatlarda qat-qat artıq düşməni məhv etmişik, çoxlu qənimət götürmüşük. Bir bölükdən az şəxsi heyətimizlə düşmənin bir taborunu əzib mövqelərindən çıxarıb qaçmağa məcbur etmişik. Qubadlıda cəmi üç hərbçimiz düşmənin nəzarətindəki əraziyə sızıb postdakı bütün erməni əsgərlərini öldürmüşdü.

Biz cəbhənin cənub istiqamətində düşmənin on illərdir möhkəmləndirilmiş istehkamlarının yarılması, Cəbrayılın Soltanlı və Əmirvar kəndləri ətrafında düşmənin üçüncü müdafiə eşelonunu keçmək üçün günlərlə davam edən amansız döyüşlərdə və başqa əməliyyatlarda da uğur qazanmışıq. Arazboyu ərazilərin azad edilməsindən sonra cəbhənin cənub-qərb istiqamətinə, Xocavəndə göndərilmişdik. Qubadlı şəhərində bayrağımızı biz qaldırmışıq. 9 döyüşçümüz şəhid olub, adını zəfər tariximizə yazıb.

Quru qoşunların hərbçiləri də Şuşa qələbəsindən öyünclə söz açdılar:



– Biz müharibə zamanı uzaqmənzilli döyüş vasitələri ilə düşməni ölkəmizdən qovduq, hərbi üstünlüyümüzü açıq şəkildə nümayiş etdirdik. Azərbaycan ordusunun qoşun növləri bir-bir yerdə, nizamla irəliləyib qələbə qazandı. İndi isə azad edilmiş torpaqlarda xidmət etmək qürurvericidir.

Şuşanın ən hündür zirvəsində hərbçilərimizlə söhbət etdikcə biz jurnalistlər də eyni dərəcədə qürurlanırdıq. 4 il əvvəl bu günlərdə respublikamızın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə köməyə yetən mülki insanlarımız, bütövlükdə, ordu–xalq yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, qələbəyə yol açmışdılar. Bu yolu isə bizlərə açan Müzəffər Ali Baş Komandan İlham Əliyev idi. Bu birlikdən vahimələnən, mövqelərini itirən düşmən isə müharibə qanunlarını pozaraq, təxribatlara əl atıb günahsız mülki insanları qətlə yetirməklə müharibə cinayətləri törətdi.

Ermənistanın beynəlxalq səviyyədə Azərbaycanın ərazisi kimi tanınan Qarabağı və ətraf əraziləri 30 il işğal altında saxlaması, bu azmış kimi, təcavüzkarın yeni ərazi iddiaları, atəşkəsin davamlı pozulması və irimiqyaslı hücum əməliyyatları qəbuledilməz idi. Nəticədə, 27 sentyabr 2020-ci ildə əks-hücuma başlayan Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşməni məğlub edib torpaqlarımızı azad etdi. Müharibə dövründə Azərbaycan Silahlı Qüvvələrinin 2907 hərbi qulluqçusu şəhid oldu, minlərlə hərbçi yaralandı.

“Xalq qəzeti”nin səhifələrində zaman-zaman şəhidlər və qazilər barəsində materiallar dərc edilib. Budəfəki qəhrəmanımız Şuşa uğrunda gedən döyüşlərdə yüksək fədakarlıq göstərmiş Azərbaycan Ordusunun baş giziri Yaşar Hüseynovdur. O, 12 mart 1981-ci ildə Ağdam rayonunun Abdal kəndində anadan olub. 1992-ci ildə doğma kəndi işğal edildikdən sonra ailəsi ilə Bərdə rayonunda qaçqın həyatı yaşayıb. Orta təhsilini 1999-cu ildə Bərdə rayonunda başa vurub. Uşaq yaşından düşmənin məkrli, xain, qaniçən olmasının şahididir. Ailənin sonbeşiyi olan Yaşar gözünü açandan savaş, faciə görüb, döyüşçü kimi də böyüyüb.

Birinci Qarabağ müharibəsi zamanı Yaşarın 3 qardaşı Ağdam ətrafında gedən döyüşlərə qatılıb. Qardaşı Füzuli Hüseynov 1994-cü il aprelin 16-da Ağdamın Yusifcanlı istiqamətində gedən döyüşlərdə şəhid olub. Digər qardaşları Sadiq Hüseynov və Fərman Hüseynov müharibə veteranıdır. Uşaq yaşında yaranmış intiqam hissi Yaşarı müqəddəs torpaqları düşməndən azad etməyə yönləndirib. Söhbətim zamanı Yaşar dedi ki, o özünü illər boyu şəhid qardaşı Füzuli Hüseynovun qisasını almağa və işğal altında olan torpaqlarda Azərbaycan bayrağını dalğalandırmaq uğrunda savaşa hazırlayıb.

Yaşar 14 yanvar 2000-ci ildə həqiqi hərbi xidmətə qəbul edilib. Həmin ilin avqustunda Azərbaycan Ordusunun nəzdində olan gizir hazırlığı kursuna yazılıb, həyatını, karyerasını hərbi sahəyə bağlayıb. O günləri belə xatırlayır:

– Xidmət zamanı biz hiss edirdik ki, nə vaxtsa müharibə olacaq. Çünki düşmən özxoşuna torpaqlarımızdan getmək istəmirdi. Bu səbəbdən döyüş hazırlığımızı hər gün gücləndirir, təlim-məşqlərimizi artırırdıq. Erməni vandalları nəinki işğal etdiyi torpaqlarımızı qaytarmaq, hətta yeni əraziləri tutmaq məqsədilə təxribatlar törədir, yeni hücüm planı hazırlayırdılar. İrimiqyaslı təxribatı 27 sentyabr 2020-ci ildə həyata keçirmək üçün hücuma başladılar. Bu zaman Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev əks-hücum əməliyyatı tapşırığını verdi.

İlk döyüşü Lələtəpə istiqamətində olan Yaşar Hüseynov o günlərə qayıdır:

– Düşmənin say tərkibi çox idi. Müharibənin ilk günləri ermənilər olduqca hünərli görünürdü. Təxminən, 4–5 saat açıq ərazidə, üzbəüz şəkildə döyüş getdi. Xeyli itki verən erməni qaniçənləri məğlub olaraq dayandıqları mövqedən geri çəkildilər. Onların şəxsi heyət sarıdan, təxminən, 300 nəfərini məhv etmişdik. Lələtəpənin işğaldan azad edilməsində bizim də itkilərimiz oldu – şəhidlər verdik, yaralananlar var idi. Lələtəpənin azad edilməsi olduqca vacib idi. Çünki “Ohanyan xəttinin” başlanğıcına gedən yol oradan keçirdi.

Xüsusitəyinatlıların növbəti azad etdiyi ərazi Cəbrayıl rayonunun yaxınlığında yerləşən yüksəkliklərdən biri olub: “Yadımdadır, həmin təpədə qarşı tərəfin 4 ədəd minaatan silahı, 20-yə qədər hava nəqliyyatlarını zərərsizləşdirmək üçün kompleksi, 1 ədəd tankı, 1ədəd piyadanın döyüş maşını və 1 ədəd topu var idi. Oktyabrın 2-dən 3-nə keçən gecə gərgin döyüşdən sonra həmin yüksəkliyi nəzarətimizə keçirə bildik. Eyni qaydada, düşmən burada da xeyli itki verdi, bəziləri qaçıb digər yüksəkliklərə pənah apardı.

Düşmən bu yüksəkliyin azad edilməsi ilə barışmaq istəmirdi. Yuxarı komandanlıqdan bizə məlumat gəldi ki, ermənilər böyük qüvvə toplayıb tutduğumuz yüksəkliyə sarı irəliləyir, biz təcili mövqeləri tərk edək. Bu bizim üçün ağır sınaq idi. Geri çəkilmək istəmirdik, ancaq irəliyə getmək düşüncəsi var idi. Biz tutduğumuz yüksəklikdən, təxminən, bir kilometr qarşıya irəliləmişdik, düşmən həmin postlara davamlı artilleriya zərbələri endirdi. Düşmənin bir xüsusiyyəti də odur ki, hansı dayaq nöqtələri nəzarətindən çıxırdısa, dərhal öz artilleriyası ilə həmin əraziləri məhv edirdi. Ərazilər alındıqca güc baxımından üstünlüyümüz artır, qənimətlər ələ keçirirdik”.

Dəstə beləcə davam edib on kilometr irəliləyib: “Sol tərəfimizdə Araz çayı, sağ tərəfimizdə Füzuli yerləşirdi. Araz ətrafında və Füzulidə də qızğın döyüşlər gedirdi. Biz koordinantları yuxarı komandanlığa göndərəndə onlar heyrət içində idilər. Çünki bizim geriyə çəkildiyimizi düşünürlərmiş. Tapşırıq verildi ki, arxanı gözləyək, hər tərəfimiz düşmənlə doludur, mühasirəyə düşə bilərik. Növbəti tapşırığa uyğun olaraq iki kilometr sağa – Füzuli istiqamətinə hərəkət edib digər bölmələrimizlə birləşərək irəliyə – Cəbrayıl istiqamətinə hərəkət etməliyik. Beləcə Cəbrayıl rayonunun Şeybəy, Quycaq və əlavə bir neçə kəndlərini düşməndən təmizlədik.

Bundan sonra bizim bölmə rayonun Qaratəpə yüksəkliyini azad etdi. O istiqamətdə daha bir neçə ərazini işğaldan azad etdik. Bundan sonra Cəbrayıl rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib düşməni topaqlarımızdan təmizlədik. Düşmən 30 il ərzində bütün mövqelərini gücləndirmişdi. Məsələn, Qaratəpə yüksəkliyində 5 snayper var idi. Adi halda hər mövqeyə 1 snayper yerləşdirilir. Qaratəpə uğrunda gedən döyüşdə 2 şəhid, 2 yaralımız oldu”.

Xüsusitəyinatlıların bayraq sancdığı Füzuli rayonunun Gorazılı kəndi düşmənin hərbi şəhərciyi olub. Buraya irəliləyərkən onların pusqusuna rast gəliblər: “Hərəkət nöqtəmizi müəyyən edə bilmişdilər. Kəndin köhnə müsəlman qəbiristanlığında 9 yaralımız oldu. Pusqu qurmuş düşmənin 14 əsgərini məhv etdik. Mən də orada yaralanmışdım. Füzuli rayon xəstəxanasına, oradan da Mingəçevir şəhər xəstəxanasına təxliyə olunaraq müalicə aldım. 11 günlük müharibədən sonra yenidən döyüş əməliyyatlarına qayıtdım”.

İgid gizir Xocalının Sığnaq kəndində böyük fədakarlıq göstərib. Bundan sonra növbəti hədəf Şuşanın azad edilməsi olub: “Ruh yüksəkliyi ilə şəhər istiqamətinə hərəkət etdik. Şuşa uğrunda gedən döyüşlər müharibənin taleyini həll etdi. Bu şəhər elə bir yerdə yerləşir ki, buraya tankla, yaxud digər ağır silahlarla girmək mümkün deyildi. Biz buranı hava zərbələri, top atəşləri ilə də azad edə bilərdik. Lakin şəhərin bombardman edilməsi böyük dağıntılara səbəb olacağından komandanlıq bu yolu seçmədi. Yüngül silahlarla meşələri, dərələri keçərək, qayalar, dağlar aşaraq düşməni üzbəüz döyüşdə məhv etmək, Şuşanı düşməndən təmizləmək tapşırığı aldıq. Yolboyu maneələrə rast gəldik. Lakin hədəf Şuşa olduğundan yubanmaq fikrimiz yox idi. Belə də oldu. Şuşa uğrunda gedən qızğın döyüşlər, demək olar ki, silahsız, əlbəyəxa idi. Şəhəri azad etdik. Şuşa şəhərində Duma binasının üzərində Azərbaycan bayrağını sancan, Şuşada ilk azanı verən mən oldum”.

Yaşar Hüseynov İkinci Qarabağ müharibəsindən əvvəl bir sıra əməliyyatlarda da iştirak edib. O, 2014-cü ilin avqustunda Goranboy rayonunun Gülüstan qəsəbəsi yaxınlığında ermənilər tərəfindən ağır yaralanıb. 2016-cı ilin 2–5 aprelində Ermənistanın növbəti təxribatı zamanı Goranboyun Tap Qaraqoyunlu və Tərtərin Talış istiqamətlərində gedən hərbi əməliyyatlarda fərqlənib. Aprel döyüşləri zamanı o, yaralı halda 6 erməni hərbçisini zərərsizləşdirib.

Yaşar Hüseynovun Vətən uğrunda döyüşlərdə xüsusi xidmətləri nəzərə alınaraq ona Prezident İlham Əliyevin sərəncamı ilə ən yüksək fərqlənmə dərəcəsi sayılan “Vətən Müharibəsi Qəhrəmanı” adı verilib. “Cəbrayılın azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə” və “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edilib. Müxtəlif illərdə 1-ci, 2-ci və 3-cü dərəcəli “Qüsursuz xidmətə görə”, 2-ci və 3-cü dərəcəli “Hərbi xidmətdə fərqlənməyə görə”, “Şücaətə görə” medallara, Azərbaycan Silahlı Qüvvələrinin 10, 90 və 95 illiyi, “Azərbaycan Ordusunun 100 illiyi” yubiley medalına layiq görülüb.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***



Hörmətli Prezident İlham Əliyev. Sizi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanı xalqımız üçün unudulmaz gün olan Zəfər Bayramı münasibətilə kollektivimiz adından səmimi qəlbdən təbrik edirik. Bu şanlı Qələbə Sizin yorulmaz fəaliyyətinizin, ölkəyə rəhbərlik edən gündən siyasi uzaqgörənliklə formalaşdırdığınız xarici siyasət və diplomatiyanın, eləcə də, Azərbaycan xalqının həmrəyliyinin məntiqi nəticəsidir.

Bu tarixi Zəfər doğma yurd-yuvalarından didərgin salınmış soydaşlarımızın öz el-obalarına qapılarını açdı. Sizin sayənizdə keçmiş məcburi köçkün soydaşlarımız isti ocaqlarında məskunlaşırlar.

Biz Sizinlə fəxr edir və qürur duyuruq!

**“Laran” MMC-nin kollektivi**

# İsveçdə “Nuhun izləri” sənədli filminin təqdimatı



**İsveçin paytaxtı Stokholmda tanınmış isveçli fotoqraf və rejissor Mikael Silkeberqin “Nuhun izləri” sənədli filminin premyerası keçirilib.**

8 Noyabr Zəfər Gününə və Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş tədbirdə bildirilib ki, “Nuhun izləri” filmi Azərbaycan Respublikasının İsveç Krallığındakı Səfirliyinin təşəbbüsü, UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının layihəsi çərçivəsində Naxçıvanda çəkilib. Film Naxçıvan və onun qədim tarixindən, əfsanəyə görə, gəmisi Gəmiqaya dağına enmiş Nuh Peyğəmbərə gedib çıxan tarixdən bəhs edir.

Azərbaycan Respublikasının İsveç Krallığındakı səfiri Zaur Əhmədov qeyd edib ki, Azərbaycan xalqı bugünlərdə iki mühüm hadisəni qeyd edir: Zəfər Bayramı və Naxçıvan Muxtar Respublikasının 100 illiyi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müdrik rəhbərliyi altında əldə olunan zəfər yüz minlərlə azərbaycanlının öz doğma torpaqlarına qayıtmasına imkan verir. “Azərbaycan mədəniyyətinin əsl vurğunu olan əziz dostumuz Mikael Silkeberq Naxçıvana səfər edərək onun zəngin mədəniyyətini və tarixini şəxsən öyrənmək və möhtəşəm sənədli film çəkmək üçün gəlmişdir”, – deyə diplomat bildirib. O, həmçinin məlumat verib ki, bu, Mikael Silkeberqin Azərbaycana həsr etdiyi 3-cü filmdir. Digər iki film – “Xarıbülbül əfsanəsi” və “Odinin kodu” cümə axşamı, 7 noyabrda Parisdə nümayiş olunacaq.

Daha sonra çıxış edən Azərbaycan Prezidentinin Naxçıvandakı səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli bildirib ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının 100 illiyi yüksək səviyyədə qeyd edilir. Yeni film də Naxçıvanın mədəni irsinin qorunması və təşviqinə verilən dəyərin daha bir ifadəsidir.

Filmin quruluşçu rejissoru Rəhim Sadıxbəyli çıxış edərək çəkilişlərdə iştirak edən Naxçıvan Dövlət Dram Teatrının kollektivinə və Naxçıvan Mədəniyyət Nazirliyinə təşəkkürünü bildirdi.

Qeyd edək ki, tədbirdə müxtəlif ölkələrin İsveçdə akkreditə olunmuş diplomatları, diaspor nümayəndələri, yerli KİV təmsilçiləri və xarici qonaqlar olmaqla yüzdən çox insan iştirak edib.

***XQ***




# Qoy, Zəfər güllərimiz heç zaman solmasın!

**Azərbaycan xalqının taleyində tarixi önəm daşıyan elə günlər var ki, onun gələcək həyatını müəyyən edən mühüm başlanğıclar sayılır. Məhz 8 Noyabr 4 il əvvəl belə günlərin sırasına yazıldı. 2020-ci ilin qızıl payızı Vətən müharibəsində qazanılan misilsiz Zəfəri çağdaş tariximizə qızıl hərflərlə yazdı.**

Artıq 4-cü ildir ki, xalqımız noyabrın 8-ni milli qürur, qələbə və zəfər günü kimi qarşılayır. 8 Noyabr 30 illik həsrəti vüsala qovuşduran təntənə günüdür.

2020-ci il sentyabr ayının 27-dən başlayan, 44 gün davam edən və işğal altındakı torpaqlarımızın yağı tapdağından təmizlənməsi ilə nəticələnən Vətən müharibəsində müasir tariximizin şərəfli səhifələri yazıldı. Ali Baş Komandan, Prezident İlham Əliyevin hakimiyyətdə olduğu 18 il ərzində apardığı uzaqgörən, uğurlu xarici siyasət bu müqəddəs savaşda zəfər zirvəsinə yetişdi. Uzun illər haqsızlıqla üzləşən, dədə-baba torpaqlarından didərgin düşən Azərbaycan xalqı öz gücü ilə ədaləti bərpa etdi.

Beləliklə, xalqımız dövlət, ordu birliyi ilə tapdalanan haqqını, alçaldılmış qürurunu dəmir yumruğun gücü ilə geri qaytardı. Bu birlik, bu güc dünyaya ədalətin bərpası dərsi keçdi. Öz müdrik və qətiyyətli liderinin ətrafında sıx birləşmiş Azərbaycan xalqı düşmənlər qarşısında yenilməz olduğunu bu savaşla bütün dünyaya göstərdi.

27 sentyabr 2020-ci il tarixində Azərbaycan xalqı müzəffər komandanının rəhbərliyi altında Zəfər yürüşünə çıxdı. Elə ilk gündən sevinc dolu xəbərlər almağa başladıq. İlk həmlədə Murov yüksəkliyinin azad olunması xəbəri qələbəyə inamı yüksəltdi.

Xalqımız o günlərdə ordumuza həm maddi, həm mənəvi dəstəyini əsirgəmirdi. Çünkü illərdən bəri arzuladığımız qələbəyə addım-addım yaxınlaşırdıq. Xalqın intiqam coşğusu ordumuzun qələbə ruhunu daha da alovlandırırdı. Vətən savaşçıları ilə xalqın istəyinin bir yönü var idi: yalnız irəli!

Həmin günlərdə Ali Baş Komandanın xalqa müraciətlərini sevinc və qürurla qarşılayırdıq. Prezident İlham Əliyev həm də informasiya savaşında Azərbaycanın ədalətli Vətən müharibəsinin mahiyyətini dünya ictimaiyyətinə çatdırır, hər bir təxribatçı sualı məharətlə cavablandırırdı. Artıq dünya Azərbaycanın haqq səsini eşitməyə başlamışdı. “Qarabağ Azərbaycandır!” gerçəyinin nidasını qoymağın vaxtı çatmışdı.

Prezident İlham Əliyev çıxışlarının birində demişdir: “Biz haqlıyıq, çünkü biz öz torpaqlarımızda vuruşuruq, öz torpaqlarımızda şəhidlər veririk. Bizim savaşımız müqəddəs savaşdır, bizim işimiz haqq işidir”. Xalq öz rəhbərinin çıxışlarından ruhlanır, qələbəyə əminlik artırdı. Ordumuzun ən yüksək döyüş avadanlıqları ilə, müasir silahlarla, güclü texnika ilə, pilotsuz uçuş aparatları ilə təhciz edilməsi qələbəni günbəgün yaxınlaşdırırdı.

Oktyabr ayının 3-də Suqovuşanın düşmən tapdağından azad olunması Böyük Qələbənin qaranquşu idi. Oktyabırı 4-də Cəbrayıl şəhərinin azad olunması ilə düşmən xeyli geri oturduldu. Ordumuzun gücü qarşısında tab gətirməyən düşmən silah-sursatını, döyüş texnikasını qoyub qaçırdı. Bu məğlubiyyətlərinin əvəzini işğalçı quldurlar dinc əhalidən, günahsız körpələrdən çıxırdı. Terrorçuluğu dövlət siyasətinə çevirmiş Ermənistan öz xislətini misilsiz rəzalətlə göstərirdi.

Oktyabr ayının 4-də Gəncə şəhəri raket hücumuna məruz qaldı. Bu zaman 1 mülki şəxs şəhid oldu, 30-dan çox insan yaralandı.

5 oktyabrda növbəti hücum zamanı daha 3 nəfər yaralandı. 8 oktyabrda düşmən Gəncədəki yaşayış məskənlərini, obyektləri hədəf aldı. 4-cu dəfə Gəncə daha böyük, daha dağıdıcı raket hücumuna məruz qaldı. Bu zaman 10 mülki şəxs terror qurbanı oldu, 40-dan çox insan isə yaralandı. Oktyabrın 17-də düşmən cəbhədəki məğlubiyyətinin əvəzini yenə də günahsız körpələrdən çıxdı. Bu terror aktı zamanı 16 Gəncə sakini şəhid oldu, 55 nəfər isə yaralandı.

Bu vəhşiliklər beynəlxaq qurumlar tərəfindən qınanılsa da, düşmən öz xislətindən əl çəkmirdi. Azğın düşmən oktyabr ayının 27-də Bərdə rayonuna raket hücumları ilə zərbələr endirdi. Terror aktı zamanı 27 nəfər həlak oldu,70-dən çox insan yaralandı. Döyüş əməliyyatları getməyən bölgələrimizə belə xain hücumlar Ermənistanın terrorçuluq siyasətinin açıq nümunəsi idi.

Bütün bu ağır sınaqlardan üzüağ çıxan Azərbaycan xalqının isə mübarizə ruhu daha da alovlanırdı. Ordumuz bu terror aktlarının cavabını döyüş meydanında daha kəskin, daha amansızlıqla verirdi. Düşmən ordusunun yüzlərlə döyüş texnikasını, minlərlə canlı qüvvəsini məhv edən müzəffər ordumuz günahsız körpələrin qısasını alırdı. “Dəmir yumruq ”əməliyyatı uğurla davam edirdi.

Oktyabın 9-da Hadrutun, 17-də Füzulinin, 20-də Zəngilanın, 25-də Qubadlının azad olunması ilə düşmənə layiqli cavablar verildi. Müharibənin kulminasiya nöqtəsi Şuşa şəhərinin əlbəyaxa döyüşlərlə azad edilməsi oldu. Hərb tariximizə qızıl hərflərlə yazılmış Şuşa döyüşləri ordumuzun mübarizə əzminin, Vətən sevgisinin, qisas hissinin ən yüksək zirvəsi idi. Şuşaya sıldırım qayalardan ildırım sürəti ilə qalxan igidlərimizin şücaəti dünyanı heyrətə saldı. Bəli, bu şücaəti yalnız haqq uğrunda savaşa çıxanlar göstərə bilərdi.

Şuşanı fəth edən fatehlərimiz müasir hərb tariximizdə yeni qəhrəmanlıq salnaməsi yazdılar. 8 noyabr 2020-ci ildə qədim mədəniyyət beşiyimiz, Pənahəli xanın yurdu, Vaqifin ilham qaynağı, Natavanın xeyirxahlıq meydanı, Bülbülün sənət ocağı qəhrəman Şuşamızın əsarət zənciri 28 il 6 aydan sonra bir zərbə ilə parçalanıb töküldü, qeyrət qalamız azadlığına qovuşdu. Bu məğlubiyyət düşməni kapitulyasiyaya məcbur etdi. Beləliklə, 10 noyabr 2020-ci il tarixində düşmən ağ bayraq qaldırdı. Bu, xalqın, dövlətin və ordunun birgə gücü ilə qazanılmış misilsiz bir qələbə idi.




2023-cü il 19 sentyabr tarixində isə Azərbaycan Silahlı Qüvvələri daha bir zəfərə doğru addımladı. Antiterror əməliyyatları nəticəsində qeyri-qanuni erməni silahlı dəstələri 23 saat içində darmadağın edildi. Düşmən torpaqlarımızdan tamamilə və birdəfəlik qovuldu. Prezdent İlham Əliyevin siyasi iradəsinin nəticəsi olaraq Ermənistan Azərbaycanın diktə etdiyi şərtlər və tələblərlə razılaşmağa məcbur oldu. Beləliklə, qalib ordunun müzəffər komandanı “Qarabağ!” nidasını həm hərb meydanında, həm də siyasi müstəvidə qoymuş oldu.

Artıq regiona yeni gerçəkliklər hakimdir. Bu qələbə regionda qalıcı, davamlı sülhün bərpa olunması üçün lazım idi. Artıq biz azərbaycanlılar boynubükük deyil, qalib dövlətin alnıaçıq, başıdik vətəndaşlarıyıq. Ordumuz 4 il əvvəlin zəfər yürüşlü 44 günündə elə bir tarix yazdı ki, bu hünər yaddaşlarda əbədi dastanı kimi yaşayacaq. Unutmamalıyıq ki, bu dastan igid oğullarımızın qanı ilə, sağlamlığını itirməsi ilə və dəmir yumruğun diktəsi ilə yazılıb.

Qanla yoğrulan Vətən torpaqlarında açan güllər azadlıq saçır, iftixar qoxuyur. Biz çalışmalıyıq ki, şəhidlərimizin qanı ilə sulanmış bu güllər bir daha solmasın. Müstəqilliyimiz və qələbəmiz əbədi olsun!

***Nərmin NƏSİRLİ,***
***ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin tarix müəllimi***






Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyev! Dastanlara bərabər mübarizə nəticəsində İkinci Qarabağ müharibəsində Ermənistanın 30 illik işğalına son qoyuldu. Sizin cəsarətiniz, uzaqgörən siyasətiniz, Azərbaycanın xeyirxahlıq və ümid mücəssəməsi olan Birinci vitse-prezident Mehriban xanım Əliyevanın mənəvi dəstəyi ilə bu gün Azərbaycan dünyada Qalib ölkə kimi tanınır. Dörd ildir ki, xalqımız şanlı Zəfərin sevinci ilə yaşayır. Bu xoşbəxtliyi bizə bəxş edən möhtərəm Prezidentimizlə və Birinci xanımla fəxr edirik, qürur duyuruq.

Əziz Prezidentimiz, Mərhəmətli birinci xanım Mehriban Əliyeva! **“Modern İnkişaf və Ailə” İctimai Birliyi** Sizi xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən misilsiz Qələbə – 8 Noyabr Zəfər Günü münasibətilə səmimi qəlbdən təbrik edir, dogma Vətənimizin – Azərbaycanın adının daha yüksək zirvələrdən eşidilməsi yolundakı fəaliyyətinizə uğurlar arzulayır.

Qarabağ Azərbaycandır və həmişə də Azərbaycan olaraq qalacaqdır!

**“Modern İnkişaf və Ailə” İctimai Birliyinin kollektivi**

# *Qələbə qanadlı nəğmələr*

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə reallaşan 44 günlük Zəfər Yürüşü Azərbaycanı dünyaya qalib xalq olaraq tanıtdığı kimi, döyüşən poeziyamızın da, necə deyərlər, belini dikəltdi, şairlərin “Qələbə” hayqırtıları dağda-daşda əks-səda verdi. On illərin ah-ufuna son qoyduq, igidlərimizin ulduz-ulduz alışıb yanan arzuları Gün kimi, Ay kimi zirvələrin başından gülümsündü.**

**Zəfəri qazanan şəhidlərin arasında şairlər də vardı. Onlardan biri – Qubanın Qonaqkənd qəsəbəsindən olan Orxan Ömərov bəlkə də son nəfəsində deyib bu misraları:**

**“Çox ağırdı bizim döyüş yolumuz,**
**Düşməndi sağ-solumuz.**
**Yenə də qorxmayırıq,**
**Mübariz kimi oğullardı**
**dəyişməz simvolumuz...”**

**Bu gün Böyük Zəfərimizin 4-cü ildönümüdür. Sabah artıq 15-ci dəfə Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününü qeyd edəcəyik. Daha üç gün sonra ölkəmizdə Konstitusiya Günü olacaq. Bəlkə də İlahidən gələn bir ardıcıllıqdır: Zəfər qazanıb, zirvələrə Bayraq taxıb, Konstitusiyada təsbit olunan suverenliyimizi tam təmin eləmişik. Bir-birindən gözəl bayramlarımızın yoluna işıq tutan, urvatını daha da artıran Zəfər Günü təntənələri bədii sözün qüdrəti ilə daha da rövnəqlənir, pardaqlanır.**

**Əziz oxucular! Biz də qəzetimizin bayram nömrəsinin bu səhifəsində həmin bədii nümunələrin bir qismini ipə-sapa düzərək, sizlərə təqdim edirik.**

***XQ***



*Bəxtiyar Vahabzadə*

**BAYRAQ**

Torpağım üstünə kölgələr salan
Mənim varlığımın cilası-bayraq.
Zəfərdən doğulmuş
Göytürkdən qalan
Qurdbaşlı bayrağın balası bayraq.

Üçrəngli bayrağın kölgəsində mən
Qaraca torpağı vətən görmüşəm.
Zəfər güllərini dövri-qədimdən
Bayraq işığında bitən görmüşəm.
Bayraq mənliyimdir, bayraq kimliyim,
Bayraq – öz yurduma öz hakimliyim.

Harda əcdadımın ayaq izi var,
Bu zəfər bayrağım orda dikəlsin.
Keçdiyi yerlərdə dağlar, yamaclar
Onun hüzuruna salama gəlsin.
Tarixdən qədimdir, zamandan qoca
Mənim bayrağıma sancılan hilal.
Aləmə nur saçdı tarix boyunca
Məbədlər başına tac olan hilal.

Daim ucalasan! Savaş günündə
Əsgər silahıyla səni tən görüm.
Yalnız zəfər çalmış şəhid önündə
Səni alqış üçün əyilən görüm.

*Adilə Nəzər*

**EY VƏTƏN**

Qış günündə üzdə çiçək açdıran,
Gecəmizə gün işığı saçdıran,
Yağıları el-obadan qaçdıran
Bu zəfərin mübarəkdir, ey vətən!

Səman geniş, hey uçduqca uçasan,
Torpağını ana kimi qucasan,
Qələbənlə Qaf dağından ucasan,
Bu zəfərin mübarəkdir, ey vətən!

Olmaz imiş, sözdür, dostu düşənin,
Dostu aldı qəlbin “qəlbişüşənin”,
Söylənəcək yüz il fəthi Şuşanın,
Bu zəfərin mübarəkdir, ey vətən!

Haqq deyənlər, haqq yolundan azdılar,
Tarix boyu sənə quyu qazdılar...
Oğulların şanlı tarix yazdılar,
Bu zəfərin mübarəkdir, ey vətən!

Qürurluydu bu Qarabağ səfəri…
Bu torpağın hər oğlu, hər nəfəri,
Qanımızla qazanmışıq zəfəri,
Bu zəfərin mübarəkdir, ey vətən!

Şuşamızda dağlar başı dumanlı,
Daha bir də kimsə olmaz gümanlı,
Qazin rəşadətli, Şəhidin sanlı,
Bu zəfərin mübarəkdir, ey vətən!

Xarı bülbül gələr bu yaz, səcdənə,
Dursam min il, yenə də az, səcdənə,
Dayanıbdı bütün Qafqaz səcdənə,
Bu zəfərin mübarəkdir, ey Vətən!

**SALAMLAYIRAM**

Döşünə qəlpəni qızılgül kimi,
Taxan Qaziləri salamlayıram.
Düşmən üzərinə coşqun sel kimi,
Axan Qaziləri salamlayıram.

Üz-üzə dayanıb mənfur yağıyla,
Keçib imtahandan can sınağıyla,
Girdiyi meydandan tək ayağıyla
Çıxan Qaziləri salamlayıram.

Gedib babaların şanlı iziylə,
Savaşa atılıb bıçaq-nizəylə…
Gözünü itirib, könül gözüylə,
Baxan Qaziləri salamlayıram.

Payız gətirsə də ömürünün yazı,
“Cəngi”də dil açdı qəlbinin sazı,
Qoymadı zəfərə bizi tamarzı,
O xan Qaziləri salamlayıram.

*Valeh Sefiyev*

**“ZƏFƏR DASTANI”**
**poemasından**

...Bəşər ayıqlığını
Hələ itirməmişdi.
Bütün dünya görürdü:
Ərzin suallarına,
Əsrin suallarına
Mükəmməl, aydın, dürüst
Ali Baş Komandanım
Özü cavab verirdi.
Rəhbərimin dilindən
Hamı bunu eşitdi
Yer də, Göy də şahiddi:
- Qələbəni qazanan
Vətən oğullarının
İgidliyi, mərdliyi
Qüdrəti, hünəriydi!-
Bu söz başdan, binadan
Ali Baş Komandanın
Dilinin əzbəriydi.
Rəhbərimiz dünyanın
Harasına gedirdi,
Böyük iftixar ilə
Haqqı bəyan edirdi.
Xalqımın qüdrətindən
Bütün dünya xalqları
Xəbərdar olurdular.
Bizi istəməyənlər,
Bu gün də lovğalanıb
Qan-qan deyən düşmənlər
İçəridən burxulub,
Əzilib, ovxalanıb
Tarımar olurdular.
Dərin bir köks ötürüb
"Bu nədir?!" deyirdilər.
Qara dəsmal götürüb
Qara da geyirdilər.
Bu döyüşün, zəfərin
Birinci qəhrəmanı
Azərbaycan zabiti,
Cəsur əsgəri idi.
Bütün qələbələrin
Bünövrəsi, əsası
Onların cəsarəti,
Əzmi, hünəri idi.
Ən keçilməz sədləri,
Bəndləri qırırdılar.
Qranit qayaları
Öz yumruqları ilə
Onlar dağıdırdılar.
Ayrı adamlar kimdir?
Zaman Ali hakimdir;
Ağ da bəlli, qara da.
Yüz il bundan sonra da
Bu torpağı ələyin,
Ələk-vələk eləyin
Misqal-misqal yoxlayın –
Hesabı itirməyin,
Yadınızda saxlayın:
Aslan ruhu, cürəti,
Coşqunluğu, şiddəti -
Bizim qanımızdır O.
Bizim atəşimizdir,
Həyacanımızdır O.
Bizim torpağımıza,
Öz Qarabağımıza
Öz qanımız tökülüb.
Doğma Vətənimizdə
Öz qanımız bu qədər
Ətirli, təravətli,
Şöhrətli, şərafətli
Çiçək açıb, gül olub...

*Qaray Göyyurd*

**ŞANLI ŞUŞA ZƏFƏRİ**

Xalqımın bu dünyaya,
“Mən haqlıyam” sözüdü!
Düşmənin sınan beli,
Çiliklənən dizidi
Şanlı Şuşa zəfəri!

Dırnağıyla qayanı,
Daşı yarmaqdı elə!
Mələklərlə əl-ələ
Haqqa varmaqdı elə
Şanlı Şuşa zəfəri!

Zəfərlərin halalı,
Qələbənin xasıdı!
Qanlı şəhidlərimin
Alınan qisasıdı
Şanlı Şuşa zəfəri!

Düşmənlərin gözünü
Tərlan kimi ovmaqdı!
Dünyanı heyran etmək,
Cahanı mat qoymaqdı
Şanlı Şuşa zəfəri!

Allahımın xalqıma
Ədalət baratıdı!
Ordumun dövlətimə
Mərdlik hesabatıdı
Şanlı Şuşa zəfəri!

Ağdamın qayıtması,
Xocalının öcüdü!
Dəmir yumruğumuzun
Gerçək, bariz gücüdü
Şanlı Şuşa zəfəri!

# Şəhid qardaşının kitabı

**Cəlilabad Rayon Veteranlar Təşkilatı şəhid Mübariz İsayevin qardaşı Sakit Üçtəpəlinin “Sən olmayan məzarına gəlmişəm” kitabının təqdimatını keçirib.**




Mərasimdə Müharibə və Əmək veteranları, şəhid ataları, tanınmış yaradıcı ziyalılar, İctimai birliklərin, idarə və müəssisələrin rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak ediblər. Rayon Veteranlar Təşkilatının sədri, şair-publisist Ədalət Salman qeyd edib ki, qəhrəman şəhidlərimiz haqqında kitabların hazırlanıb nəşr edilməsi böyük əhəmiyyət kəsb edir. Belə əsərlər bu gün gənclərimizin vətənpərvərlik ruhunda tərbiyəsində müstəsna rol oynayır. Bu kitabların təqdimatını keçirib şəhidlərimizi yaxından tanıtmaq məqsədi ilə maarifləndirici tədbirlər təşkil etmək isə bizim vətəndaşlıq borcumuzdur.

Vətən Müharibəsi Qəhrəmanı Rəşad Abdullayevin atası Arif Abdullayev, rayon icra hakimiyyətinin Üçtəpə kənd ərazi nümayəndəsi Hafiz Əliyev, “Qarabağ qaziləri” İctimai Birliyi rayon filialının rəhbəri Maşallah Əliyev, AYB üzvləri Gülbala Teymur, İman Abdulla, Əlövsət Tahirli, Səlamat Biləsuvarlı, Mikayıl İnçəçaylı, Əhməd Qala, Hacı İlqar, Kərbəlayı Zaman, Akif Babayev, müharibə veteranı Qurban Əhməd və başqaları çıxış edərək şəhid Mübariz İsayevə həsr olunmuş kitabın məziyyətlərindən danışıb, şeirlərdən nümunələr oxuyub və müəllifə yeni yaradıcılıq uğurları arzulayıblar.

Sonra Sakit Üçtəpəliyə vətənpərvərlik ruhunda yazdığı əsərlərinə görə rayon Veteranlar Təşkilatının fəxri fərmanı təqdim olunub. “Sən olmayan məzarına gəlmişəm” kitabının müəllifi Sakit Üçtəpəli tədbir iştirakçılarına təşəkkürünü bildirib.

# “Bilirdim ki, gələcəksən”

**Müharibənin ən qanlı günlərinin birində əsgərlərdən biri yaxın dostunun irəlidə vurulduğunu görür. Güllə yağışı altında komandirin yanına qaçıb deyir:**

– İcazə verin, gedib dostumu gətirim.

– Getmək? Nə danışırsan.? Ona güllə dəyib, yəqin çoxdan ölüb. Özünü təhlükəyə atma.

Əsgər israr edir.

“Yaxşı , get…” – deyir komandir.

Möcüzə baş verir.

Əsgər o güllə yağışının altında dostunun yanına sağ-salamat çatır və onu götürüb səngərə qayıdır. Birlikdə səngərin içinə yuvarlanırlar. Komandir qan içindəki əsgəri yoxlayır. Sonra onu səngərə daşıyan dostuna deyir:

– Sənə dedim axı, risk eləmə. Onsuz da ölüb… Dəyməzdi.

– Dəydi, yoldaş komandir.

– Necə yəni dəydi? Görmürsən ki, ölüb?..

– Yenə də dəydi. Çünki onun yanına çatanda hələ sağ idı. Onun son sözlərini eşitmək mənim üçün hər şey idi.

– Nə dedi? Vəsiyyət elədi?

– Yox, yoldaş komandir. Vəsiyyət eləmədi. Sadəcə bunu dedi: “Bilirdim ki, gələcəksən”.

P.S: Bu hekayə 5-ci sinif üçün “Azərbaycan dili” (Bakı, 2024) dərsliyinə aid metodik vəsaitin 1-ci hissəsinin 24–26-cı səhifələrində qrammatik təhlil məqsədilə Rafiq Ələkbəroğlu imzası ilə verilib. Amma Vətən müharibəsi zamanı “FB” sosial şəbəkəsində gənc yazıçı




Kəramət Böyükçöl (30 oktyabr 2020) və Məzahir Məmmədli (2 noyabr) öz səhifələrinə imzasız qoyublar. Yazıçı Natəvan Dəmirçioğlunun “Açar” romanında da belə bir epizod var. Mina Rəşidin “Vətən səsi” onlayn qəzetində (23 fevral 2024) eyni ad altında şəhid baş leytenant Muxtar Qasımlı haqqında verdiyi oçerkdə isə epizod kimi ona aid edilib. Buna görə də müəllifin kim olduğu mübahisələr doğurub. Kimsə öz şərhində əhvalatın illər öncəyə, kimsə hətta Çanaqqala savaşına aid olduğunu bildirib.

Biz də olayın, hekayənin konkret kimə aid olduğunu, bu barədə ilk dəfə kimin yazdığını bilmirik. Hər bir halda, ibrətamiz müharibə səhnəsi kimi Zəfər Günü səhifəsində təqdim etdik.

*Səhifəni hazırladı:*
*Əli NƏCƏFXANLI*
*XQ*




# 44 günün Zəfəri və səssiz savaşlar...

**4 il əvvəl İkinci Qarabağ müharibəsində qazandığımız Böyük Qələbə Azərbaycan xalqının qəhrəmanlıq salnaməsinə qızıl hərflərlə yazılıb. Lakin bu qələbənin qazanılmasında misilsiz pay sahibi olan, taleyi yaralanmış minlərlə insanın həyatı və xalqımızın keçdiyi ağır sınaqlar haqqında çox az adam məlumatlıdır. Onların sırasında qürurla "QAZİ" çağırdığımız Qarabağ müharibəsinin yüzlərlə iştirakçısı bu günün özündə belə iç dünyalarında "səssiz döyüşlər" aparmağa davam edirlər.**

Onları döyüşə vətənpərvərlik, doğma torpağa məhəbbət, xalq qarşısında borc və şərəf hissi aparmışdı. Müharibənin zəfərlə bitməsindən və doğmalarına geri dönməsindən sonra isə onlar başqa bir cəbhənin – öz emosiyaları və xatirələri ilə mübarizə aparan cəbhənin "döyüşçülərinə" çevriliblər. Nə qədər şərəfli olsa belə, müharibənin vurduğu psixi və emosional yaralar indi onlara "ömür yoldaşı"dır və onlar hər gün posttravmatik stress pozuntusu (PTSP) baryerlərini aşmağa çalışan döyüşçülərə çevirliblər.

Şanlı qələbəmiz ərəfəsində Azərbaycan Tibb Universitetinin birinci müalicə fakültəsinin V kurs tələbəsi, psixiatriya üzrə gənc tədqiqatçı Rafiq Aslanovla görüşməyimiz də məhz bu məsələnin hazırki durumunu öyrənmək məramından irəli gəldi. Rafiq neçə vaxtdır ki, 44 günlük Vətən müharibəsi iştirakçıları arasında posttravmatik stres pozuntusu (PTSP) vəziyyəti ilə bağlı tədqiqatlar aparır.

**– Rafiq, eşitdiyimizə görə, ATU-nun Tələbə Elmi Cəmiyyətinin fəaliyyəti çərçivəsində 44 günlük Vətən müharibəsi qazilərinin PTSP vəziyyəti ilə bağlı tədqiqat işi aparırsınız. Sizdə qazilərimizin psixoloji durumunun elmi araşdırılmasına maraq oyadan nə olub?**

– Elmi işimin mövzusunu ATU-nun psixiatriya kafedrasının dosenti Sevda Katibli ilə görüşdən sonra seçdim. Görüşümüz 8 Noyabr Zəfər Günü baş tutdu, bu da özlüyündə simvolik məna daşıyırdı. Biz müharibənin qazilərimizin psixoloji vəziyyətinə ciddi təsir göstərdiyi barədə fikir mübadiləsi apardıq və PTSP kimi aktual və məsuliyyətli mövzunu araşdırmaq qərarına gəldik. Tədqiqat işini həmkarım Ülviyyə Əliyeva ilə birgə araşdırmağa başladıq.

**– Niyə məhz PTSP mövzusu?**

– Məsələ ondadır ki, PTSP tez-tez nəzərə çarpmayan, lakin insanın həyatına dərin təsir göstərən ciddi psixi vəziyyətdir. Müharibə yalnız fiziki döyüş deyil, eyni zamanda, onun bitməsindən sonra da davam edən psixoloji bir mübarizədir. Bir çox qazilər bu gün də müharibənin travmatik hadisələrinin təsirindən qaynaqlanan "səssiz döyüşlər" aparmağa davam edirlər. Gələcək psixiatr olaraq araşdırmaq istəyirəm ki, müharibə psixiatriya baxımından qazilərimizə necə təsir edib və onların bu problemlə mübarizə aparmasına hansı vasitələr və yollarla kömək etmək olar.

**– Araşdırmalarınıza nədən başladınız?**

– İlk növbədə, elmi rəhbərimizlə mövzuya yanaşmaları müzakirə etdik. Sonra Səhiyyə Nazirliyinin Psixi Sağlamlıq Mərkəzinin rəhbəri, professor Fuad İsmayılovun dəstəyi ilə 1 saylı Respublika Psixiatrik Xəstəxanasında PTSP diaqnozu qoyulmuş qazilərin müayinəsini təşkil etdik.

Aydındır ki, PTSP hərbi əməliyyatları yaşamış insanların psixi sağlamlığına böyük təsir göstərən ciddi problemdir. PTSP diaqnozu qoyulmuş hərbçilərə və əsgərlərə klinik psixoloqlar tərəfindən müxtəlif növ psixoloji yardımlar göstərilir ki, bu da psixoloji profilaktika, məsləhət, dəstək və psixoterapiyanı əhatə edir. Həmçinin onlara dərman müalicəsi də təyin olunur. Müalicə metodunun seçimi, yəni psixoloji yardım və ya dərman terapiyası, psixi pozuntunun şiddətindən asılı olaraq müəyyən edilir ki, bu da qazilərlə iş prosesində fərdi yanaşmanın vacib olduğunu göstərir.

Hərbi qulluqçular və əsgərlər arasında PTSP əsasən koqnitiv-davranış terapiyası (KDT) vasitəsilə müalicə olunur. Bu, psixoloji yardım və psixoterapiyanın bir növü olaraq, travmatik hadisənin emosional, koqnitiv və davranış nəticələrini hədəf alan qısamüddətli və strukturlaşdırılmış psixoloji müdaxilədir. Terapiya prosesi zamanı PTSP-dən əziyyət çəkən hərbçilər travmatik hadisə ilə bağlı xatirələrlə, eləcə də travma ilə əlaqəli qaçılmaz vəziyyətlərlə qarşılaşır, lakin bunlar nəzarət altında və təhlükəsiz bir mühitdə baş verir. Koqnitiv-davranış terapiyası hərbi qulluqçulara travmatik hadisədən sonra yaranmış mənfi, təhrif olunmuş düşüncələri, həmçinin özlərinə və ətraf dünyaya dair münasibət və inancları müəyyənləşdirməyə, aradan qaldırmağa və dəyişdirməyə kömək edir. Bu məlumatları nəzərə alaraq, xüsusi tibbi yardım alan qazilərimizlə fərdi müsahibələr və müşahidələr keçirməyə başladıq. Bu görüşlər mənə dərin təsir bağışladı. Vətəninin müdafiəsi uğrunda ölümə tərəddüdsüz gedən cəsur əsgərlərin indi öz daxili dünyalarında müharibənin nəticələrinə qarşı necə mübarizə apardıqlarını gördüm.

**– Görünür, bu, biz düşündüyümüz qədər də asan məsələ deyil. Elə bilirəm, qazilərlə iş prosesində siz həssas və təsirləndirici məqamlarla çox qarşılaşırsınız. Bu məqamlar haqda açıq danışmaq olarmı?**

– Qarabağ müharibəsi qaziləri aldıqları ağır yaralara baxmayaraq, özlərində inanılmaz bir qürur və vətənpərvərlik hissini qoruyub saxlayırlar. Onların bir çoxu hələ də "səssiz döyüşlər" aparırlar; bu döyüşlər onların şüurunda və yuxularında davam edir. Onlar bizə qələbə və sülh bəxş etdilər, lakin bunun əvəzini çox ağır bir psixoloji mübarizə ilə ödəyirlər və bu mübarizə onların həyatında hələ də başa çatmayıb. Bu görüşlər mənə bir daha göstərdi ki, qazilərin yalnız fiziki sağlamlığına deyil, həm də psixi sağlamlığına xüsusi diqqət ayırmaq çox vacibdir.

Bizim tədqiqatımızın əsas məqsədi PTSP-dən əziyyət çəkən qazilərin adaptasiya mexanizmlərini və həyat keyfiyyətini öyrənməkdir. Araşdırmalarımızla onların müharibə şəraitinin təsirləri ilə



necə mübarizə apardıqlarını, hansı kopeinq strategiyalarından istifadə etdiklərini və PTSP-nin onların gündəlik həyatına, həm fiziki, həm də emosional olaraq necə təsir etdiyini anlamağa çalışırıq.

PTSP simptomlarının ağırlığı həmişə hərbi təcrübənin yığılması ilə bağlı olmur, yəni ağır döyüşlərdən keçmiş hər bir qazi ağır PTSP-dən əziyyət çəkmir. Bir çox qazi PTSP ilə mübarizə aparmaq üçün müxtəlif kopeinq strategiyalarından istifadə edir. Onlar ən çox dini inanclara yönəlirlər, sosial dəstəkdən istifadə edirlər, bəzən psixoaktiv maddələrdən istifadəyə və ya travmatik xatirələrdən psixoloji uzaqlaşmağa əl atırlar. Təbii ki, müşahidə və tədqiqatlarımızı davam etdirəcəyik, qaziləri yaş göstəricilərinə görə qruplaşdıraraq, PTSP-nin müşahidə olunduğu və müşahidə olunmadığı şəxslər arasında müqayisəli təhlillər aparacağıq.

**– Demək olarmı ki, PTSP qazilərin həyat keyfiyyətinə, yaşayışına təsirsiz ötüşmür?**

– Təəssüf ki, belədir. Araşdırmanın nəticələri göstərir ki, PTSP qazilərin həyat keyfiyyətinə həm fiziki, həm də psixoloji cəhətdən əhəmiyyətli dərəcədə mənfi təsir göstərir. Biz fiziki və emosional fəaliyyət səviyyəsinin azalmasını, sosial funksiyaların pisləşməsini və ağrı intensivliyinin artmasını müşahidə edirik. Bu, PTSP-nin qazilərin həm psixi vəziyyətinə, həm də ümumi fiziki sağlamlığına təsir etdiyini göstərir.

Araşdırmalar, həmçinin PTSP-dən əziyyət çəkən qazilər üçün psixososial dəstəyin sistematik təşkilinin vacibliyini göstərir. Bu dəstək, tibbi və psixoloji yardımla yanaşı, qazilərin travmaları ilə mübarizə aparmasına və sağlam həyata qayıtmalarına kömək edən reabilitasiya proqramlarını da əhatə edir. Peşəkar yardıma çıxışın təmin edilməsi və bu insanların sosial adaptasiyası üçün şərait yaradılması çox vacibdir.

**– ATU-nun Tələbə Elmi Cəmiyyətinin faliyyəti haqda qısaca da olsa məlumat verərdiniz.**

– Əvvəla ATU TEC-in elmi rəhbəri, startap və elmi koordinasiya şöbəsinin müdiri, tibb elmləri doktoru Müşviq Həsənovun gənc tədqiqatçılara dəstəyini qeyd etmək istərdim. Hər il ATU-da ənənəvi olaraq Tələbə Elmi Cəmiyyətinin konfransları keçirilir. Bizim kimi gənc tədqiqatçılar bu tədbirlərə böyük maraq və məsuliyyətlə yanaşırlar. Konfransların məqsədi elmə maraq göstərən tələbələri erkən yaşlardan elmi tədqiqata cəlb etmək, tədqiqatını kütlə qarşısında təqdim etməyə hazırlamaq və yeni tibbi tədqiqat sahələrində axtarışlara yönəldərək elm xadimlərini yetişdirməkdir. Bu gün bizi tibb sahəsində dünyada təmsil edən çoxsaylı elm xadimlərimiz də ilk addımlarını məhz Tələbə Elmi Cəmiyyətində atıblar. Tibb sahəsində öz istiqamətini tapmaq çox vacib və məsuliyyətli bir addımdır, çünki sən bütün ömrün boyu bu sahəyə xidmət göstərmək istəyirsənsə onu sevməlisən, yeniliklər gətirərək insanlara şəfa verməlisən.

**– Gələcəkdə bu istiqamətdə işinizi davam etdirəcəksinizmi?**

– Şübhəsiz. Elmi araşdırmalarımı davam etdirməyi və psixiatriya sahəsindəki biliklərimi daha da dərinləşdirməyi planlaşdırıram. İlk araşdırmalarımdan belə qənaətdəyəm ki, müharibə keçmiş insanların PTSP-dən əziyyət çəkməsi və bunun onlara təsiri mövzusu daha geniş araşdırılmalı və yeni müalicə və reabilitasiya metodları işlənib hazırlanmalıdır. Biz həkimlər Vətənimizin ərazi bütövlüyünü təmin edən, xalqımıza sülh və azadlıq bəxş edən qazilərin sağlamlığını bərpa edib onları normal həyata qaytarmağa borcluyuq.

***Əbülfəz BABAZADƏ,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü,***
***sənətşünas***




Cənab Prezident, Qəhrəman Ali Baş Komandan! Sizin rəhbərliyinizlə yenilməz Ordumuzun şücaəti sayəsində əldə etdiyimiz Şanlı Zəfər Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrilmişdir.

Siz Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda ulu öndərimiz Heydər Əliyevin başladığı mübarizəni yüksək səviyyədə davam etdirdiniz və Ata vəsiyyətinə əməl edərək haqq işimizi uğurla sona çatdırdınız. Sizin rəhbərliyinizlə rəşadətli Ordumuz 44 gün ərzində mümkün olmayanı mümkün edərək bizə hədsiz sevinc hissi yaşatdı. Artıq xalqımız 4 ildir ki, Qələbə sevinci ilə yaşayır. Bu tarixi Qələbədən sonra dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar alnıaçıq, üzüağdırlar və Azərbaycan vətəndaşı olmaqdan qürur hissi keçirirlər.

Çox hörmətli Prezidentimiz! Sizi və bütün işlərdə arxa-dayağınız olan Birinci vitse-prezident Mehriban Əliyevanı, eləcə də xalqımızı şanlı 8 Noyabr Zəfər Günü münasibətilə ürəkdən təbrik edirik. Sizə Azərbaycanın dünyadakı nüfuzunun daha da yüksəlməsi yolunda uğurlar arzulayırıq!

**"Hacığolu Salyan Park" MMC-nin kollektivi**

"Azərbaycan Hava Yolları"
Qapalı Səhmdar Cəmiyyəti

*Kibertəhlükəsizliyin təmin edilməsi üçün həllərin (lisenziyaların) satın alınması məqsədilə*

AÇIQ TENDER ELAN EDİR

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin kibertəhlükəsizlik üzrə həllərin satın alınması üçün açıq tenderində iştirakçılar arzu.qasimli@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Müraciət üçün son müddət 2024-cü il noyabrın 21-i saat 17.00-dəkdir.

Prosedur üzrə əlaqələndirici şəxs – Arzu Qasımlı, mütəxəssis, arzu.qasimli@azal.az, iş – (+99412) 4972600 daxili 6989.

***Satınalmalar idarəsi***

"Azərbaycan Hava Yolları"
Qapalı Səhmdar Cəmiyyəti

*Şəbəkə avadanlığı və lisenziyaların satın alınması üçün*

AÇIQ TENDER ELAN EDİR

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin şəbəkə avadanlığı və lisenziyaların satın alınması üçün açıq tenderində iştirakçılar arzu.qasimli@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Müraciət üçün son müddət 2024-cü il noyabr 21-i saat 17.00-dəkdir.

Prosedur üzrə əlaqələndirici şəxs – Arzu Qasımlı, mütəxəssis, arzu.qasimli@azal.az, iş – (+99412) 4972600 daxili 6989.

***Satınalmalar idarəsi***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 247 (30651) 8 noyabr 2024-cü il, cümə

İdman xəbərləri

## “Qarabağ” UEFA Avropa Liqasında ilk qələbəsini qazanıb

**“Qarabağ” dünən axşam UEFA Avropa Liqasında növbəti oyununu keçirib.**



Azərbaycan çempionu Liqa mərhələsinin IV turunda Norveçdə “Budyo-Qlimt” komandasının qonağı olub. “Aspmüra” stadionunda keçirilən qarşılaşma Ağdam klubunun qələbəsi ilə yekunlaşıb – 2:1.

Qarşılaşmanın 22-ci dəqiqəsində Toral Bayramov hesabı açıb – 1:0. Meydan sahibləri 41-ci dəqiqədə Marks Berqin vurduğu qolla hesabda tarazlıq yaradıblar – 1:1. “Qarabağ”ın qələbə topunu isə 69-cu dəqiqədə Abdullah Zubir vurub – 2:1.

Bu, ağdamlıların Liqa mərhələsində ilk qalibiyyəti olub. Xatırladaq ki, “Qarabağ” bundan əvvəl keçirdiyi oyunlarda İngiltərənin “Tottenhem” və Niderlandın “Ayaks” komandalarına 0:3, İsveçin “Malmö” kollektivinə isə 1:2 hesabı ilə uduzub.

## Akrobatika üzrə ölkə çempionatı

**Akrobatika gimnastikası üzrə 29-cu Azərbaycan çempionatı və Bakı birinciliyi start götürüb.**



Turnirdə Bakı Gimnastika Məktəbi, “Ocaq Sport” Klubu, “Neftçi” İdman Klubu, 13 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbindən, ümumilikdə, 73 idmançı qüvvəsini sınayır.

Qeyd edək ki, 29-cu ölkə çempionatına və Bakı birinciliyinə noyabrın 9-da yekun vurulacaq.

## “Barselona”nın 97 illik rekordu...

**İspaniyanın “Barselona” klubu nadir göstəriciyə imza atıb. Kataloniya təmsilçisinin heç-heçəsiz rəsmi oyunlar seriyası 30-a çatıb.**



Komanda buna UEFA Çempionlar Liqasının əsas mərhələsinin IV turunda Serbiyada “Srvena Zvezda”nı 5:2 hesabı ilə məğlub etməklə nail olub.

“Barselona” son 30 rəsmi qarşılaşmada rəqiblərinə ya qalib gəlib, ya da uduzub. Bu matçların heç birində bərabərlik qeydə alınmayıb.

Bununla da klub 97 ildən sonra ilk dəfə həmin göstəricini təkrarlayıb.

*S. FİDAN*
*XQ*

Ovqat

**Titrək əlində üçrəngli Azərbaycan bayrağı tutan balaca kişi! Əlində yellədiyin aylı-ulduzlu bayraq indi Şuşa şəhərinin ən uca nöqtəsində dalğalanır!**

28 il 6 ay işğalda olmuş xalqımızın mədəniyyət, ədəbiyyat beşiyinin, qədim tarixi şəhərinin azadlığa çıxdığı günə sən də sevinirsən. Gözün aydın olsun!

Biz 10 min 400 gündən artıq həmin günü gözləmişik!

# Bayraq sevgimiz, Şuşa sevincimiz



Düz 10 min 400 gün! Sən xoşbəxtsən! Həm də ona görə xoşbəxtsən ki, bu dözülməz ağrını, bu iztirabı, bu həsrəti yaşamaq sənə nəsib olmadı.

Sən bu yolda gedən qurbanları, axıdılan qanı, didilən sinələri, qovrulan ürəkləri görmədin. Əlbəttə, illər keçəcək, böyüyəndən sonra sənin atanın, babanın və onların mənsub olduğu nəslin bu qədim diyara, bu möhtəşəm şəhərə, Azərbaycanın muğam-musiqi beşiyi sayılan Şuşaya qovuşmaq üçün hansı əziyyəti çəkdiyini, onun hansı zəhmət bahasına öz sahibinə qayıtdığını biləcəksən.

Şuşa həsrəti sözə gəlməz, Şuşa iztirabı qələmə sığışmaz, Şuşa yanğısı dəryalarla soyumaz, necə ki, Şuşa özü təsvirə gəlmir...

Sevin, balaca dost, sevin, əziz Vətən sevdalısı!

Üzündəki təbəssüm, gözündəki sevinc əbədi olsun! Sən böyüdükcə, bu şəhərin hər daşının, hər qayasının necə böyük tarixi əhəmiyyət daşıdığını öyrənəcək, onun dünyaya bəxş etdiyi şəxsiyyətləri, mədəniyyət və incəsənət xadimlərini tanıyacaqsan, Şuşanın xalqımızın tarixində oynadığı roldan xəbərdar olacaqsan.

Sən qədim Şuşaya qalib əsgər, məğrur vətəndaş kimi daxil olacaq və qürur hissi ilə orada addımlayacaqsan!

Bu gün isə dağların zirvəsində yerləşən mədəniyyət beşiyini bizə qaytaran, onun azad olunması yolunda şəhid olanları ehtiramla yad edək, canını bu yolda qurban verənlərin əziz xatirəsi önündə baş əyək, yaralanan, əlil olan döyüşçülərin qəhrəmanlığını minnərdarlıq hissi ilə yada salaq…

Həm də təkcə bu gün yox, həmişə, hər vaxt…

Şuşa sevincin mübarək olsun!

Təkcə sənin yox, hamımızın…

*Süleyman QARADAĞLI*

Danışan fotolar seriyasından




## Naxçıvanda Zəfər veloyürüşü

**Tarixi zəfərimizin dördüncü ildönümü münasibətilə təşkil olunan veloyürüş Heydər Əliyev prospektində yerləşən Zəfər Parkından start götürüb.**



Tədbirin əvvəlində müstəqil Azərbaycanın qurucusu ümummilli lider Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə reallaşan veloyürüşdə iştirakçılar təyin olunmuş marşrut üzrə Əziz Əliyev və Cəlil Məmmədquluzadə küçələrindən hərəkət etməklə yenidən Zəfər Parkına – finişədək 7400 metr məsafə qət ediblər.

Oğlan (kişi) və qız (qadın) velosipedçilər arasında ilk üç yerin sahibləri, eləcə də ən yaşlı və ən azyaşlı iştirakçılar diplom, medal və hədiyyələrlə təltif olunublar. Mükafatları Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri səlahiyyətlərinin icraçısı, nazir müavini Məcid Seyidov təqdim edib.

Veloyürüşün nəticələrinə əsasən, Elvin Mikayılzadə oğlanlar arasında, Bahar Hüseynova isə qızlar arasında birinci olublar. Ramil Allahverdiyev ən yaşlı, Ceyhun Məmmədov isə ən kiçik yaşlı iştirakçı kimi mükafatlandırılıblar.

*XQ*

Hava

## Gündüz yağmursuz və dumanlı, gecə yağıntılı



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, noyabrın 8-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir.**

Gecəyə doğru yarımadanın bəzi yerlərində leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Səhər ayrı-ayrı yerlərdə zəif duman olacaq. Cənub-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 5-8, gündüz 13-16° isti olacaq.Atmosfer təzyiqi 774 mm civə sütunundan 771 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-80, gündüz 60-65 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gecəyə doğru bəzi şərq rayonlarında qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 0-5°, gündüz 13-18° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacaq.

*Q.QASIMOV*
*XQ*

Sağlamlıq

## Qara zeytun, ağ zeytun? Hər ikisi olsun dostun



**Pəhriz həkimləri bildirirlər ki, zeytundan müntəzəm istifadə immunitet sistemini gücləndirməyə kömək edir. Antioksidant mənbəyi olduğu üçün zeytun ürək sağlamlığını dəstəkləyir. Qida dəyəri yüksək olan bu qidanın həm qara, həm də yaşıl çeşidləri mövcuddur. Qara və yaşıl zeytun unikal qida profilinə malikdir və faydaları ilə fərqlənir.**

Xalq təbabəti ilə məşğul olan mütəxəssislərin fikrincə, yetişəndə qara zeytun mayalanır. Belə ki, bu prosesdə onların rəngləri dəyişir. Qara zeytun istehlakı həzm sistemini tənzimləməyə kömək edir və hüceyrə sağlamlığını dəstəkləyir.

Yaşıl zeytun yığıldıqdan dərhal sonra istehlak edilə bilər. Buna görə də daha az yetişir. Yaşıl zeytun tərkibindəki polifenollar vasitəsilə iltihab əleyhinə təsir göstərir.

Hansı zeytun növünü seçmək, ümumiyyətlə, şəxsi zövqlərdən və pəhriz üstünlüklərindən asılıdır.

*Z.HÜSEYNLİ*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2565
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00